Xalqın qəzeti!

# Xalq qəzeti

№ 188 (30882) 5 sentyabr 2025-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Moskva da Minsk qrupundan əl çəkir



Səhifə ⇨ 5

# Azərbaycanın Avrasiya üçün önəmi Şanxay zirvəsində



Səhifə ⇨ 5

## Ay Sobhani, sən yenə danışırsan?

### *İranın Ermənistandakı səfiri köhnə "ampluasındadır"*

**"Prezident Tramp Zəngəzur dəhlizinə öz adını verdikdən sonra əminəm ki, bu layihə çox yaxın zamanda reallaşacaq". Bu fikri Prezident İlham Əliyev avqustun 26-da Səudiyyə Ərəbistanının "Əl-Ərəbiyyə" telekanalında yayımlanmış müsahibəsində dilə gətirib. Dövlətimizin başçısının iqtibasını isə təsadüfən diqqətə çatdırmadıq. Yazımız əsnasında məsələyə qayıdacağıq. Hələlik isə...**

Deməli, elə şəxslər var ki, özlərini, sadəcə, kor inada kökləyirlər. Bəzən, belələrinin məram və məqsədlərini anlamaq olmur. Bu cür xislət sahiblərinin diplomatiyaya yol tapması isə daha acınacaqlıdır. Ancaq təəssüf ki, kifayət qədər, həssas sayılan sahədə onlara rast gəlinir, hətta, vacib post tuturlar. Tam əminliklə deyə bilərik ki, İranın Ermənistandakı səfiri Mehdi Sobhani də fəaliyyəti mövcud prizmadan qiymətləndirilən şəxslərdəndir. Adam hər şeydən əvvəl diplomatiya adına böyük utancdır. O, dəfələrlə mənfi ampluasına uyğun davranıb və yenə köhnə şakərindədir.



İndiki durumda M.Sobhani, obrazlı desək, pultu xarab olmuş robotu xatırladır. Robot vaxtilə sərt diskinə yazılmış bəlli proqram üzrə hərəkət edir. Ona İran–Azərbaycan münasibətlərindəki soyuqluğun aradan qalxması da, İrəvanın Bakı ilə sülhə gəlməsi də çatmır. Görünür, İranda Sobhanini idarə edən pultu düzəltmək istəyənlər yoxdur. Bəlkə, adama əhəmiyyət vermirlər? Ola bilər, ümumən "robotun" pultu itib. Belədə sual yaranır: Ermənistandakı missiyası başa çatdıqdan sonra adamı geri çağıra biləcəklər? Yaxud, bunu necə edəcəklər? Bir ehtimal da var: Mehdi Sobhani adlı şəxsin Ermənistanda səfir kimi fəaliyyət göstərdiyi tamamilə yaddan çıxıb.

*(ardı 7-ci səhifədə)*

## Revanşistlər özləri deyib, özləri də eşidirlər

### *Məğlub və yorulmuş cəmiyyət onlara arxa çevirib*

**Ermənistan parlamentində müzakirəyə çıxarılan qanun layihələri bəzən ölkənin daxili və xarici siyasətinə birbaşa təsir göstərir. Xüsusilə, tarixi məsələlərə toxunan təşəbbüslər həm ictimai rəyin formalaşmasında, həm də beynəlxalq münasibətlərdə əks-səda doğurur.**

Bu kontekstdə qondarma "erməni soyqırımı" ilə bağlı təşəbbüslər hər zaman diqqət mərkəzində olub. Çünki Ermənistan dövlət müstəqilliyini bərpa etdikdən sonra bu mövzunu siyasi gündəmdə saxlamaqla öz mövqeyini gücləndirməyə çalışıb. Lakin heç də bütün cəhdlər gözlənilən nəticə verməyib və bəzən daxili mübahisələrin qızışmasına gətirib çıxarıb. Parlamentin son qərarı da məhz bu baxımdan xüsusi maraq doğurur. Qanunverici orqanın Dövlət və hüquq məsələləri daimi komissiyasının sentyabrın 3-də "erməni soyqırımı"nın inkarına görə cinayət məsuliyyəti nəzərdə tutan qanun layihəsini dəstəkləməməsi həm Ermənistan daxilində, həm də ölkə xaricində geniş müzakirələrə səbəb olub.

*(ardı 7-ci səhifədə)*



## "Körfəz strategiyası": regional və qlobal əməkdaşlıq



Səhifə ⇨ 4

## Overçukun ehtiyatlı optimizmi barədə

### *İndi Azərbaycan nə etməlidir?*

**Ehtiyatlı optimizm. Bu ifadəni Rusiya baş nazirinin müavini Aleksey Overçuk ölkəsinin Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin paraflanmasına münasibəti kontekstində dilə gətirib. Yəni, o bildirib ki, Moskva prosesə ehtiyatlı optimizmlə yanaşır.**



Ümumən, Bakı–İrəvan münasibətləri hazırda elə bir durumdadır ki, hər iki tərəf bir-birindən ehtiyatlanır və bu, müəyyən mənada, təbiidir. Birincisi, söhbət otuz ildən artıq davam etmiş münaqişənin başa çatmasından gedir. İkincisi, 44 günlük müharibədən sonrakı zaman kəsiyində də Azərbaycan və Ermənistan arasında etimad mühiti yaranmadı. Üçüncüsü, obrazlı desək, hələ qaysaq bağlamamış yaralar var. Yəni, tam normallaşma vaxt alacaq. Sülh müqaviləsi mətnində nəzərdə tutulanların da, avqustun 8-də Vaşinqtonda imzalanmış Birgə Bəyannamədə əksini tapanların da reallaşması üçün zaman amili önəmlidir.

*(ardı 3-cü səhifədə)*

# Yusif Səmədoğlunun 90 illiyinin qeyd edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

2025-ci ilin dekabr ayında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq yazıçısı, tanınmış ictimai xadim Yusif Səmədoğlunun (Yusif Səməd oğlu Vəkilovun) 90 illiyi tamam olur.

Yusif Səmədoğlu XX əsr Azərbaycan nəsrinin yetirdiyi nadir istedada malik böyük simalardandır. Yüksək bədiilik nümunəsi olan dərin ictimai-mənəvi məzmunlu əsərləri, o cümlədən hekayələri, romanları və film ssenariləri ilə ədəbi prosesdə iz qoymuş yazıçının ötən əsrin 60–70-ci illərində milli nəsrin keyfiyyətcə yeni mərhələyə keçməsində xüsusi xidmətləri vardır. Parlaq mədəniyyət hadisəsinə çevrilən, dünya və insan haqqında məşhur "Qətl günü" romanı ədibə Azərbaycanın hüdudlarından uzaqlarda da şöhrət qazandırmışdır. Yusif Səmədoğlu rəhbəri olduğu mühüm ədəbi-bədii məcmuələrdən milli düşüncə və ideyanın daha geniş yayılması üçün tribuna kimi istifadə etmiş, ölkədə azadlıq hərəkatının və müstəqillik uğrunda mübarizənin ön sıralarında dayanmış, xalqın taleyüklü məsələlərinə münasibətdə həmişə vətəndaş-ziyalı mövqeyi ilə seçilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli bədii fikir xəzinəsinin zənginləşməsi işinə layiqli töhfələr vermiş Xalq yazıçısı Yusif Səmədoğlunun 90 illik yubileyinin qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Xalq yazıçısı Yusif Səmədoğlunun 90 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 4 sentyabr 2025-ci il**

# H.C.Hüseynovun Azərbaycan Respublikasının Bolqarıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Hüseyn Cəlal oğlu Hüseynov Azərbaycan Respublikasının Bolqarıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 4 sentyabr 2025-ci il**

# Azərbaycanın müdafiə naziri Vyetnamda

**Vyetnamda rəsmi səfərdə olan Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov həmin ölkənin Baş naziri Pham Minh Chinh ilə görüşüb.**




Görüşdə Azərbaycan ilə Vyetnam arasında müdafiə sahəsində əməkdaşlığa dair müzakirələr aparılıb.

Səfər çərçivəsində general-polkovnik Z.Həsənov, həmçinin vyetnamlı həmkarı general Phan Van Giang ilə görüşüb. Görüşdə Azərbaycan ilə Vyetnam arasında hərbi əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub, həmçinin qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulanaraq bir sıra məsələlərə dair geniş fikir mübadiləsi aparılıb.

Sonda hər iki ölkənin müdafiə nazirləri tərəfindən hərbi təlim sahəsində əməkdaşlıq üzrə "Niyyət məktubu" imzalanıb.

# BƏƏ ilə iqtisadi əlaqələr möhkəmləndirilir




**İqtisadiyyat naziri Mikayıl Cabbarov Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabirlə onlayn formatda görüşüb.**

Görüşdə ölkələrimiz arasında uğurlu tərəfdaşlıq münasibətlərinin yüksələn xətt üzrə inkişaf etdiyi vurğulanıb. Qeyd olunub ki, bu ilin iyulunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BƏƏ-yə işgüzar səfəri çərçivəsində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi" ticarətin asanlaşdırılmasında, iqtisadi əməkdaşlığın gücləndirilməsində mühüm rol oynayacaq.

Tərəflər həyata keçirilən birgə layihələr, energetika üzrə tərəfdaşlıq, qarşılıqlı sərmayə qoyuluşu və əməkdaşlığın inkişaf perspektivləri haqqında müzakirələr aparıblar.

**XQ**

# Azərbaycan–NATO əməkdaşlığının perspektivləri

**Azərbaycanın NATO yanında nümayəndəliyinin başçısı Cəfər Hüseynzadə Alyansın Hərbi Komitəsinin sədri admiral Cüzeppe Kavo Draqone ilə görüşüb.**



NATO-nun mənzil-qərargahında keçirilən görüşdə "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində Azərbaycan-NATO tərəfdaşlığı və əməkdaşlıq perspektivləri müzakirə edilib.

Qarşı tərəf Azərbaycanın NATO-nun etibarlı tərəfdaşı olduğunu bir daha vurğulayıb, ölkəmizin Alyansın rəhbərlik etdiyi sülhə dəstək əməliyyatlarına töhfəsini, eləcə də Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində rolunu yüksək qiymətləndirib.

# XİN-in Portuqaliya və Sudanla bağlı paylaşımı

**Azərbaycan Xarici İşlər Nazirliyi Portuqaliyanın paytaxtı Lissabonda funikulyor qəzası ilə bağlı başsağlığı verib.**

Bu barədə XİN-in "X" hesabında paylaşım edilib.

"Lissabonda "Gloria" funikulyorunun relsdən çıxması hadisəsi bizi dərindən kədərləndirdi. Qəza nəticəsində həlak olanların ailələrinə və yaxınlarına başsağlığı verir, yaralılara şəfa diləyirik", - məlumatda qeyd olunub.

Xatırladaq ki, qəza nəticəsində 15 nəfər həlak olub, 20-yə yaxın şəxs isə yaralanıb.

***

XİN Sudanda baş verən torpaq sürüşməsi nəticəsində həlak olanların ailələrinə də başsağlığı verib:

"Bu çətin zamanda qardaş Sudan xalqının kədərini bölüşürük. Yaralılara şəfa diləyir və Sudan xalqının bu faciənin nəticələrini güc və dözümlə dəf edəcəyinə ümid edirik".

Onu da bildirək ki, Sudanda torpaq sürüşməsi səbəbindən 1000-dən çox insan həlak olub.

**XQ**

# Vaşinqton sammitinin əks-sədası

**Sentyabrın 1-2-də Azərbaycanın xarici işlər nazirinin müavini Fariz Rzayev 20-ci Bled Strateji Forumunda iştirak məqsədilə Sloveniyada səfərdə olub.**

Forum çərçivəsində nazir müavini dünyada hökm sürən cari beynəlxalq vəziyyətə həsr olunmuş panel müzakirələrində çıxış edib. Çıxışda cari ilin avqustun 8-də baş tutmuş Vaşinqton sammiti zamanı əldə edilmiş tarixi razılaşmalardan, Azərbaycan-Ermənistan normallaşma prosesi və sülh gündəliyindən bəhs edib, regionda sabitliyin əhəmiyyəti vurğulanıb.

Çıxışda, həmçinin Azərbaycanın Avropa ölkələrinin enerji təhlükəsizliyinə verdiyi töhfə, ölkəmizin iştirakı ilə gerçəkləşən irimiqyaslı enerji və nəqliyyat layihələrinə diqqət çəkilərək, Orta Dəhliz kimi beynəlxalq nəqliyyat marşrutlarının yaradılmasında və fəaliyyətində ölkəmizin oynadığı vacib rol barədə məlumat təqdim edilib.

**XQ**

# Daxili işlər naziri Naftalanda





**Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov sentyabrın 3-4-də Naftalan Şəhər Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.**

Nazir əvvəlcə Naftalan şəhərində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra rayon polis şöbəsinin inzibati binasında Gəncə, Naftalan, Goranboy, Samux, Göygöl, Daşkəsən, Xocalı, Kəlbəcər, eləcə də digər şəhər və rayonlardan gələn 172 vətəndaşın müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib. Nazir müraciətlərin həlli istiqamətində zəruri addımların atılması və vətəndaş məmnunluğunun təmin olunması məqsədi ilə Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə ciddi tapşırıqlar verib. Müraciətlərin mütləq əksəriyyəti yerindəcə öz həllini tapıb.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov polis orqanlarında xidmət etmək arzusunda olan gənclərin sıra baxışını da keçirib. Vətən müharibəsinin 16 iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 121 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

**XQ**

# İzmirdə Azərbaycan – Türkiyə IV Enerji Forumu keçirilib




**İzmir şəhərində Azərbaycanın energetika naziri Pərviz Şahbazov və Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktarın həmsədrliyi ilə Azərbaycan – Türkiyə IV Enerji Forumu keçirilib.**

Açılış mərasimində çıxış edən nazir Pərviz Şahbazov bildirib ki, Azərbaycan və Türkiyə uzun illərdir təkcə enerji sahəsində tərəfdaş deyil, həm də regionun geoiqtisadi mənzərəsini formalaşdıran, sülhə, sabitliyə və davamlı inkişafa töhfə verən, beynəlxalq enerji təhlükəsizliyində birgə addımlayan strateji müttəfiqlərdir. İndiyədək Azərbaycandan Türkiyəyə 120 milyard kubmetrdən çox qaz ixrac olunub. Ötən müddətdə TANAP-la Türkiyəyə 35 milyard, Avropaya isə 50 milyard kubmetrdən artıq qaz nəql edilib. Bu ilin 8 ayında Türkiyəyə 6,6 milyard, Türkiyə üzərindən Avropa ölkələrinə isə 8,3 milyard kubmetr qaz çatdırılıb. Azərbaycan – Türkiyə strateji müttəfiqliyi sayəsində Suriyanın da enerji təhlükəsizliyinə töhfə verilir və qısa müddətdə bu ölkəyə 60 milyon kubmetr qaz göndərilib.

Nazir daha sonra qeyd edib ki, "İğdır-Naxçıvan" qaz kəmərinin istifadəyə verilməsi, TPAO şirkətinin "Şəfəq-Asiman" layihəsinə qoşulması, Suriyaya qaz tədarükünə başlanması, "yaşıl enerji interkonnektor"larının qurulması və Zəngəzur dəhlizi, yaxud "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" üzrə razılaşmaların əldə olunması enerji əlaqələrimizin yeni, daha güclü səhifəsini yazır. Nazir çıxışında türk şirkətlərinin Kəlbəcər və Laçında həyata keçirdiyi ümumi gücü 13 meqavat olan 4 kiçik su elektrik stansiyası, həmçinin Kəlbəcərdə 240 meqavat gücündə külək elektrik stansiyası layihələrinə də toxunub.

Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar isə deyib ki, Türkiyə və Azərbaycan sahib olduqları geostrateji mövqe, zəngin təbii sərvətlər və inkişaf etmiş infrastrukturla bir-birini tamamlayan rollar oynayır, eyni zamanda regional və qlobal enerji təchizatının təhlükəsizliyinə mühüm töhfələr verir. Türkiyə və Azərbaycan güclü infrastruktura və köklü əlaqələri ilə həm regional təchizat təhlükəsizliyində, həm də qlobal bazarlarda etibarlı tərəfdaş olaraq qalmaqda davam edəcək.

Açılış mərasimində iştirak edən Azərbaycan Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi Muxtar Babayev iki ölkənin enerji keçidi sahəsində əməkdaşlığının və COP29 təşəbbüsləri üzrə həmrəyliyinin iqlim məsələlərinə töhfələrindən danışıb.

Forum çərçivəsində fəaliyyət göstərən karbohidrogen və neft-kimya, elektrik enerjisi bazarı, elektrik enerjisinin paylanması və ötürülməsi, tənzimləmə, enerji səmərəliliyi və mədənçilik üzrə İşçi qruplarının məruzələri dinlənilib. Bununla yanaşı, enerji şirkətlərinin iştirakı ilə dəyirmi masa keçirilib. Enerji təhlükəsizliyinin gücləndirilməsi, qlobal və regional enerji qurumlarında əməkdaşlığın davam etdirilməsi, elektrik sahəsində ikitərəfli və çoxtərəfli layihələrin birgə icrası, eləcə də Türkiyədə, Azərbaycanda və üçüncü ölkələrdə enerji və mədənçilik investisiya layihələrinin dəstəklənməsi üzrə əməkdaşlıq etmək razılaşdırılıb.

Sonda "Türkiyə-Azərbaycan IV Enerji Forumunun Protokolu" imzalanıb.

*

Forum çərçivəsində energetika naziri Pərviz Şahbazov Türkiyə Külək Enerjisi Birliyinin sədri İbrahim Erden və "Nordex Qrupu"nun İdarə Heyətinin üzvü İbrahim Özarslanla görüşüb.

Söhbət zamanı külək enerjisi sahəsində fəaliyyət, turbinlər və onların hissələrinin istehsalı, texniki xidmət, kadr hazırlığı üzrə təcrübə mübadiləsi olunub. Azərbaycanın quruda və dənizdə külək enerjisi istehsalı, həmçinin ixrac layihələri barədə məlumat verilib. Külək turbinləri və avadanlıqlarının Azərbaycanda istehsalı perspektivləri və əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparılıb. Şirkətlər bu imkanları yaxından öyrənmək üçün Azərbaycana dəvət olunublar.

**XQ**

# Overçukun ehtiyatlı optimizmi barədə

(əvvəli 1-ci səhifədə)

Hər bir halda, Azərbaycan və Ermənistan barış sazişini paraflamaqla sülh yolunda böyük addım atıblar. Bütövlükdə dünya ictimaiyyətinin mövqeyi belədir. Etiraf edək ki, Rusiyada da bu barədə düşünənlər az deyil. Overçukun vurğuladığı ehtiyat məntiqi isə həmişə aktualdır. Hərçənd, bu məntiqi vurğulayan yoxdur. Çünki heç kəs ümumi ab-havaya xələl gətirmək istəmir. Hər kəs yaxşı anlayır ki, Moskva birdən-birə qurulmayıb. Deməli, başlıca məqsəd "Moskvanı qurmağa" çalışmaqdır. Azərbaycan və Ermənistan, eyni zamanda, Cənubi Qafqazda yeni düzən formalaşdırmağa çalışır. Hər iki ölkə cəmiyyətində bununla bağlı fikirlərin sayı artmaqdadır və optimizmə əsas verən məhz budur. Elə isə sual yaranır: Hazırda ehtiyat dedikdə ən çox yada düşən nədir? Heç şübhəsiz, ağla Rusiya gəlir.

Əlbəttə, Bakı və İrəvan arasında həllivacib məsələlər də var. Ancaq tərəflər fundamental məqamlar ətrafında razılığa gəliblər və bu onların imzaları ilə təsdiqlənib. Azərbaycan imzasına sadiqdir. Ötən illərin təcrübəsinə diqqət yetirsək, Ermənistanın yolundan sapma ehtimalı var. O zaman daha bir sual yaranır: Necə ola bilər ki, Ermənistan sülh sazişindən imtina etsin?

*

Sualı təkcə biz vermirik. Yada salaq ki, ötən ayın sonunda Prezident İlham Əliyevdən müsahibə götürən Səudiyyə Ərəbistanının "Əl-Ərəbiyyə" telekanalının müxbiri də eyni məqamı gündəmə gətirmişdi: "Kiçik bir sualım var. Bu münasibətdən sonra Siz Azərbaycanın etməyə çalışdığının qarşısını almaq üçün Rusiyanın hər hansı bir hərəkətə əl atacağından qorxmursunuz? Mən coğrafiyanı, dəhliz və sair məsələləri nəzərdə tuturam".

Prezident İlham Əliyevin cavabını da xatırladaq: "Onların (Rusiyanın – red.) Ermənistanda hərbi bazası və bir neçə min nəfərdən ibarət hərbi heyəti var. Eyni zamanda, Ermənistanın İran və Türkiyə ilə sərhədi Rusiya sərhədçiləri tərəfindən qorunur. Azərbaycan torpağında bir nəfər də rus əsgəri yoxdur. Beləliklə, Ermənistanda nə baş verə bilər, mən bunu bilmirəm. Lakin mən bu mənfi ssenari haqqında düşünmək istəmirəm".

*

Ermənistanda Rusiya meyilli müxalifət də var. O müxalifət ki, baş nazir Nikol Paşinyan administrasiyasını Azərbaycanla sülhə görə qınayır. O müxalifət ki, onun rəsmi İrəvanın indiyədək barış yolunda axsaqlıq nümayiş etdirməsində "rolu" var. Ona görə Prezident İlham Əliyev "Əl-Ərəbiyyə" telekanalına müsahibəsində Vaşinqtonda imzalanmış sənədin əhəmiyyətinə izah verərkən bunları demişdi: "Əgər onlar (Ermənistan – red.) bizim ərazi bütövlüyümüzü tanımaqdan imtina etsələr, biz də onların ərazi bütövlüyünü tanımaqdan imtina edəcəyik. Burada kim qazanacaq, kim uduzacaq? Məncə, bu, ritorik sualdır. Ona görə hesab edirəm ki, Ermənistanın istənilən gələcək hökumətində kifayət qədər müdriklik, ağlabatan yanaşma olacaq ki, Vaşinqtonda razılaşdığımızı şübhə altına almasın. Bir daha qeyd edirəm ki, bu, iki dövlət arasında razılaşmadır. Bu, Paşinyan ilə mənim razılaşmamız deyil".

*

Dövlətimizin başçısı əbəs yerə Ermənistandakı rus hərbi mövcudluğundan da danışmaz, "bu, Paşinyan ilə mənim razılaşmamız deyil" də deməz. Belə qənaətə gəlirik ki, hazırda sülhü təhdid edən faktor dedikdə yada düşən məhz Rusiyadır və ölkənin, belə demək mümkünsə, anti-sülh ampluası yalnız bu yazı əsnasında gəlinən nəticə deyil. Ümumən, bir sıra ekspertlər Azərbaycan-Ermənistan sülhünün Rusiyanın Cənubi Qafqazdakı mövqeyini sarsıtdığı düşüncəsindədirlər. Niyə bu düşüncədədirlər? Çünki Rusiya ictimaiyyətində təmsil olunan ayrı-ayrı şəxslər bildirirlər ki, Bakı və İrəvan ABŞ-la birləşərək, Kremli Cənubi Qafqazdan sıxışdırır və istər-istəməz Moskvanın müqavimət göstərəcəyi tezisi gündəmə gəlir. Bəs olmazdımı ki, bütün bunlar barədə söz açılmayaydı? Görünür, olmazmış.

*

Məsələ ondadır ki, ötən beş ildə Qərbin müxtəlif platformalarında Azərbaycan-Ermənistan danışıqları aparılıb və Rusiya həmin danışıqların nəticələrini şübhə altına almağa çalışıb. Ölkə rəsmiləri, bir qayda olaraq, belə bir fikir irəli sürüblər ki, Qərb platformalarında əldə ediləcək razılaşma fundamental mahiyyət daşıya bilməz. Niyə daşıya bilməz, suala tutarlı cavab olmayıb, yalnız ümumi ifadələri görmüşük.

Ancaq Rusiya tərəfinin haqlı çıxdığını da deyə bilərik. Amma necə? Məsələn, 2022-ci ilin oktyabrında Praqada baş nazir Nikol Paşinyan Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıdığını bildirmişdi. O, mövqeyini bir daha 2023-cü ilin yayında Brüsseldə təkrarlamışdı. Amma çifayda. Çünki Qarabağda erməni separatizmi qalırdı, "Artsax", "Artsax" deyib ortaya düşənlər özlərini müstəqil dövlət sayırdılar, bölgədə Ermənistanın on minə yaxın hərbçisi də var idi. Üstəlik, Qarabağda Rusiya hərbçiləri də mövcudluqlarını saxlayırdılar və manevr siyasəti yürüdən erməni iqtidarı, loru dildə desək, bir əldə iki qarpız tutmağa çalışırdı.

Paşinyan administrasiyası həmin vaxt həm Qərbə xoş gələn anti-Rusiya xətti yürüdür, həm də Kremlin erməni sevgisinə siyasi sərmayə yatıraraq elə zənn edirdi ki, sülhməramlı rus kontingentinin bölgədə qaldığı müddətdə Azərbaycan cəsarət edib hücuma keçə bilməz. Lakin hər şey Silahlı Qüvvələrimizin 2023-cü ilin sentyabrında həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri ilə puça çıxdı. Ermənistan real danışıqlara məhz bundan sonra başladı. Daha doğrusu, başlamaq məcburiyyətində qaldı.

*

Deməli, Qərblə yanaşı, Rusiya amili də imkan vermirdi ki, rəsmi İrəvan düzgün məcrada addımlasın. Digər tərəfdən, axı həmin Rusiyanın rəhbər şəxslərinin Qarabağın statusu məsələsinin həllinin sonraya saxlanılması kimi açıqlamaları xatirimizdədir. Hiss olunmuşdu ki, Moskva ötən otuz ildə olduğutək münaqişəni donmuş hala gətirmək istəyir. Üstəlik, Qarabağdakı rus hərbçiləri, sanki, yerli erməni əhalini himayə edirlər. Onlar özlərini haylara şirin satmaq üçün dəridən-qabıqdan çıxırdılar. Hətta əsəblərimizin Qarabağın birbaşa Rusiyanın ixtiyarına keçməsinə dair cəfəngiyyatlarla da tarıma çəkildiyi vaxtlar oldu.

Bir sözlə, Rusiya, Rusiya, Rusiya. Ölkə 2020-ci ildən sonrakı müddətdə real sülh üçün heç nə etmədi. Həm bəzən Ermənistan buna imkan tanımadı, yəni Moskva İrəvanla bacarmadı, həm də, Kreml böyük ölçüdə, münaqişə məntiqini qorumağa çalışdı. Azərbaycan üçün isə başlıca vəzifə öz prinsiplərini qəbul etdirmək idi ki, istəyinə çatdı. İndi Rusiyanın bəzi dairələrinin yanaşması, təxminən, ondan ibarətdir ki, ölkəmiz İrəvanla birbaşa danışıqlar aparmaqla, Moskvaya qarşı düz hərəkət etməyib. Beləələri, Rusiyanı böyük qardaş qiyafəsində görməli olduğumuzu düşünəcək qədər dərin psixozun təsirindədirlər. Halbuki, Azərbaycan Rusiyanın regiondakı maraqlarına hər zaman ehtiramla yanaşıb. Ancaq Prezident İlham Əliyevin bildirdiyi kimi, "münasibətlərin korlanmasına görə məsuliyyət bizim üzərimizə düşmür. Biz yalnız konstruktiv və hüquqi şəkildə cavab veririk, lakin heç vaxt bizə qarşı təcavüz əlamətlərinə və təzahürlərinə, yaxud hörmətsizliyə dözməyəcəyik".



*

Sonda onu da deyək ki, Azərbaycan cəmiyyətinin Rusiyadan gözləntisi cənab Overçukun təbirincə desək, ehtiyatlı optimizm deyil. Çünki Moskvanın qeyri-adekvat siyasəti sayəsində indi optimizm üçün ehtiyatlılıq paradiqması fərqli assosiasiyalar doğurur, səmimi təsir bağışlamır, təfriqə təmayülünü daşıyır və güman edirik, bu barədə söz açdıq. Daha yaxşı olar ki, hazırda rəsmi Moskva Bakı-İrəvan normallaşmasına, ümumən, toxunmasın və Azərbaycanla münasibətləri qaydaya salmağa diqqət yetirsin. Hesab edirik ki, məhz bu amil onun həm də Azərbaycanla Ermənistan arasında sülhün qərarlaşmasına böyük və real töhfəsi olar. Bakı-Moskva münasibətlərindəki gərginliyin aradan qalxmasının isə bir yolu var ki, o da 2024-cü ilin dekabrında Rusiya səmasında vurulmuş "Azərbaycan Hava Yolları"na məxsus təyyarəyə görə məsuliyyətin müəyyənləşməsi, bu amansız cinayəti törədənlərin qanun qarşısında cavab vermələri, həlak olanların ailələrinə və zərərçəkənlərə təzminatın ödənilməsi, ümumən, dəymiş zərərin qarşılanmasıdır. İndi biz optimist damarımızı işə salaraq Rusiyadan bunları gözləyir, ölkənin böyüklük göstərəcəyinə inanırıq. Güman edirik ki, inamımız və gözləntimiz boşa çıxmaz.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Aİ-nin iqlim siyasətində "Paris böhranı"

## *Oktyabr toplantısı ya "tarixi razılaşma", ya da "böyük uğursuzluq" gətirəcək*

**Avropa İttifaqının (Aİ) iqlim siyasətinin gələcək istiqaməti Fransanın son mövqeyindən sonra qeyri-müəyyənliklərlə üz-üzədir. Paris israr edir ki, 2040-cı ilə qədər emissiyaların azaldılmasına dair hədəf, sadəcə, ətraf mühit nazirlərinin texniki müzakirələrində deyil, birbaşa Avropa Şurasında Aİ liderlərinin iştirakı ilə müəyyənləşdirilsin. İlk baxışda prosedur xarakterli görünən bu tələb Aİ-nin iqlim gündəminə əsaslı təsir göstərmək gücünə malikdir. Çünki bu yanaşma həm qərar qəbuletmə prosesini ləngidə, həm də həmrəyliyi sınağa çəkərək ittifaqın beynəlxalq liderlik mövqeyini sual altına sala bilər. Əslində, Aİ-nin ətraf mühit nazirləri sentyabrın 18-də səsvermə keçirməyi planlaşdırırdı. Bu tarix təsadüfi seçilməmişdi. Məqsəd Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin BMT Baş Assambleyası çərçivəsində keçiriləcək iqlim sammitinə konkret nəticələrlə qatılmasını təmin etmək idi. Lakin Parisin israrı planı dəyişdi. Əgər nazirlər səviyyəsində hədəfin qəbul edilməsi üçün ixtisaslı səs çoxluğu yetərli idisə, liderlər səviyyəsində artıq yekdillik tələb olunur. Bu isə Macarıstan və Polşa kimi iqlim siyasətinə şübhə ilə yanaşan ölkələrin razılığını da zəruri edir.**



Aİ-nin iqlim gündəliyində yaranan mürəkkəb vəziyyət təşkilatın qərar qəbuletmə mexanizmlərinin nə qədər incə balans üzərində qurulduğunu bir daha göstərir. Oktyabrın sonlarınadək Avropa Şurasının iclasının keçirilməməsi, 2040-cı il hədəfinin təsdiqini aylarla ləngidə bilər. Bu ləngimə isə komissiyanı və danışıqlara rəhbərlik edən Danimarkanı çıxılmaz vəziyyətə salaraq 2035 və 2040 hədəflərinin bir-birindən ayrılması ehtimalını gündəmə gətirir. Belə addım isə şübhəsiz ki, 2035-ci il üçün nəzərdə tutulan məqsədləri zəifl'dəcək.

Məsələni həssas edən amillərdən biri də BMT-nin ölkələrdən Paris İqlim Sazişi çərçivəsində 2035-ci il üzrə planlarını sentyabrın sonunadək təqdimini tələb etməsidir. Sentyabrın 24-də Nyu-Yorkda Baş Assambleya çərçivəsində dünya liderləri emissiyaların azaldılması planlarını açıqlayacaqlar. Noyabrda Braziliyada keçiriləcək COP30 sammitində 2035 hədəfi mərkəzi mövzulardan biri olacaq. Xüsusilə də, həmin konfrans Paris Sazişinin 10 illiyinə təsadüf edir və Fransa sazişin əsas müdafiəçilərindən biri kimi, ənənəvi liderlik rolunu qorumağa çalışır.

Bu kontekstdə Aİ diplomatlarının narahatlığı başadüşüləndir: əgər Komissiya sədri Ursula Fon der Lyayen BMT-yə dəqiq hədəf olmadan yollansa, bu, yarımçıq təsir bağışlayacaq. Ona görə də Brüssel və Kopenhagen israrla bildirirlər ki, 2035 və 2040 hədəfləri bir-birindən ayrılmamalı, əlaqəli şəkildə qəbul edilməlidir. Alternativ variant kimi 2035-ci ilin məqsədlərini yalnız 2050-ci il iqlim neytrallığı ilə əlaqələndirmək təklif olunur. Lakin bu yanaşma daha zəif nəticələr doğura bilər. Danimarka sentyabrın 18-də ətraf mühit nazirlərinin hər iki hədəf üzrə səsverməsini istəyir. Bu isə hökumətlərin cəmi iki həftə ərzində ortaq mövqe tapmasını tələb edir. Lakin bəzi ölkələr – o cümlədən Fransa, Polşa, Çexiya və Macarıstan məsələni liderlər səviyyəsində müzakirəyə çıxarmaqda israrlıdırlar. Emmanuel Makron artıq iyun ayında açıq şəkildə iki hədəfi ayırmaq istədiyini bəyan etmişdi. Digər tərəfdən, İtaliya da hədəflərlə bağlı razılığın yalnız "siyasi müzakirə və əlavə vaxt" tələb etdiyini vurğulayır.

Bu qarşıdurmanın arxasında Aİ-nin qərar qəbuletmə mexanizmlərinin incə məntiqi dayanır. İqlim məsələləri adətən Nazirlər Şurasında ixtisaslı səs çoxluğu (Qualified Majority Voting – QMV) ilə həll olunur. Bu, 27 ölkədən, ən azı, 15-nin dəstəyini və Aİ əhalisinin 65 faizinin təmsilini şərtləndirir. Beləliklə, bir və ya bir neçə dövlətin prosesi bloklaması mümkünsüzləşir.

Aİ-də 2040-ci il iqlim hədəfinin Avropa Şurasına çıxarılması Fransanın təkidi ilə prosedur dəyişikliyi deyil, həm də siyasi güc mübarizəsidir. Çünki burada qərar ixtisaslı səs çoxluğu ilə deyil, yekdilliklə qəbul olunmalıdır. Bu isə Polşa və Macarıstan kimi kömürdən asılı və skeptik ölkələrə veto imkanı verir. Varşava enerji təhlükəsizliyini, Budapeşt isə milli suverenliyi önə çəkir. Çexiya və İtaliya isə daha çox maliyyə dəstəyi və təsir qiymətləndirilməsi tələb edir. Fransa beynəlxalq arenada iqlim liderliyi imicini qorusa da, daxildə sosial-iqtisadi təzyiqlər Makronu ehtiyatlı siyasətə vadar edir. Nüvə enerjisinə söykənən Paris bu addımla həm daxili auditoriyaya mesaj verir, həm də yekun razılaşmanın konturlarına ciddi təsir imkanları qazanır. Fransanın prosedur dəyişikliyi Aİ-nin iqlim planlamasını pozur və beynəlxalq nüfuzuna zərbə vurur. Sentyabrın 18-də ətraf mühit nazirlərinin görüşündə 2040-cı il hədəfi qəbul olunsaydı, Ursula Fon der Lyayen BMT iqlim sammitində blokun güclü mandatla təmsilçiliyini təmin edə bilərdi. Lakin qərarın oktyabrın sonuna təxirə salınması Fon der Lyayeni boş portfellə Nyu-Yorka göndərir və Aİ-də daxili fikir ayrılıqları səbəbindən mühüm qərar qəbul edə bilmədiyi təəssüratını yaradır, beynəlxalq təsirini zəifl'dir.

*

Aİ səviyyəsində Fransanın mövqeyi daxili siyasət motivlərini aşan daha mürəkkəb strateji hesablamalara əsaslanır. İqlim hədəfinə dair qərarı yekdillik tələb edən Avropa Şurası platformasına daşımaqla, Fransa özünə və İtaliya kimi digər böyük üzv dövlətlərə proses üzərində faktiki nəzarət imkanı qazanır. Bu, onlara yekun razılaşmanın detallarını – müxtəlif sektorlar üzrə yükün bölüşdürülməsi, maliyyə dəstəyi paketləri və kompensasiya mexanizmlərini formalaşdırmaqda həlledici rol oynamaq şansı verir. Xüsusilə, Paris özünün aşağı karbonlu enerji strategiyasının mərkəzində dayanan nüvə enerjisinin Aİ-nin iqlim siyasətində daha geniş şəkildə tanınması və dəstəklənməsi üçün mübarizə aparır. Liderlər səviyyəsindəki siyasi müzakirələr belə strateji məsələlərin texniki detallardan daha çox, siyasi alver və güzəştlər vasitəsilə həll edilməsi üçün daha münbit şərait yaradır. Beləliklə, Fransa həm iddialı iqlim hədəflərini prinsipial olaraq dəstəkləyir, həm də bu hədəflərə gedən yolun Fransa sənayesinin və enerji modelinin maraqlarına uyğun dizayn edilməsini təmin etməyə çalışır. Bu paradoksal vəziyyət, yəni, eyni vaxtda həm iqlim lideri rolunu oynamaq, həm də milli iqtisadi maraqları qorumaq cəhdi Fransanın Avropa siyasətinin əsas xarakteridir. Amma bu manevrin potensial fəsadlarının ciddiliyi Parisin bu incə balansı qoruya biləcəyini şübhə altına qoyur və onun "Paris Sazişinin keşikçisi" rolunu etimad sınağı ilə üzləşdirir.

Fransanın başlatdığı mübahisə təcrid olunmuş hadisə deyil, əksinə, bütün Avropa İttifaqı miqyasında "Yaşıl Sövdələşmə"nin sosial-iqtisadi nəticələri ilə bağlı artan narahatlığı və siyasi gərginliyi əks etdirən daha geniş tendensiyanın təzahürüdür. Transformasiyanın ilkin mərhələsində qarşıya çıxan çətinliklər enerji qiymətlərinin artması, inflyasiya və beynəlxalq rəqabətdə potensial geriləmə, bir sıra üzv dövlətlərdə "yaşıl yorğunluq" və tənzimləyici siyasətə qarşı müqavimət dalğası yaratmışdır. Bu müqavimətin mərkəzində iqtisadiyyatları qalıq yanacaqlara bağlı olan Polşa, Macarıstan və Çexiya kimi Mərkəzi və Şərqi Avropa ölkələri dayanır. Onlar yaşıl keçidin tempinin və xərclərinin ədalətsiz olduğunu iddia edərək, qərarların yekdillik tələb edən Avropa Şurasına keçirilməsini dəstəkləyirlər ki, bu da onlara prosesi ləngitmək və ya daha çox güzəşt əldə etmək imkanı verir. Maraqlıdır ki, son zamanlar İtaliya kimi Qərbi Avropanın böyük dövlətləri də bu skeptik cəbhəyə qoşulmuşdur.

Fransanın təşəbbüsü Aİ-ni taleyüklü yolayrıcında qoydu. Bu, prosedur məsələsi olmaqla yanaşı, blokun iqlim siyasətinin gələcəyini, daxili güc dinamikasını və beynəlxalq mövqeyini müəyyən edəcək strateji gedişdir. Aİ qarşısında mürəkkəb dilemma var: bir tərəfdən, yaşıl keçidin ədalətli olmasını təmin etmək və üzv dövlətlərin legitim narahatlıqlarını nəzərə almaq; digər tərəfdən isə, iqlim böhranının təxirəsalınmazlığı qarşısında qətiyyətli addımlar atmaq. Qarşıdakı dövr Aİ-nin bu iki hədəf arasında balansı tapıb-tapmayacağını və milli maraqların qlobal məsuliyyətə üstün gəlib-gəlməyəcəyini göstərəcək.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

*Köşə*

# Dəbdən düşmüş nağılların əsirləri

**...Bəlkə Qarabağda işğal etdikləri hər şəhərimizdə, hər kəndimizdə ermənilərin "döyüşlərdə göstərdikləri qəhrəmanlığın, şücaətin şərəfinə" memorial komleksləri ucaldaq? Eləcə də Xankəndidə "Artsax parlamentinin", "xarici işlər naziriliyinin", "ombudsman aparatının" binalarını, eynilə İkinci Dünya müharibəsində qətiyyətin simvolu sayılan Brest qalasının qalıqlarının saxlanıldığı kimi, göz bəbəyi kimi qoruyaq, hayların gələcək nəsillərinə ərmağan edək? Amma onda gərək "abidələrin" üzərinə tarixi yaddaş üçün belə bir yazı da həkk etdirək: "separatçıların sonuncu sığınacaqları".**



**İmran BƏDİRXANLI**
**imranbedirxanlı01@gmail.com**

Sənayedə, kənd təsərrüfatında, o cümlədən hüquqda belə bir ifadə var: qanunsuz tikililər. Torpağın sahibindən soruşmadan, sənədsiz, icazəsiz-filansız ucaldılan bina, yaxud obyekt qanunun tələbinə uyğun olaraq buldozerin qabağına verilir, tikilinin yeri torpağın üstü ilə bir hamarlanır, ya da partladılır.

Özlərini uydurduqları nağıla inandırmışdılar ki, Qarabağda əbədi qalacaqlar. Bizi bu torpaqda gəlmə, özlərini isə aborigen hesab edirdilər. Amma bütün nağılların sonu olduğu kimi, bu hay məzhəkəsi də özünün finalına varmalı idi.

Üç gün bundan əvvəl Xankəndidə qondarma rejimin əsas rəmzi, "dövlət atributu" sayılan "xarici işlər nazirliyi"nin binasının söküntüsünə başlanılıb. Söküntü işinə məhz sentyabrın 2-də start verilməsi Azərbaycan üçün rəmzi məna daşıyır. Məhz sentyabrın 2-si işğal olunmuş ərazilərimizdə separatçı rejimin – "dqr"in elan olunmasının ildönümləri bayram kimi qeyd edilirdi.

Cəmi 5 il bundan əvvələ qədər Azərbaycanın işğal olunmuş ərazilərinə səfər edən xarici ölkələrdəki erməni diasporunun elçiləri, haylara lobbiçilik edən qərbli siyasətçilər bu binada separatçı rejimin "məmurları" ilə görüşlər keçirir, onlara qanunsuz vizalar verilir, satılmış media təmsilçiləri "Artsax"a akkreditasiya olunurdu. Beynəlxalq hüquqla daban-dabana zidd olan bu hərəkətlər Azərbaycanın dövlət suverenliyinə hörmətsizliyin nümayişi idi.

Hazırda hərbi cinayətlərdə ittiham olunan və təqsirləndirilən şəxslər kimi Bakıda məhkəməsi keçirilən babayanlar, qukasyanlar, vardanyanlar və digərləri məhz bu binada oturub Qarabağda Azərbaycan bayrağının yalnız bir halda, bizim səfirliyimizin açılması ilə dalğalana biləcəyini lovğalıqla bəyan edirdilər. Onlar sahibsiz sandıqları bu əzəli torpağımızda "qarğa-quzğun yuvasına" çevirdikləri bu binanı ərazimizdə ikinci Ermənistan dövlətinin "rəsmi atributu" sayırdılar. Məhz buna görə "Artsax xin"in binasının sökülməsinə sentyabrın 2-də başlanıldı. Bəli, bunun bizim üçün böyük siyasi və rəmzi mənası var.

Artıq beş ildir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş torpaqlarda genişmiqyaslı və sistemli bərpa-quruculuq işləri həyata keçirilir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarını əhatə edən "Böyük Qayıdış" proqramı yalnız dağıdılmış infrastrukturun deyil, həm də milli kimliyin, mədəni irsin, tarixi yaddaşın və dövlətçiliyin bərpasını təmin edən çoxşaxəli prosesdir. Proqram çərçivəsində azad olunmuş ərazilərdə, şəhər, qəsəbə və kəndlərdə müasir şəhərsalma prinsiplərinə əsaslanan kompleks layihələr icra olunur, yaşayış məhəllələri salınır, məktəblər, xəstəxanalar, mədəniyyət ocaqları inşa edilir, yollar çəkilir. Eyni zamanda, mədəni irs nümunələri bərpa olunur, tarixi abidələr əvvəlki görkəminə qaytarılır.

Qeyd etdik ki, "Artsax xin" binasının sökülməsi yalnız rəmzi məna daşımır. Axı, Xankəndinin relyefinə uyuşmayan, tamamilə yöndəmsiz və şəhərin memarlıq arxitekturasına yamaq kimi görünən bu binanın sökülməsinə müasir urban planlaşdırmasının bütün incəlikləri nəzərə alınmaqla həyata keçirilən şəhərsalma siyasəti çərçivəsində ciddi zərurət yaranmışdı.

Məlum söküntü işləri ilə bağlı sərhədin o üzündən etirazlar eşidilməkdədir: "Bu, təkcə "Artsaxın dövlətçiliyinə" növbəti qəddar zərbə deyil, həm də onun simvolik dəyərlərinin qəsdən məhv edilməsidir". "dqr"-in mədəni irs üzrə keçmiş ombudsmanı Hovik Avanesov Facebook-da belə yazıb: "Bakı ardıcıl olaraq Artsaxda erməni varlığının bütün izlərini məhv etməyə, onu tarixi saxtakarlıq və mədəni boşluq ərazisinə çevirməyə yönəlmiş siyasət aparır. Bu, təkcə erməni irsinə qarşı deyil, həm də ümumi dəyərlərə qarşı cinayətdir".

Bunları XX əsrin sonlarında Azərbaycan torpağında Xocalı soyqırımını, insanlığa qarşı digər dəhşətli cinayətləri törədən – südəmər körpələri süngüyə keçirən, qocaları ağaca mıxlayan, əsirlərin qulaqlarını, burnunu kəsən – bir qövmün nümayəndəsi deyir.

...İndi iki yüz il ərzində uydurduqları nağılın sonunda göydən üç alma əvəzinə, başlarına daş düşdüyünə inanmayan separat tör-töküntüsü hələ də çoxdan ötüb-keçən qatarın arxasınca səsləri batana qədər vay-şivən qoparır. Bilirik, beyinlərinə yeridilən fantaziyalardan asanlıqla və tezliklə əl çəkməyəcəklər. Amma Azərbaycan xalqı çörəyi dizinin üstündə olan maskalı riyakarlara, dəbdən düşmüş nağılların əsirinə çevrilənlərə iki yüz ildən sonra da inanmayacaq. Çünki müdriklərimiz "başına gələn başmaqçı olar" deyiblər.

**Azərbaycanın Bəhreynlə diplomatik münasibətlər qurması Körfəz regionundakı mürəkkəb geosiyasi dinamikaya yeni baxış bucağı gətirir. Yaxın Şərq siyasi müstəvisi qlobal güclərin maraqlarının toqquşduğu məkan olmaqla yanaşı, daxili rəqabətlər və regional balans axtarışları ilə də xarakterizə olunur. Məhz bu kontekstdə Bakı–Manama xətti özündə həm gələcək perspektivləri, həm də strateji mesajları birləşdirir.**



# “Körfəz strategiyası”: regional və qlobal əməkdaşlıq



## Azərbaycan–Bəhreyn diplomatik münasibətləri nə vəd edir?

Azərbaycanın diplomatik gündəliyində Bəhreynin xüsusi yeri tədricən daha aydın görünür. Bəhreyn Körfəz Əməkdaşlıq Şurasının üzvü olaraq regional proseslərdə fəal iştirak edən ölkələrdən biridir. Təşkilat çərçivəsində iqtisadi, təhlükəsizlik və siyasi koordinasiya mexanizmləri mövcuddur və Azərbaycan üçün Bəhreynlə münasibətlərin qurulması bir növ “qapı effekti” yaradır. İkitərəfli münasibətlər Bakının Körfəz dünyasına daha asan çıxış əldə etməsinə, regional diplomatik dairələrdə nüfuzunu möhkəmləndirməsinə imkan verir. Əlavə olaraq, Bəhreynin balanslı və praqmatik diplomatiya xətti Azərbaycanın xarici siyasət fəlsəfəsi ilə uzlaşır, bu isə tərəflərin əməkdaşlığını təbii və strateji cəhətdən məntiqli edir.

Eyni zamanda, Bəhreynlə əməkdaşlığın iqtisadi dəyəri də xüsusi diqqət çəkir. Yaxın Şərqin maliyyə mərkəzlərindən biri hesab edilən bu ölkə bankçılıq, investisiya və kapital bazarları baxımından inkişaf etmiş infrastruktur təqdim edir. Belə imkanlar Azərbaycan üçün yeni maliyyə tərəfdaşları ilə işləmək, iri həcmli layihələrə sərmayə cəlb etmək baxımından əhəmiyyətlidir. SOCAR və digər enerji layihələrində Bəhreyn investorlarının iştirakı regional təşəbbüslərin maliyyə dayanıqlığını daha da gücləndirə bilər. Digər tərəfdən, Bəhreynin son illərdə tətbiq etdiyi “ağıllı iqtisadiyyat” modeli Azərbaycanın öz iqtisadi idarəçilik təcrübəsini zənginləşdirməsi üçün mühüm nümunə ola bilər.

Bəs təhlükəsizlik müstəvisində bu münasibətlər hansı əhəmiyyəti daşıyır? Qeyd edə bilərik ki, Yaxın Şərq regionunda davamlı sabitlik yoxdur və Körfəz ölkələri terrorizm, dini radikalizm və xarici təsirlərin yaratdığı təhdidlərə məruz qalır. Azərbaycan da eyni asimmetrik təhlükələr fonunda öz təhlükəsizlik siyasətini qurur. Bəhreynlə əməkdaşlıq Bakıya regional təhlükəsizlik mexanizmlərinə qoşulmaq, informasiya mübadiləsini gücləndirmək və strateji tərəfdaşlıq konturlarını genişləndirmək imkanı verir.

Bəhreyn tarixən şiə əhalisinin çoxluq təşkil etdiyi, lakin siyasi hakimiyyətin sünni monarxiyanın əlində olduğu bir ölkədir. Belə bir tarixi və demoqrafik balans səbəbindən Manama–Tehran münasibətləri zaman-zaman gərginliklərlə müşayiət olunub. Azərbaycanın isə İranla həm qonşuluq münasibətləri, həm də dini və mədəni bağlar mövcuddur. Bəhreynlə diplomatik əlaqələrin qurulması burada balanslaşdırılmış diplomatiyanın nümunəsi kimi çıxış edə bilər. Bakı diqqətli və praqmatik yanaşma nümayiş etdirərək həm İranla qonşuluq əlaqələrini qoruyur, həm də Körfəz ölkələri ilə strateji əməkdaşlığa addım atır. Təbii ki, bu addım Azərbaycanın xarici siyasətdə “hər iki cəbhə ilə işləmə” bacarığını və çevik diplomatik manevr qabiliyyətini daha da gücləndirir.

Digər mühüm aspekt isə Səudiyyə Ərəbistanı amilidir. Bəhreyn uzun illərdir ki, bütün platformalarda Səudiyyə Ərəbistanının yaxın müttəfiqi kimi çıxış edir. Hətta bəzi siyasi müşahidəçilər onu Ər-Riyadın “strateji uzantısı” adlandırırlar. Azərbaycan üçün Bəhreynlə münasibətlərin qurulması Səudiyyə ilə əməkdaşlığı dərinləşdirmək üçün əlavə körpü rolunu oynaya bilər.

Qlobal güclərin Körfəzdəki maraqları fonunda Azərbaycan–Bəhreyn münasibətləri hansı məna daşıyır? Aydındır ki, ABŞ, Çin və Rusiya kimi böyük güclər Körfəz regionunda maraq mübarizəsi aparır. Azərbaycan isə bu güclərlə paralel şəkildə əməkdaşlıq edən və balans saxlayan ölkədir. Bakı–Manama xəttinin açılması Azərbaycanın qlobal güclərlə münasibətlərində əlavə diplomatik manevr sahəsi yaradır. Məsələn, ABŞ-ın təhlükəsizlik baxımından dəstəklədiyi Bəhreynlə münasibətlər Bakının Qərblə siyasi dialoquna müsbət impuls verə bilər. Eyni zamanda, Azərbaycan Bəhreyn üzərindən Çin və Hindistan bazarlarına Körfəz istiqamətindən çıxış qapıları tapa bilər.

Mədəni və ideoloji baxımdan isə bu tərəfdaşlığın bir sıra perspektivləri var. Hər iki ölkə İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüdür. Bu amil isə ortaq mənəvi dəyərlər və mədəni zəmin üzərində diplomatik əlaqələrin daha möhkəm qurulmasına şərait yaradır. Azərbaycan “İslam həmrəyliyi” siyasətinə xüsusi önəm verir və Bəhreynlə əməkdaşlıq bu xətti gücləndirir. Bununla yanaşı, humanitar diplomatiya sahəsində – turizm, təhsil və mədəniyyət layihələri üzrə yeni müstəvilər açıla bilər.

Azərbaycanın Bəhreynlə diplomatik münasibətlər qurması onun xarici siyasətində yalnız ənənəvi tərəfdaşlarla kifayətlənmədiyini, əksinə, müstəqil şəkildə yeni geosiyasi vektorlar açdığını nümayiş etdirir. Azərbaycanın bu addımı Bakının uzun illərdir ardıcıllıqla həyata keçirdiyi “balanslaşdırılmış xarici siyasət” kursunun daha bir bariz nümunəsi kimi dəyərləndirilə bilər.

Strateji müstəqillik yalnız böyük güclərin maraqları arasında manevr etmək bacarığı ilə ölçülmür. O, həm də kiçik, lakin regional və qlobal siyasətdə xüsusi çəkisi olan dövlətlərlə qurulan çoxşaxəli əməkdaşlıqlarla möhkəmlənir. Bəhreynlə münasibətlər məhz bu mənada diqqət çəkir: Azərbaycan göstərir ki, onun diplomatik gündəliyi yalnız Rusiya, ABŞ, Avropa İttifaqı və ya Çin kimi iri aktorlarla məhdudlaşmır. Bakı, eyni zamanda, Körfəz kimi həssas və strateji əhəmiyyətli regionda kiçik, amma təsir imkanlarına malik ölkələrlə də əlaqələr qurur.

Həmin siyasət özündə bir neçə mühüm mesaj daşıyır. Qlobal diplomatiya baxımından, Azərbaycan beynəlxalq münasibətlərdə “seçici tərəfdaşlıq” modelindən çıxış etməyib, əksinə “universal əməkdaşlıq” prinsiplərinə üstünlük verir. Regional sabitlik kontekstində isə Bakı göstərir ki, Yaxın Şərq və Körfəz məkanında yalnız böyük güclərin dəstəyi ilə deyil, həm də yerli aktorların iştirakı ilə balans yaratmaq mümkündür. Siyasi imic baxımından isə Azərbaycanın müstəqil qərar qəbul etmə qabiliyyəti daha aydın görünür; ölkə öz diplomatik xəritəsini genişləndirərkən heç bir qlobal gücün təsiri altında hərəkət etmir.

Beləliklə, Azərbaycan–Bəhreyn münasibətləri Bakının strateji müstəqilliyini nümayiş etdirən simvolik məqamdır və bu addım Azərbaycanın beynəlxalq siyasətdə “yalnız regional oyunçu” deyil, daha çox “qlobal diplomatik aktor” olduğunu təsdiqləyir.

Azərbaycan–Bəhreyn diplomatik münasibətləri yalnız ikitərəfli əməkdaşlıq deyil, həm də ölkənin regional və qlobal siyasətdə mövqeyini möhkəmləndirən strateji addımdır. Bu əlaqələr Bakı üçün İranla balanslaşdırılmış siyasət yürütmək, Səudiyyə Ərəbistanı ilə tərəfdaşlıq xəttini gücləndirmək, Körfəz Əməkdaşlıq Şurası ilə inteqrasiya imkanları yaratmaq və qlobal güclərlə manevr sahəsini genişləndirmək kimi bir sıra üstünlüklər təmin edir. Nəticədə, Azərbaycan Körfəz siyasətində strateji mövqelərini möhkəmləndirir və Cənubi Qafqazın qlobal diplomatiyada yeni “qovşaq mərkəzi” kimi rolunu gücləndirir. Bu isə birmənalı olaraq ölkəmizin regionda həm siyasi, həm də iqtisadi nüfuzunu artırır.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Tatoyan zəhərli xəbərlər tirajlayır

## *Ermənistanın sabiq ombudsmanı unudulmamağa cəhd göstərir*

**Erməni xislətinə xas olan əsas xüsusiyyətlərdən biri yalan danışmaqdır. Bunu həm sıravi, həm də vəzifəli hayların danışıqlarında aydın sezmək olur. Beləlləri fürsət düşdükcə Azərbaycana qarşı əsassız-sübutsuz fikirlər səsləndirir, ittihamlar yağdırırlar. Ermənistanın keçmiş ombudsmanı Arman Tatoyan belə bir fikir irəli sürüb ki, guya, “Azərbaycanda Ermənistanda anadan olmuş 100 mindən çox azərbaycanlının bu ölkəyə köçürülməsi üçün qeydiyyata alınmasının başa çatdığı barədə rəsmi elan verilib”. O, “arqument” kimi Qərbi Azərbaycan İcmasının (QAİ) üzvlük vəsiqəsinin fotosunu paylaşıb. Bildirib ki, bu, “Ermənistanın işğalının sübutudur”. Vəsiqənin üzərində ata yurdunun “Qərbi Azərbaycan” olaraq qeyd edilməsi də Tatoyanı bərk narahat edib.**

İlk növbədə, belə bir sənədə görə Azərbaycanı işğalçılıq siyasəti aparmaqla günahlandırmaq olduqca absurddur. Çünki həmin üzvlük vəsiqəsinin, yəni Tatoyanın təqdim etdiyi fotonun rəsmi dövlət sənədlərinə heç bir aidiyyəti yoxdur. QAİ Azərbaycan dövlətini təmsil edən hər hansısa rəsmi qurum deyil, qeyri-hökumət təşkilatıdır. O, vətəndaş cəmiyyəti olaraq müstəqil fəaliyyət göstərə, ideyalar irəli sürə bilər. Həmin sənəd də adi üzvlük vəsiqəsidir. Bunu “köçürülmə proqramı”, “işğal siyasəti” kimi təqdim etmək həyasızlığın pik həddidir. Hətta Ermənistan mətbuatı da təsdiqləyib ki, Bakının yüz minlərlə azərbaycanlının Ermənistana köçürülməsi məqsədilə qeydiyyata alınması barədə heç bir rəsmi açıqlaması olmayıb.

Xatırladaq ki, 1989-cu ildə “Azərbaycan Qaçqınlar Cəmiyyəti” kimi təsis edilmiş icma 2022-ci ildə “Qərbi Azərbaycan İcması” adını almış (İcma), indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların hüquqlarının müdafiəsi ilə məşğuldur. Qurum bəyan edib ki, Qayıdış Konsepsiyası beynəlxalq hüquqa, aidiyyəti dövlətdaxili hüquqa, tarixi faktlara əsaslanır, ədalətin və sülhün bərqərar olunmasına xidmət edir. Göründüyü kimi, burada işğala çağırışdan söhbət belə getmir. Əksinə, qayıdışın dinc məqsədlə həyata keçirilməli olduğu deyilir.

Bu arada əgər Azərbaycanın Ermənistanı işğal etmək kimi bir planı olsaydı, bunu 44 günlük Vətən müharibəsi dövründə edərdi. Həmin vaxt çox yaxşı fürsət yaranmışdı ki, Azərbaycan Silahlı Qüvvələri daha da irəli getsin. Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının “Əl-Ərəbiyyə” telekanalına verdiyi müsahibədə səsləndirdiyi fikirlər bunu deməyə əsas verir. Müxbirin Zəngəzur dəhlizi ilə bağlı sualına cavab verən dövlət başçısı bildirib: “İkinci Qarabağ müharibəsi bizim qələbəmizlə başa çatdıqdan sonra bu yolu zorla ələ keçirə bilərdik. Həmin vaxt Ermənistan ordusu mənəvi cəhətdən tamamilə sarsılmışdı. Ermənistan ordusunda müharibədən qaçan 12 min fərari olmuşdu, Azərbaycan Ordusunda isə sıfır. Azərbaycan Ordusunda yüksək ruh, insanlarda böyük həvəs oyanmışdı və qarşımızda heç kəs dayana bilmirdi. Biz 2020-ci il noyabrın 10-da, sadəcə, sərhədimizdə dayandıq, bu yolu zorla ələ keçirmədik...”.

Qeyd edək ki, sabiq ombudsmanın irəli sürdüyü iddiaların heç bir fakta əsaslanmamasına baxmayaraq, bu cür açıqlamalarla gündəmə gəlməsi məqsədli xarakter daşıyır. Tatoyan uzun müddətdir ki, siyasi ambisiyalar nümayiş etdirir və “milli maraqların qorunması” bəhanəsi ilə özünə informasiya gündəmi formalaşdırmaqla karyera qurmağa çalışır. Onun bu cür təbliğatlar aparması isə müəyyən siyasi dairələr üçün əlverişlidir. Yalnız erməni revanşistlər iki ölkə arasında gərginliyin davam etməsində maraqlıdır. Onlar 8 avqustda ABŞ-da imzalanan bəyannaməni də qısqanclıqla qarşılayırlar. Sülh prosesini pozmaq və hərtərəfli sülh müqaviləsinin imzalanmasına mane olmaq Tatoyan kimilərinin arzusudur.

Maraqlıdır ki, “öz gözündə tiri görməyib”, başqasını ittiham edən “hüquq müdafiəçisi” Tatoyan bu günlərdə Ermənistanda qondarma “Dağlıq Qarabağ”a görə keçirilən saysız-hesabsız mitinqlərdən niyə söhbət açmır? Halbuki bu aksiyaların əsas şüarlarında Azərbaycanın əzəli torpaqlarına ərazi iddiaları səsləndirilir, hətta silaha sarılmaq üçün çağırışlar edilir. “DQMV”-nin süqutunu hələ də qəbul etməyənlər onun beynəlxalq aləmdə tanınmasına çalışırlar. Saxta “prezident”, “xin” və digər dırnaqarası qurumların Ermənistanda “fəaliyyəti” kimin işğalçı zehniyyətə malik olduğunu göstərir.

***Musa BAĞIRLI***
***XQ***

### Ekspert rəyi



**Samir HÜMBƏTOV,**
**politoloq**

Tatoyanın səsləndirdiyi fikirlər bir daha göstərir ki, İrəvanda hələ də ultra millətçi və ifrat mövqeli qruplar fəaliyyətini davam etdirir. Onların əsas məqsədi Azərbaycan və Ermənistan arasında normallaşma prosesinə mane olmaq, revanşist çağırışlarla cəmiyyəti çaşdırmaqdır. Halbuki Qərbi Azərbaycan İcmasının (QAİ) üzvlük vəsiqələri, arxiv sənədləri və digər tarixi faktlar vaxtilə həmin ərazilərdə azərbaycanlıların yaşadığını, onların tarixi köklərə malik olduğunu sübut edir.

Bu həqiqəti siyasiləşdirmək, populist şouya çevirmək və bundan siyasi dividend qazanmağa çalışmaq isə yalnız destruktiv dairələrin maraqlarına xidmət edir. Tatoyan və onun kimilərinin bu yanaşması nə Ermənistanın gələcəyinə, nə də regionun sabitliyinə fayda verir. Əksinə, bu cür ritorika cəmiyyətdə gərginliyi artırır, sülhə qarşı etimadsızlığı dərinləşdirir.

Əlbəttə, Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi imzalandıqdan sonra azərbaycanlıların öz tarixi torpaqlarına, yəni indiki Ermənistan ərazilərinə qayıdışı, orada dinc məskunlaşması mümkün ola bilər. Bu, beynəlxalq hüququn prinsiplərinə, insan haqlarına və məcburi köçkünlərin geri dönüş hüququna tamamilə uyğundur. Bu səbəbdən məsələnin siyasi oyuna çevrilməsi, süni şəkildə manipulyasiya edilməsi əsla düzgün yanaşma deyil.

Tatoyanın mövqeyinə diqqət yetirsək, görərik ki, o, əslində Qarabağ klanına yaxın qrupların maraqlarını müdafiə edir. Onun səsləndirdiyi fikirlər şəxsi düşüncə deyil, müxtəlif güc mərkəzlərinin təsiri altında formalaşan tezislərdir. Başqa sözlə, Tatoyan Qarabağ klanının və onlara bağlı revanşist dairələrin səsini tirajlayan bir alətdir. Bu baxımdan, onun açıqlamalarını cəmiyyətin real istəklərinin ifadəsi kimi yox, köhnə rejim qalıqlarının sifarişli bəyanatları kimi qəbul etmək lazımdır.



### Ekspert rəyi



**Zaur MƏMMƏDOV,**
**Bakı Politoloqlar Klubunun sədri**

Ermənistanın sabiq ombudsmanı, ümumiyyətlə, militarist və revanşist mövqedədir. Nikol Paşinyan hakimiyyətdə olarkən belə, o, müəyyən mövqelərini ortaya qoysa da, hazırda hökumətə qarşı müxalif mövqeyi ilə seçilir və Azərbaycan ilə Ermənistan arasındakı normallaşma prosesinə qarşı çıxır, Ermənistan hakimiyyətini sərt şəkildə tənqid edir. Bu ombudsman həmin dövrdə Ermənistan hakimiyyətində təmsil olunurdu və rəsmi Bakı-İrəvan danışıqlarında pozucu fəaliyyət göstərirdi. O, dünya miqyasında Azərbaycanı müxtəlif məsələlərdə ittiham edirdi və həmin dövrdə xarici dairələrlə əlaqədə olması şübhə doğururdu.

Vaşinqton görüşü baş tutduqdan sonra artıq ərazi iddiaları məsələlərinə nöqtə qoyulub. Görüş nəticəsində tərəflər gələcəyə hansı zəmində baxacaqlarını müəyyən ediblər və heç bir üçüncü tərəfin buna müdaxilə haqqı yoxdur. Ombudsman və digər müxalif qüvvələrə tövsiyə olunur ki, öz mövqelərinə baxsınlar və görsünlər ki, əslində kim ərazi iddiası irəli sürür.

Qərb Azərbaycan İcmasının fəaliyyəti Ermənistan hakimiyyətində ciddi təzyiq yaratdı. Hələ də Qarabağ erməniləri və bəzi separatçı qruplar öz “müstəqillik” iddialarını irəli sürür, “DQR parlamenti” və “DQR” adlandırılırlar. Ermənistan müxalifəti və bəzi siyasətçilər sentyabrın əvvəllərində bu razılaşmaları tanımayacaqlarını bildirdilər. Bu, göstərir ki, yalnız ombudsman və müxalifət deyil, həm də diaspor və separatçı qruplar məsələni pozmaq istəyirlər.

Qarşı tərəf razılaşmalara əməl etməli və keçmişə bağlı fikir yürütməməlidir. Tarix göstərir ki, 1918-20 və 1990-cı illərdə haylar bölgədənkənar qüvvələr üçün “maşa” rolunu oynayıb. Əgər gələcəkdə də buna cəhd etsələr, yalnız özlərinə zərər vermiş olacaqlar.

# Azərbaycanın Avrasiya üçün önəmi Şanxay zirvəsində

**Çində keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının növbəti sammiti bu qurumun indiyə qədər keçirdiyi ən böyük tədbir idi. Bu baxımdan Prezident İlham Əliyevin Çin Xalq Respublikasına səfəri Azərbaycan – Çin münasibətlərində mühüm bir mərhələnin başlanğıcı və ölkəmizin beynəlxalq platformalarda uğurlu iştirakının növbəti mühüm hadisəsi kimi qiymətləndirilir.**



Qürurla qeyd edim ki, Azərbaycan liderinin Çində qarşılanma mərasimindən tutmuş, dövlət başçımıza bütün tədbirlərdə göstərilən xüsusi diqqət ölkəmizin beynəlxalq nüfuzunun göstəricisi idi. Prezidentin sammitdəki çıxışı da diqqətlə izlənildi. Cənab İlham Əliyev öz nitqində daha çox Azərbaycan – Çin əlaqələrinə yer ayırdı.

Ölkə başçısı Azərbaycanın regionda Çinin etibarlı tərəfdaşı olduğunu söyləyərək konkret faktlarla əsaslandırdı. Cənab İlham Əliyev bildirdi ki, bu il Çinə dövlət səfəri zamanı hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin təsis edilməsi barədə birgə bəyanat imzalanıb və bu tarixi hadisə Azərbaycan – Çin münasibətlərində yeni bir səhifə açıb.

Dövlət başçımız Çinin irəli sürdüyü bütün qlobal təşəbbüsləri dəstəklədiyini bildirdi. Çinin təşəbbüsləri BMT Nizamnaməsi və beynəlxalq hüquqa hörmət əsasında beynəlxalq münasibətlərin yaxşılaşdırılmasına yönəlmiş mühüm və vaxtında atılmış addımlardır.

Dünyanın ən güclü dövlətlərinin zirvəsində dayanmasına baxmayaraq, bəzilərindən fərqli olaraq, Çin özünü üstün tutmur, münasibətləri qarşılıqlı hörmət və ədalət prinsipləri üzərində qurur. Dövlət başçımızın çıxışında "Azərbaycan regionda Çinin etibarlı tərəfdaşıdır" deməsi, əlbəttə ki, yaratdığımız yeni reallıqla regionumuzun təhlükəsizliyinin yeni arxitekturasını yaratmaqla Çinin qlobal təşəbbüslərini reallıqda dəstəkləyir. Azərbaycan Çinin irəli sürdüyü "Bir kəmər, bir yol" layihəsini dəstəkləyərək real töhfələr verən ilk ölkədir.

Prezident İlham Əliyevin Çinə səfəri və orada keçirdiyi görüşlər Azərbaycanın beynəlxalq münasibətlər sistemində tutduğu mövqeyi daha da möhkəmləndirib. Hindistanın cəhdlərinə baxmayaraq, Azərbaycan ŞƏT-də tərəfdaş statusu qazanıb.

**Dünyanın böyük iqtisadi və təbii resurslarına malik olan ŞƏT hazırda qlobal güc mərkəzlərindən biridir və onunla tərəfdaş olmaq Azərbaycana əlavə imkanlar yaradır. Bu strateji mövqe Azərbaycanın həm regional iqtisadi layihələrdə, həm də qlobal miqyasda diplomatik proseslərdə iştirakını və rolunu artırır.**

Prezident İlham Əliyevin Çinə səfəri və sammit çərçivəsində keçirdiyi görüşləri bilavasitə Azərbaycanın iqtisadi, siyasi və strateji maraqlarının təmin olunmasına, ölkənin beynəlxalq nüfuzunun möhkəmlənməsinə xidmət edir. Azərbaycan ŞƏT daxilində fəal iştirak edərək həm iqtisadi, həm də diplomatik baxımdan əhəmiyyətli üstünlüklər qazanır, Qlobal Şərq və Qlobal Qərb arasında etibarlı tərəfdaş və strateji körpü kimi mövqeyini möhkəmləndirir.

Prezidentin Çin səfərində diqqətçəkən bir neçə protokol məqamları da siyasi əhəmiyyət kəsb edir. Vaşinqton razılaşmasında sonra məhz Çində Azərbaycan rəhbəri ilə erməni baş nazir arasında ilk görüş də baş tutdu. Heç bir vasitəçi olmadan, məhz birbaşa təmasla baş tutan bu görüşdən sonra ATƏT-in Minsk qrupunun rəsmi şəkildə buraxılması da mühüm hadisə idi.

Eyni zamanda keçirilən tədbirlərdə Azərbaycan və İran prezidentlərinin doğma ana dilində səmimi söhbətləri diqqətdən qaça bilməzdi. Heç şübhəsiz ki, Çində keçirilən tədbirlərlə bağlı son aylardakı gərginliklər fonunda Azərbaycan və Rusiya prezidentlərinin görüşünün baş tutub-tutmayacağı əsas müzakirələr sırasında idi. Sammit zamanı yalnız bir dəfə onların ayaqüstü salamlaşması baş tutdu. Azərbaycan Prezidentinin yüksək diplomatik qürur və qətiyyəti ilə müşahidə olunan bu görüşün ardınca Putinin "Əsaslı münasibətlər və qarşılıqlı maraqlar hər şeyi öz yerinə qoyacaq" bəyanatı da ciddi müsbət rezonans doğurdu. Azərbaycanın haqlı tələbləri qarşısında Kreml rəhbərinin susqunluğu bu şəkildə pozması daha bir həqiqəti – "Haqq nazilsə də, üzülməz" deyimini təsdiqləmiş oldu.

Azərbaycan artıq torpaqlarının 20 faizi işğal olunmuş məğlub ölkə, biçarə xalq deyil. Biz qalib xalqıq və özümüzə qarşı layiq olduğumuz hörməti tələb edirik. Qaba gücdən istifadə etməklə Azərbaycanın qərarlarına təsir etmək mümkün deyil. Bir də ki, Azərbaycanın və Rusiyanın mənafeləri tarixi əlaqələri olan yaxın qonşular kimi dostluq və əməkdaşlıq şəraitində yaşamağı zəruri edir.

***Tənzilə RÜSTƏMXANLI***
***Milli Məclisin deputatı***

# Moskva da Minsk qrupundan əl çəkir

**Rusiya ATƏT-in 30 il bundan əvvəl Qarabağ münaqişəsi üzrə yaradılmış Minsk qrupunun buraxılması ilə bağlı qərarını haqlı sayır. Bunu Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova Şərq İqtisadi Forumu çərçivəsində keçirilən brifinqdə deyib.**



Diplomat qeyd edib ki, Rusiya ATƏT-in digər üzvləri ilə birlikdə konsensus prinsipi əsasında qərarın qəbul edilməsində birbaşa iştirak edib: "Biz bu addımı düzgün hesab edirik və o, regionda vəziyyətin köklü dəyişməsi baxımından əsaslandırılıb".

M.Zaxarova onu da bildirib ki, Minsk qrupu institutlarının ləğvi təşəbbüsü Ermənistan və Azərbaycana məxsusdur. Əslində, Rusiya XİN sözçüsünün ATƏT-in Minsk qrupunun buraxılmasına verdiyi qiymət Moskvanın regionda yaranmış yeni reallıqları qəbul etməsi baxımından əhəmiyyətlidir. Onun açıqlamasına əsasən, Minsk qrupunun buraxılması qərarı ATƏT üzvləri arasında konsensus əsasında qəbul olunub və Rusiya da bu qərara səs verib. Bu yanaşma Rusiyanın postmünaqişə dövründə regionda yaranmış reallığa uyğun siyasət yürütməkdə maraqlı olduğunu göstərir. Qərarın birtərəfli deyil, beynəlxalq təşkilat çərçivəsində qəbul edilməsi onun legitimliyini artırır və siyasi iradənin birgə ifadəsini göstərir. Bəli, Zaxarovanın açıqlaması rəsmi Moskvanın Bakının mövqeyini dəstəklədiyi anlamına gəlir. Onun "Minsk institutlarının məhdudlaşdırılması təşəbbüsü Ermənistan və Azərbaycana məxsusdur" sözləri prosesin regional dövlətlərin iradəsinə əsaslanaraq həyata keçirildiyini təsdiqləyir. Bu mövqe bölgədə qərarverici rolun artıq region ölkələrinin öhdəsinə keçdiyini və xarici vasitəçilik institutlarının aktuallığını itirdiyi ilə barışdığını göstərir.

Bu açıqlama Azərbaycan–Rusiya münasibətlərində yaranmış gərginliyin aradan qaldırılmasından, regionun gələcəyi üçün əhəmiyyətli əməkdaşlıq perspektivlərinin formalaşmasından xəbər verirmi? Fikrimizcə, sualın birmənalı cavabı hələ tam yetişməyib. Bu yöndə müşahidə edilən pozitiv çalar odur ki, iki ölkə arasında soyumuş münasibətlərin müxtəlif istiqamətlər üzrə istiləşməyə doğru getməsi, xüsusilə təhlükəsizlik və sabitlik məsələlərində ortaq mövqelərin formalaşması hiss olunmaqdadır. Eyni zamanda, Minsk qrupunun buraxılması ilə bağlı Rusiyanın rəsmi mövqeyi həm ikitərəfli münasibətlərin möhkəmlənməsinə, həm də regional əməkdaşlığın yeni mərhələyə keçməsinə töhfə verə bilər.

Yada salaq ki, Azərbaycan uzun illər ərzində Minsk qrupunun fəaliyyətsizliyindən narazı idi. Bu baxımdan, Rusiyanın mövcud reallıqları qəbul etməsi və regional təşəbbüslərə önəm verməsi onun Bakının siyasi iradəsinə və mövqeyinə hörmətlə yanaşdığını göstərir. Yəqin, Kreml regionla bağlı siyasətini yeni geosiyasi şəraitə uyğun şəkildə qurmağa çalışacaq. Bu, Bakı–Moskva xəttində yaranmış gərginliklərdən sonra münasibətlərdə müsbət dəyişikliklərdən xəbər verir.

Hazırkı mərhələdə Azərbaycan və Rusiya arasında münasibətlərin əsas prioritetləri sülh prosesinin təşviqi, nəqliyyat və enerji layihələrinin reallaşdırılması, regional iqtisadi inteqrasiyanın gücləndirilməsi kimi sahələri əhatə edir. Bu kontekstdə Moskvanın Minsk qrupunun ləğvi ilə bağlı sərgilədiyi mövqe Bakı ilə konstruktiv və reallığa söykənən münasibətlərin inkişafına meyilli olduğuna inanmaq istərdik.

Görünən odur ki, Minsk qrupunun fəaliyyətinin dayandırılması təkcə simvolik addım deyil, həm də Azərbaycan–Rusiya münasibətlərində qarşılıqlı etimadın tədricən artdığını nümayiş etdirir. Bu hadisə həm də regionda uzunmüddətli sabitliyin və davamlı sülhün təmin olunmasına yönələn səylərin daha konkret və məhsuldar mexanizmlərlə əvəz olunması üçün əlverişli zəmindir.

Cənubi Qafqazda başlanmış yeni dövr region ölkələri arasında birbaşa dialoq və əməkdaşlıq üzərində qurulan yeni münasibətlərin qurulmasını şətləndirir. Onu da qeyd edək ki, bununla yanaşı, Moskva Azərbaycanla münasibətlərdə daha bir mühüm məqamı da gündəmə gətirib. M. Zaxarova bildirib ki, Azərbaycanda saxlanılan 13 Rusiya vətəndaşı ilə konsulluq əməkdaşlarının görüşməsi üçün rəsmi şəkildə sorğular göndərilib. Lakin hələlik bu sorğulara rəsmi Bakıdan cavab verilməyib. Rusiya tərəfi ümid edir ki, bu məsələdə razılıq əldə olunacaq və proses humanitar jest kimi ikitərəfli münasibətlərə müsbət təsir göstərəcək. Rusiya XİN sözçüsünün fikrincə, konsulluq əməkdaşlarının həbsdə olan vətəndaşlarla görüşməsi və onların səhhəti ilə bağlı məlumat alınması beynəlxalq hüquqa əsaslanan normal prosedurdur və tərəflər arasında etimadın möhkəmlənməsi üçün önəmlidir.

Deməli, Moskva bu məsələni təkcə diplomatik və hüquqi çərçivədə deyil, həm də humanitar aspektdə qiymətləndirir. Bu arada Rusiya Baş nazirinin müavini Aleksey Overçuk çıxışında qeyd edib ki, saxlanılan 13 Rusiya vətəndaşının taleyi Moskvanı narahat edir və onların tezliklə vətənlərinə qaytarılacağına ümid bəslənilir. O, həmçinin bildirib ki, Azərbaycan rəhbərliyinin məsələyə anlayışla yanaşacağına inanır və bu, iki ölkə arasında münasibətlərin yaxınlaşmasına xidmət edə bilər.

Burada diqqət çəkən əsas məqam ondan ibarətdir ki, Rusiya bu kimi humanitar məsələlərin siyasi münasibətlərin inkişafına birbaşa təsir göstərdiyini açıq şəkildə vurğulayır. Amma burda bir məsələ də var. Rusiya ərazisində həbs olunan azərbaycanlılar, diaspora rəhbərləri var. Əgər Moskva öz vətəndaşlarına qarşı humanistlik tələb edirsə, eyni münasibəti azərbaycanlılara qarşı da sərgiləməlidir. Belə olan təqdirdə ədalət prinsipi qorunmuş olar və ikitərəfli müçasibətlərə müsbət təsir göstərər.

Ümumiyyətlə, konsulluq əməkdaşlığının təmin olunması və vətəndaşların hüquqlarının qorunması, sadəcə, texniki və ya hüquqi məsələ deyil. Bu, həm də qarşılıqlı etimadın göstəricisi və siyasi münasibətlərin sağlam zəmin üzərində qurulmasına xidmət edər. Belə məsələlərdə qarşılıqlı anlaşmanın əldə olunması, humanitar əlaqələrin gücləndirilməsi diplomatik münasibətlərdə dayanıqlılıq qazanır və hər iki tərəfin maraqlarına xidmət edir.

**Qərbi Kaspi Universitetinin professoru, politoloq Fikrət Sadıqov** bu barədə



XQ-yə dedi ki, Minsk qrupunun ləğvi ilə bağlı Rusiyanın yanaşması təbii ki, bizi tam qane edir: "Burda müəyyən məqamlar da var. Bu məqamlar ondan ibarətdir ki, Moskva, əlbəttə, başa düşür ki, ATƏT-in Minsk qrupunda Qərb ölkələri çoxluq təşkil edir. Bu isə Rusiyanın maraqlarına cavab verməyn bir amildir. Amma bütün hallarda, rəsmi Moskva Minsk qrupunun ləğv edilməsini dəstəkləyirsə, bu, bizi tam qane edən yanaşmadır.

Məsələ ilə bağlı Azərbaycanın mövqeyi dəfələrlə bəyan edilib, bu istiqamətdə konkret diplomatik addımlar atılıb. Və sonda Minsk qrupunun ləğvinə nail olmağı bacardıq. Artıq Rusiya da bunu başa düşür. Bu ölkənin XİN sözçüsünün belə bir ifadəsi, əlbəttə, bizim maraqlarımıza tam uyğubdur. İki tərəfli əlaqələrin inkişafında müsbət rol oynayacaq".

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

*5 Sentyabr Beynəlxalq Xeyriyyəçilik Günüdür*

**Müasir təqvimdə beynəlxalq səviyyədə qeyd edilən əlamətdar günlərin "cavan"larından biri də Xeyriyyəçilik Günüdür. Onun cəmi 13 yaşı var. Beynəlxalq Xeyriyyəçilik Günü 2012-ci ildə BMT Baş Assambleyasının qərarı ilə təsis edilib. Əsas məqsəd Nobel Sülh Mükafatı laureatı Tereza Ananın vəfatının ildönümü gününü əbədiləşdirmək idi. Bildirilir ki, dünya şöhrətli missioner və katolik rahibə olan Tereza Ana 50 ilə yaxın əvvəlcə Hindistanda, sonra isə başqa ölkələrdə xeyriyyəçilik fəaliyyəti ilə məşğul olub: yoxsullara, xəstələrə və yetimlərə xidmət edib.**

# Qızıl taxıl dənəsidir yaxşılıq...

*Şəfqət, mərhəmət insanlığı ucaldır*



Ancaq dünya siyasətçilərinin lüğətində "Beynəlxalq Xeyriyyəçilik Günü" termininin olmadığı bütün dövr ərzində Azərbaycan xalqının görkəmli nümayəndələri bəşəri dəyər və insani keyfiyyətlərin uca tutulmasını bacarmış və çoxsaylı nümunələrini yaratmışlar. Xalq şairi Söhrab Tahir yaxşılığın, xeyirxahlığın bədii tərifini belə ifadə edib:

**Qızıl taxıl dənəsidir yaxşılıq...**
**Zəmilərə dönəsidir yaxşılıq.**

Folklorumuzda, xüsusən, dastanlarda bu barədə kifayət qədər məlumat olsa da, bu qısa yazıda real həyatda mövcud olmuş, həm də cəmi üç-dörd xeyriyyəçimiz barədə söz açmaq istəyirik.

Birincisi, bir neçə istiqamətli fəaliyyətinə görə milli tariximizin unudulmaz simalarından birinə çevrilmiş Həsən bəy Zərdabidir. Onun haqqında qələmə alınmış çoxsaylı materiallardan oxuyuruq ki, görkəmli mütəfəkkir, maarifçi alim, publisist və təbiətşünas Həsən bəy Zərdabi xalqın mədəni tərəqqiyə qovuşması yolunda böyük əmək sərf etmiş, əsl fədakarlıq göstərmişdir. Əlavə edilir ki, xalqın yoxsul və yetim uşaqlarının təhsili məsələsi Həsən bəy Zərdabini hər zaman düşündürürdü. Xeyirxahlıq əməlləri ilə yaşayan böyük alim-pedaqoq xalqına təmənnasız xidməti özünə ən ali məqsəd seçmişdi.

Professor İzzət Rüstəmov yazır ki, Həsən bəy Zərdabinin xeyriyyə cəmiyyəti yaratmaq təşəbbüsü də məhz bu amaldan irəli gəlirdi. Belə nəcib, şərəfli və çətin işə Bakı Realni Məktəbində müəllim olarkən başlamışdı. Bu məqsədlə 1871-ci ilin yayında Qafqazın məşhur şəhərlərinə səfər etməyi müəyyənləşdirmişdi. Əvvəlcə cəmiyyəti-xeyriyyənin nizamnaməsini tərtib edərək, təsdiq üçün Qafqaz canişini idarəsinə göndərmiş və sonra cəmiyyətə üzvlük haqları yığmaq üçün "qaytanlı dəftəri notaryusa möhürlədib" tələbəsi Nəcəf bəy Vəzirovla birlikdə səfərə çıxmışdı. Qeyd edək ki, onun dəst-xətti ilə yazılmış nizamnamə 46 maddədən ibarət olmaqla sənəddə xeyriyyə cəmiyyətinin vəzifələri geniş şərh olunmuşdu.

Haqqında söz açmaq istədiyimiz ikinci xeyriyyəçi soydaşımız görkəmli mesenat Hacı Zeynalabdin Tağıyevdir. Onun bir çox xeyriyyəçilik əməlləri, o cümlədən qızlar məktəbinin inşası, müsəlman qadınların hüquqları, Bakıya Şollar suyunun çəkilməsi layihəsinin maliyyələşdirilməsi, Quranın Azərbaycan dilində tərcüməsinin çapı və "Nəşr və maarif" kimi cəmiyyətlərin yaradılması hamıya məlumdur. Bu soydaşımız həmçinin azadlığa çıxan dustaqlara yardım edib, toxuculuq fabriki tikdirib və milli mətbuatın inkişafına dəstək göstərib.

*

Növbəti xeyriyyəçilik ünvanımız isə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondudur. Bildirilir ki, cəmiyyətin sosial problemlərinə və onların həllinə daim diqqət yetirən Heydər Əliyev Fondu özünün çoxşaxəli fəaliyyəti çərçivəsində humanitar və xeyriyyə layihələrini uğurla həyata keçirib və həyata keçirməkdə davam edir. Bu təşəbbüslərin miqyasını və mahiyyətini göstərmək bəlkə də mümkün deyil. Çünki həmin fəaliyyətin coğrafiyası olduqca böyükdür.

Məsələn, bir sıra məktəblərin, uşaq bağçalarının və uşaq evlərinin tikintisi və yenidən qurulması, orta və ali məktəblərin dərsliklər ilə təmin olunması, məktəblərdə, internat məktəblərində xeyriyyə tədbirlərinin keçirilməsi, yeni səhiyyə müəssisələrinin tikintisi və mövcud müəssisələrin yenidən qurulması, diaqnostika və müalicə, reabilitasiya mərkəzlərinin yaradılması, şəkərli diabet və talassemiyalı xəstələrə qulluq və müalicə, qanvermə aksiyalarının keçirilməsi, tarix və memarlıq abidələrinin mühafizəsi və bərpası, muzeylərin yaradılması və onların bərpası, uşaq musiqi məktəblərinin tikintisi, beynəlxalq musiqi festivallarının və incəsənət sərgilərinin keçirilməsi, mədəniyyət mərkəzlərinin yaradılması.

Mətbuatdan demək olar ki, hər gün oxuyuruq: "Heydər Əliyev Fondu 44 günlük İkinci Qarabağ müharibəsindən sonra – işğaldan azad edilmiş Azərbaycan ərazilərində quruculuq-bərpa işləri çərçivəsində dağıdılmış tarixi, dini, mədəniyyət və memarlıq abidələrinin bərpası, həmçinin bu diyarın, onun şəhər və kəndlərinin dirçəlişi istiqamətində irimiqyaslı layihələr həyata keçirir".

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva müsahibələrinin birində xatırladıb ki, xeyriyyəçilik işlərinin dairəsi konkret, özü də bir qayda olaraq, əhalinin sosial baxımdan zəif təbəqələrini təmsil edən insanlara – əlillərə, yetimlərə, qocalara və başqalarına bu və ya digər şəkildə kömək göstərilməsi ilə məhdudlaşır: "Bu mənada xeyriyyəçilik anlayışının kökləri qədim dövrlərə, təmənnasız könüllü fəaliyyətin, əsasən, zəiflərə və ehtiyacı olanlara kömək göstərilməsi ilə məhdudlaşdığı vaxtlara gedib çıxır. Bununla bərabər, müasir anlamda xeyriyyəçilik daha geniş məna daşıyır, cəmiyyətin rifahı naminə hər cür təmənnasız könüllü fəaliyyəti əhatə edir".

*

Bu məqamda bir faktı xüsusilə vurğulamaq zərurəti var. Bəzi mətbuat vasitələri bir dövlətin başqa dövlətə humanitar yardım göndərməsini xeyriyyəçilik kimi deyil, siyasi addım kimi qiymətləndirməyə çalışırlar. Fikrimizcə, belə düşünənlər səhv edirlər. Çünki söhbət məhz zəiflərdən, qayğıya, köməyə ehtiyacı olanlardan gedirsə, həmin qayğının, köməyin kim tərəfindən – hansısa xeyriyyəçi şəxs, qurum və ya dövlət – göndərilməsindən asılı olmayaraq, məram və nəticə eynidir. Ona görə də Azərbaycan dövlətinin Fələstin qaçqın-köçkünlərinə (dəfələrlə) və Rusiya – Ukrayna müharibəsinin zərərdidəsinə çevrilmiş Ukrayna sakinlərinə göndərdiyi humanitar və texniki yardım da məhz xeyriyyəçilik əməllərinin dövlət səviyyəsində davam etdirilməsidir.

Bu zaman xatırlatmaq istərdim ki, Azərbaycan Prezidenti İlham Əliyev bu il avqustun 11-də Ukraynaya humanitar yardım göstərilməsi məqsədilə Energetika Nazirliyinə vəsait ayrılması haqqında sərəncam imzalamışdır. Bildirilir ki, Azərbaycan Respublikası humanizm prinsiplərinə söykənərək, ikitərəfli və çoxtərəfli əsasda dünyanın bir çox ölkəsinə humanitar yardım göstərir. Son illərdə Ukraynada yaranmış vəziyyətlə əlaqədar Azərbaycan dövləti tərəfindən Ukrayna xalqına da bir neçə dəfə humanitar yardım göndərilmişdir.

Kütləvi informasiya vasitələri sentyabrın ilk günündə xəbər yaydılar ki, Azərbaycandan göndərilən humanitar yardım Ukraynaya çatıb. Bu barədə məlumatı Azərbaycanın Ukraynadakı səfiri Seymur Mərdəliyev "X" hesabında paylaşıb. Onun sözlərinə görə, Prezident İlham Əliyevin bu il avqustun 11-də imzaladığı sərəncama uyğun olaraq göndərilən humanitar yardım bu gün Ukraynaya çatıb və ölkənin Energetika Nazirliyinin rəsmilərinə təhvil verilib.

Bəli, Azərbaycan xalqının görkəmli nümayəndələri kimi dövlətimiz də humanist addımların atılmasına xüsusi önəm verir və xeyriyyəçiliyin daha mükəmməl nümunələrini formalaşdırır.

***İttifaq MİRZƏBƏYLİ***

# “Sivilizasiya beşiyi”, yoxsa vandalizm mərkəzi?

## *Ter-Petrosyanın xəstə təxəyyülü yenidən alt-üst vurur*

**Ermənistanın birinci (11 noyabr 1991– 3 fevral 1998) prezidenti, özünü əvvəllər Azərbaycanla kompromis tərəfdarı kimi göstərsə də, son vaxtlar radikal revanşistlərin cərgəsinə yuvarlanan Levon Ter-Petrosyan, deyəsən, siyasi uğursuzluğunu etiraf edərək bu sahədən uzaqlaşıb və elm dəryaçasına baş vurub. Diqqətli oxucular burada bilərəkdən “dərya” deyil, “dəryaça” sözündən istifadəyə üstünlük verdiyimizin fərqindədir. Çünki Ter-Petrosyanın baş vurduğu məhz dəryaçadır. Hər halda sentyabrın 3-də onun “İlur.am” saytında yerləşdirilən “Dahilər Ermənistan və ermənilər haqqında” sərlövhəli məqaləsi ilə tanışlıq belə deməyə əsas verir.**



Levon Akopoviçin məqaləsi onun “ermənilik xəstəliyinə” çox güclü mübtəla olduğundan xəbər verir. Məlumdur ki, ötən əsrlərdə erməni xalqının Mikael Çamçyan, Xaçatur Abovyan, Kristapor Mikaelyan, Simon Zavaryan, Qaregin Njde, Drastamat Kanayan (Dro), müasir dövrdə isə Zori Balayan, Silva Kaputikyan, Jirayr Libaridyan, Jirayr Səfilyan kimi nümayəndləri bu “xəstəliyə” yoluxmuşdular. Onlar nəinki özləri yoluxmuş, virus daşıyıcısı kimi bütöv bir xalqı da bu “dəhşətli epidemiya”ya düçar etmişdilər. Bu bəlanın erməni xalqını hansı vəziyyətə saldığı göz önündədir. Odur ki, yaxşısı budur, “xəstəliyin” əsas simptomlarını sıralayaq.

Əlbəttə, metaforik mənada işlətdiyimiz bu bəla erməni xalqının sağlam düşüncədən kənara çıxaraq uydurma miflər, saxta tarix və əsassız iddialar üzərində siyasət qurmasını nəzərdə tutur. Onun özündə ehtiva etdiyi əsas cəhətlərə uydurma tarix yaratmaq, qondarma soyqırımı iddiaları, ərazi iddiaları, qurban psixologiyası, diaspor maraqları, revizionizm, revanşizm və manipulyativ təbliğat daxildir. Bu səbəbdən “ermənilik xəstəliyi”, sadəcə, ideologiya yox, həm də siyasi-psixoloji sindrom kimi xarakterizə olunur. Levon Ter-Petrosyanın məqaləsi onun bu xəstəliyin daşıyıcısı olduğuna şübhə yeri qoymur.

*

Sabiq prezident yazının girişində sanki, necə deyərlər, qabaqdangəlmişlik edərək yazır: “Xalqımızın ləyaqəti, qüruru və həyat sevinci naminə, amma heç də lovğalanmadan və ya başqa xalqlara qarşı zərrə qədər nifrət hissi bəsləmədən bu sətirləri qələmə alıram. Bu məqalə ilə son vaxtlar keşişlər nəslinin davamçısı kimi işlətdiyim “xütbələr” silsiləsini bağlayıram. Bu münasibətlə “Arminfocenter” saytından rusca “Dahilər Ermənistan və ermənilər haqqında” məqaləsini bəzi ixtisarla oxuculara təqdim edirəm. Təəssüf ki, ermənicə tərcüməsi yoxdur. Bu, ehtiyatsız tərtib olunub, eyni zamanda, müəyyən faydalılığı olan nəşrdir”.

Ter-Petrosyan yazır ki, Ermənistan mövcud olduğu minilliklər ərzində (?) tez-tez “sivilizasiyanın beşiyi” adlandırılıb (?) və bu gün belə adlandırılır. Qeyd edib ki, guya, ermənilər özləri cəsarətləri, müdrikliyi, şücaətləri, ədəbiyyatı, mədəniyyəti, memarlığı və bir çox digər fəzilətləri ilə dünya tərəfindən xatırlanırlar. “Böyük hökmdarların və hərbi rəhbərlərin, yazıçı və şairlərin, aktyor və rejissorların, din xadimlərinin, erməni xalqının dostlarının Ermənistana və erməni xalqına maraq, hörmət və məhəbbətlərini ifadə edən bəzi sitatlarını və açıqlamalarını dərc edirik” – yazan sabiq prezident Qədim Roma siyasi və dövlət xadimi Qay Yuli Sezardan, “tarixin atası” adlandırılan Herodotdan, Rusiyanın ilk imperatoru I Pyotrdan, imperatriçə II Yekaterinadan tutmuş ingilis şairi Corc Bayrona, polyak bəstəkar Frederik Şopenə, sovet kinorejissoru Andrey Tarkovskiyə, şair Rəsul Həmzətovadək bir çox tanınmış şəxslərin Ermənistan və ermənilər barədə dedikləri, yazdıqları fikirləri sitat gətirib. Onların həmin fikirlərin müəllifi olduqları bir ayrı söhbətin mövzusudur. Amma atalar “Aşıq gördüyünü çağırar” deyiblər. Ermənistan dövlətini və erməniləri tanımaq üçün bizim hansısa əcnəbinin yazdıqlarını oxumağımıza, dinləməyimizə ehtiyac yoxdur. Biz azərbaycanlıların bildiyimiz və gördüyümüz erməni xalqı var ki, Ter-Petrosyanın yazdıqlarından sonra onların obrazını bir daha göz önünə gətirmək istəyirik. Sözsüz ki, onlardan fərqli olaraq eqoizm, narsizm, özünəvurğunluq, təkəbbürlülük kimi hisslərdən uzağıq. Sadəcə, faktların dili ilə “sivilizasiyanın beşiyi” Ermənistan dövlətinin və onun “sivil, mədəni, yüksək dəyərlərin daşıyıcıları olan” vətəndaşlarının törətdikləri bəzi əməlləri xatırladırıq.

*

İlk növbədə qeyd etməliyik ki, Ter-Petrosyanın irəli sürdüyü bu “özünütərif toplusu”, sadəcə, bir siyasi liderin subyektiv baxışı deyil, bütövlükdə, erməni ideologiyasının əsasında dayanan ənənəvi yanaşmadır. Ermənilər əsrlər boyu özlərini olduğundan artıq göstərmək, tarix və mədəniyyətlərini şişirtmək, qonşuların mədəniyyətinə yiyələnərək onu “erməni mirası” kimi təqdim etmək mərəzindən əziyyət çəkiblər. Əslində “sivilizasiyanın beşiyi” iddiası da məhz bu təfəkkürün məhsuludur. Amma faktların dili, real tarix və azərbaycanlıların canlı təcrübəsi göstərir ki, Ermənistan nə “beşik” olub, nə də “sivilizasiya” mərkəzi.

Əvvəla, əzəli Azərbaycan torpaqları üzərində qurulmuş bu ölkənin tarixində “sivilizasiyaya” bağlana biləcək ən kiçik işarə belə yoxdur. Əksinə, ermənilərin siyasi davranışları daim dağıdıcılıq, zorakılıq və başqalarının torpaqlarına göz dikmək üzərində qurulub. XX əsrin əvvəllərində Osmanlı imperiyasında minlərlə günahsız türk və azərbaycanlının məhz erməni silahlı dəstələri tərəfindən qətlə yetirilməsi, Şərqi Anadoluda törədilən qırğınlar tarixdə öz təsdiqini tapıb. 1988-ci ildən başlayaraq Ermənistanın Azərbaycana qarşı başladığı etnik təmizləmə siyasəti də həmin xəstəliyin davamı idi.

Maraqlıdır, “erməni müdrikliyi”ndən bəhs edən Ter-Petrosyan 1988-ci ildə Qərbi Azərbaycanda öz tarixi yurd yerlərindən 250 min azərbaycanlının evindən didərgin salınmasını, yaşlı, qadın və uşaqların qarlı dağlarda qətlə yetirilməsini hansı müdrikliklə izah edə bilər? Yeri gəlmişkən, məhz Ter-Petrosyan 1993-cü ildə “Erkrapa” könüllü döyüşçüləri ilə görüşdə azərbaycanlıların Ermənistandan qovulmasına haqq qazandırmışdı. Həmin görüşün videogörüntüləri bir müddət öncə ictimailəşdirilib. Sabiq prezident “erməni şücaəti”ndən danışırsa, onda 1992-ci ilin fevralında Xocalıda 613 mülki azərbaycanlının, o cümlədən 63 uşağın və 106 qadının amansızcasına öldürülməsini hansı qəhrəmanlığa sığışdıracaq? Əgər “erməni mədəniyyəti”ni önə çəkirsə, onda işğal dövründə Qarabağda məscidlərin təhqir edilməsini, qəbiristanlıqların dağıdılmasını, muzeylərin talanmasını, tarixi abidələrin yerlə-yeksan edilməsini hansı mədəniyyətin nümunəsi sayır?

Bütün bunlar bir həqiqəti üzə çıxarır: Ermənistan “sivilizasiyanın beşiyi” deyil, barbarlığın, vandalizmin və dağıdıcılığın simvoluna çevrilmiş bir dövlətdir. Ermənilərin bu cür davranışları təkcə Azərbaycana qarşı deyil, başqa xalqlara qarşı da müşahidə olunub.

Digər tərəfdən, “erməni xalqının dostları”nın, guya, onlara tariflər yağdırması da ciddi suallar doğurur. Tarixin müxtəlif dönəmlərində imperatorların, şairlərin, yazıçıların kiməsə xoş söz deməsi heç də onların real simasını müəyyən etmir. Bu gün azərbaycanlıların şəxsi təcrübəsi, gördükləri faktlar Ter-Petrosyanın sitat gətirdiyi sözlərin qanadlı ifadələrdən başqa bir şey olmadığını göstərir.

Azərbaycanlılar yaxşı bilirlər ki, “ermənilik” eqoizm, narsizm və özünəvurğunluqla yoğrulmuş ideologiyadır. Ermənilər özlərini dünyanın mərkəzi kimi təqdim etsələr də, gerçəkdə qapalı, təcrid olunmuş, qonşularına nifrət bəsləyən toplum modelini nümayiş etdirirlər. Onlar həqiqətən “mədəni xalq” olsaydılar, 30 ilə yaxın işğal altında saxladıqları torpaqları xarabalığa çevirməzdilər, Ağdamı “Qafqazın Xirosiması”na döndərməzdilər. Əgər doğrudan da “sivilizasiyanın daşıyıcısı” olsaydılar, Füzulini, Zəngilanı, Cəbrayılı, Qubadlını yerlə-yeksan etməzdilər. 2020-ci ilin noyabrında Kəlbəcəri tərk edərkən onlara məxsus olmayan, qanunsuz məskunlaşdıqları evləri yandırmaz, dağıtmaz, ağacları kəsməz, qucaqlarında unitaz daşımazdılar...

Azərbaycan xalqı isə tarix boyu tamamilə başqa bir mədəni kodu yaşadıb. Bizim ən böyük üstünlüyümüz tolerantlıq, qonşuluq münasibətlərinə hörmət və sülhə bağlılıqdır. Azərbaycan paytaxtı yüz illərdir müxtəlif dinlərin, millətlərin dinc yanaşı yaşadığı şəhər olub. Şuşa musiqinin, poeziyanın mərkəzi kimi tanınıb. Sivilizasiyanın əsl göstəricisi də məhz budur, daha eqoist şüarlar yox. Odur ki, Ter-Petrosyanın təqdim etdiyi obraz süni təmtəraqdan ibarətdir. Ermənistanın real simasını tanımaq üçün Qay Yuli Sezarın və ya Corc Bayronun sözlərinə yox, Xocalıda qətlə yetirilən körpələrin şəkillərinə, Ağdamın xarabalıqlarına, Göy məscidin təhqir edilmiş divarlarına baxmaq kifayətdir. O zaman kimin “sivil”, kimin isə “barbar” olduğu aydın görünür.

Sonda onu da qeyd etmək istərdik ki, azərbaycanlıların yaddaşı güclüdür. Biz kiminlə üz-üzə olduğumuzu yaxşı bilirik. Ermənilərin nə qədər “özünü bəzəyən” yazılar yazmasından asılı olmayaraq, onların törətdikləri əməllər tariximizdə silinməz izlər buraxıb. Ermənistan nə sivilizasiyanın beşiyi, nə də mədəniyyətin daşıyıcısıdır. Əksinə, regionda sabitliyi pozan, müharibələr doğuran, nifrət toxumu səpən bir xəstəliyin adıdır.

***Səxavət HƏMİD***
***XQ***

# Çöküşlə barışmayanların korafəhmliyi

## ***“Miatsum” və “böyük Ermənistan” hayqıran hayların son ünvanı ya Erablur məzarlığı, ya da Bakı hərbi məhkəməsidir***



**8 avqust Vaşinqton Bəyannaməsi imzalandıqdan dərhal sonra gündəmdə qalmağa çalışan köhnə simalar – Serj Sarkisyan, Robert Koçaryan, “Daşnaksütyun”un başsız qalmış siyasi yetimləri, habelə xaricdəki erməni diasporunun separatçı dairələri səhnəyə atılıblar. Onların məqsədləri bizə gün kimi aydındır: Qarabağ “kartı”nı yenidən gündəmə gətirmək, “ermənilərin qayıdışı” bəhanəsi ilə həm sülh prosesini baltalamaq, həm də Paşinyanı zəiflətmək. Halbuki Nikol Paşinyanın özü dəfələrlə etiraf edib ki, dünyada bir Ermənistan dövləti var, ikincisinə ehtiyac yoxdur. Qarabağı könüllü tərk etmiş ermənilərin geri qaytarılması barədə qaldırılan sərsəm tələbləri isə Baş nazir açıq şəkildə təhlükəli adlandırıb. Bütün bu mesajlar onu deməyə əsas verir ki, Nikol bu saatdan sonra gülləni “öz ayağına sıxmaz”.**

Erməni müxalifəti üçün Qarabağ məsələsi yalnız siyasətə qayıdış bileti deyil, həm də öləziməkdə olan revanşist xülyaların qığılcımıdır. Birgünlük antiterror əməliyyatının ardından darmadağın olmuş separatçı rejimin tör-töküntüləri indi özlərini “müstəqillik ildönümü” mitinqlərində, Erablur qəbiristanlığında saxta memoriallarda və ucdantutma “beynəlxalq konfrans”larda göstərməklə məşğuldurlar. Sentyabr ayının gəlişi ilə qaysaq bağlayan yaralar yenidən qanamağa başlayıb. İlk növbədə İrəvanda “Artsax: həll olunmamış münaqişə, qayıtmaq hüququ” mövzusunda ucdantutma təşkil olunmuş “konfrans” baş tutub. Burada çıxış edən İşxan Saqatelyan deyib ki, “Artsax məsələsi bağlanmayıb Artsax xalqı öz tarixi vətənində ləyaqətli yaşamaq hüququndan məhrum edilib”. Bu da öz növbəsində separatçı kütlə üçün boşa atılmış növbəti mərmidən başqa bir şey deyil.

Bu azmış kimi, Erablur qəbirstanlığında “Artsaxın harayı” adlı “memorial kompleks”in açılış mərasimi keçirilib. Mərasimdə separatçı qurumun sonuncu mogikanı obrazında çıxış edən Samvel Şahramanyan ATƏT-in Minsk qrupunun ləğvindən sonra yeni mexanizmin yaradılacağına ümid etdiyini bildirib. Bu hadisələr göstərir ki, revanşistlərin teatrı yalnız söz və simvollardan ibarətdir. Hər bir çıxış, hər bir mərasim sanki cəmiyyətin diqqətini bulandırmaq, köhnə xülyaları diriltmək və sülh prosesini manipulyasiya etmək məqsədi daşıyır. Lakin reallıq amansızdır: Vaşinqton Bəyannaməsi və Azərbaycanın sərt, amma qətiyyətli addımları bütün lazımsız fiqurları əsas siyasi səhnədən sildi.

Erablur qəbiristanlığında açılan “Artsaxın harayı” memorialı isə sülhə çağırış yox, bir növ yeni qəbirlərə dəvət simvoluna çevrildi. Bu mərasimdə Samvel Şahramanyan kimi fiqurların çıxış etməsi ironikdir: 2023-cü ildə məhz o, separatçı “DQR”in ləğv fərmanını imzalamışdı. İndi isə sanki yaddaşsızlıq sindromu ilə “qayıdış mexanizmi” uydurur. Azərbaycanın cavabı isə qətiyyətli və simvolik oldu. Eyni gün Xankəndidə uzun illər separatizmin rəmzi sayılan “xarici işlər nazirliyi” binasının söküntüsünə başlanıldı. Bu, həm İrəvana, həm də revanşistlərə ünvanlanmış mesaj idi: Azərbaycanın ərazisində ikinci erməni dövlət xülyası birdəfəlik torpağa gömülüb.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, qondarma rejimin ikinci ilində keçmiş xuntanı arzulayanların sayı ötən ilə nisbətən daha çoxdur. Bu isə səbəbsiz deyil. Ermənistanın baş naziri Nikol Paşinyan avqustda Vaşinqtonda Azərbaycan lideri İlham Əliyevlə əl sıxışaraq bir növ onun şərtlərini qəbul etdi. Bu isə müxalifətin arzuladığı ən son hadisə idi. Bakı ilə davamlı sülh şübhəsiz Nikolun hakimiyyətini gücləndirəcək, Ermənistanda mövcud xəstə meyilləri isə ölüm döşəyinə məhkum edəcəkdi. Artıq ilkin simptomlar özünü biruzə verməyə başlayır. Demək olar ki, Paşinyana əks bütün qüvvələr “sarsax” bayrağı altında cəmləşiblər. Bütün ermənilərin katolikosu hesab olunan II Qaregin, Böyük Kilikiya Evinin katolikosu I Aram, Ermənistanın ikinci prezidenti Robert Koçaryan, üçüncü prezident Serj Sarkisyan, Samvel Şahramanyan, digərləri və onların əlaltılarını hamısını birdən qaşınma tutub. Son üç gündür ki, yuxarıda adları sadalananlar ucdantutma “Artsax”la bağlı bəyanatlar səsləndirirlər. Lakin cəm də elə bu qədərdir. Bu çağırışların küyü İrəvandan o tərəfə çıxa bilmir, şəhərin özündə isə çox az dəstək tapıb.

Məhz elə reallıq da budur. Ermənistan cəmiyyəti yorulub. Erablurdakı “memorialın” açılışına qatılanların sayı göstərdi ki, nə erməni xalqı, nə də Qarabağdan köçənlər revanşistlərin oyunlarına qoşulmaq istəyir. Sülhün real faydaları göz önündədir – Azərbaycanla iqtisadi əməkdaşlıq, regional layihələrə qoşulmaq, təcriddən çıxmaq. Paşinyan anlayır ki, 2026-cı il seçkilərinə gedən yolda onun yeganə şansı budur.

Sonda sual açıq qalır: Ermənistan hakimiyyəti cəsarət göstərib sülh kursunu davam etdirəcəkmi, yoxsa “Artsax xülyası”na uymuş revanşistlərin ipini əllərinə almalarına göz yumacaq? Yaxın tarix göstərdi ki, “miatsum” və “böyük Ermənistan” şüarlarının sonu iki yerdə – Erablur qəbiristanlığı, yaxud Bakı təcridxanalarında bitib. İndi seçim İrəvandadır – ya sabitlik və inkişaf yolu, ya da revanşistlərin qara kitablarına yazılan daha bir uğursuz tarix.

***Tacir SADIQOV***
***XQ***

**Ekspert rəyi**



**Yusif BAĞIRZADƏ, politoloq**

**Vaşinqton görüşündə əldə olunan razılaşma Cənubi Qafqazda yeni reallıqların meydana gəlməsini şərtləndirdi. Sülh sazişinin paraflanması ilə yanaşı, Azərbaycanın tələbi ilə ATƏT-in Minsk qrupundan imtina edilməsinə dair birgə müraciət, eləcə də yenə də Bakının şərtləri daxilində Zəngəzur dəhlizi ilə bağlı razılaşmanın əldə olunması regionda sabit və davamlı sülhün əldə edilməsi baxımından olduqca mühüm əhəmiyyət kəsb edir.**

Bütün bunlardan qazanan təkcə Azərbaycan yox, təbii ki, həm də Ermənistandır. Uzun illər ərzində, demək olar ki, dalan dövlət olaraq qalmaq məcburiyyətində qalan və Rusiyadan, bir sıra hallarda isə İrandan asılı vəziyyətdə olan Ermənistan nəhayət ki, tranzit ölkə statusu əldə etmək, regional layihələrdə iştirak etmək imkanı əldə edəcək. Ermənistanda hakim partiya ilə yanaşı, çoxluq da Azərbaycanla əldə edilən razılaşmaların əhəmiyyətini dərk edir. Amma təəssüf ki, Ermənistanda hələ də revanşist düşüncəyə malik, Azərbaycan və Türkiyə ilə münasibətlərin bərpasını ölkə üçün xəyanət kimi qəbul edənlər də var. Bu qüvvələrin əksəriyyəti birbaşa kənardan idarə olunur və kilsə ilə birlikdə Ermənistanda “beşinci kalon” fəaliyyətdədir.

Paşinyan və komandasının revanşistlərin bu çağırışları fonunda konkret və sərt tədbirlərə əl atması lazımdır. Düşünürəm ki, belə də olacaq. Çünki Paşinyan yaxşı dərk edir ki, həmin qüvvələrə meydan vermək, xüsusilə də seçkiqabağı dövrdə hakimiyyətin başağrısına çevrilə bilər. Digər tərəfdən, revanşist çağırışlara yol verilməməsi artıq paraflanan sülh sazişində də konkret öhdəlik olaraq qoyulub və Ermənistan da buna uyğun addımlar atmalıdır.

Əks halda sülhə təhdid sayılan istənilən addım Azərbaycanın sərt təpkisinə səbəb olar ki, bunun da aqibətini ermənilər son beş ildə kifayət qədər yaxşı bilirlər.

# Yeni müstəmləkəçilik sivil dünya üçün həqarətdir

## *Bakı Təşəbbüs Qrupu isə dekolonizasiya prosesinin lokomotividir*

**Fransa keçmiş müstəmləkələrini formal olaraq “azad” elan etsə də, onları iqtisadi, siyasi və mədəni asılılıqda saxlamağa davam edir. Bunun bariz nümunəsi Sakit okeanda yerləşən Yeni Kaledoniyadır. Kanak xalqı onilliklərdir müstəqillik tələb edir. Məsələ ilə bağlı referendumlar keçirilsə də, nəticələr ya manipulyasiya olunub, ya da Parisin inzibati təsirinə məruz qalıb. İqtisadi asılılıq “yardım paketi” adı ilə saxlanılır, xalqın etirazı isə polis zorakılığı ilə yatırılır. Bu səbəbdən neokolonializmə qarşı çıxmaq ümumbəşəri ədalət məsələsi sayılır.**



Azərbaycan bu məsələdə prinsipial mövqe ortaya qoyan dövlətlərdəndir. Ölkəmiz həm regional maraqlarını müdafiə edir, həm də qlobal miqyasda ədalət uğrunda mübarizə aparır. Rəsmi Bakının mövqeyinin ən real ifadəsi Bakı Təşəbbüs Qrupudur (BTQ). Bu format müxtəlif beynəlxalq tədbirlərdə, BMT platformalarında Fransa kimi dövlətlərin neokolonial siyasətini ifşa edir. Dövlətimiz bu yolla, kanaklılar daxil olmaqla, bir çox xalqların haqq səsini dünyaya çatdırır. Bu barədə daha ətraflı məlumat almaq üçün BTQ-nin icraçı direktoru Abbas Abbasov ilə həmsöhbət olduq.

**– Abbas müəllim, Yeni Kaledoniyanın iqtisadi və sosial bərabərliyinin qorunması üçün nə lazımdır?**

– Fransa hökuməti həmişə bəyan edir ki, yeni Kaledoniya bizim ərazimizdir və burada yaşayanlar fransız xalqıdır. Amma onların həm sosial, həm iqtisadi vəziyyətləri yerli xalqdan xeyli fərqlənir. Artıq Yeni Kaledoniyanın özünün siyasi partiyaları, qeyri-hökumət təşkilatları, ekspertləri tərəfindən də mövcud sosial, iqtisadi çətinliklər açıq şəkildə dilə gətirilir. Bakı Təşəbbüs Qrupu yarandığı gündən qlobal müstəvidə, fərqli beynəlxalq təşkilatlarda reallığı geniş ictimaiyyətin diqqətinə çatdırmağa başladı. Bunlar bir sıra hesabatlarımızda, araşdırmalarımızda öz əksini tapdı. Beynəlxalq institutlara tövsiyələrimiz hər zaman ilk növbədə ondan ibarət olub ki, sosial iqtisadi fərq aradan qaldırılsın. Yeni Kaledoniya BMT-nin dekolonizasiya edilməli əraziləri siyahısındadır. Afrika qitəsində yeni kolonial siyasət tətbiq edilməyə başlanılıb. Amma təəssüf ki, keçmiş müstəmləkələrin maliyyə bazarları, iqtisadiyyatı yenə də Fransa tərəfindən istismar edilir, yerlərdə Fransa şirkətləri fəaliyyət göstərir, frank tətbiq olunur. Ümid edirəm ki, Yeni Kaledoniyada bu baş verməyəcək. Artıq onlar yeni dövlət, yeni bir ölkə olacaq.

**– Bakı Təşəbbüs Qrupu müstəmləkəçilikdən əziyyət çəkən xalqların səsini dünya ictimaiyyətinə necə çatdırır?**

– Onu deyim ki BTQ-nin atdığı bütün addımlar beynəlxalq hüquqa uyğun formada həyata keçirilir. Dənizaşırı ərazilərdə fəaliyyət göstərdiyimiz, əməkdaşlıq qurduğumuz təşkilatlarda da hər zaman bu prinsipi gözləyirik. BTQ qurulandan və Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyindən öncə müstəmləkələr problemlərini dünya ictimaiyyətinə çatdıra bilmirdilər. Çünki proses hüquqi tənzimləmə tələb edirdi. Fransa hökuməti isə media prizmasından bu prosesi əngəlləyirdi. Ona görə də Bakı Təşəbbüs Qrupu olaraq bu ərazilərdəki cari problemləri və tətbiq edilən müstəmləkəçilik siyasətini BMT-də, onun qurumlarında, beynəlxalq konfranslarda dünya ictimaiyyətinə çatdırdıq. Nəticədə BTQ beynəlxalq hüquq alətlərindən düzgün istifadə etməklə problemlərdən dünya ictimaiyyətini agah etdi, media vasitəsilə bunu işıqlandırıldı. Proses çərçivəsində yenə də rəsmi Parisin dezinformasiyalar yaydığının şahidi olduq. Amma hər bir halda məkrli planların heç biri dekolonizasiya prosesinə verdiyimiz töhfənin qarşısını ala bilmədi. BTQ, həmçinin müstəmləkə ərazilərində azadlıq hərəkatlarına dəstək olur, həmin xalqlarla memorandumlar imzalayır, əməkdaşlıq qururuq. Amma fəaliyyətimiz siyasi müstəvidə yekunlaşmır, həm də ətraf mühit, təhsil, səhiyyə məsələləri üzrə layihələr həyata keçiririk. Təkcə COP29 ərəfəsində BTQ-nin 6 beynəlxalq tədbiri baş tutmuşdu.

**– Dekolonizasiya uğrunda mübarizədə üzləşdiyiniz ən böyük çətinliklər hansılardır və buna qarşı nə edirsiniz?**

- Ümumiyyətlə, dekolonizasiya prosesi çox mürəkkəbdir və burada müəyyən reallıqları qəbul etmək lazımdır. BMT-nin C-24 komitəsi və onun qətnamələri hələ də yerinə yetirilmir. Fransa hökuməti yenə də müəyyən proseslərə müdaxilə edir və bu da bir sıra çətinliklər yaradır. Oxşar problem İkinci Dünya müharibəsindən sonra da müşahidə olunub. 1960-cı illərdə 1514 nömrəli qətnamə qəbul edildikdən sonra təşkilatda fəal bir faza başladı və bir sıra Afrika ölkələri 60-70-ci illərdə öz müstəqilliyini əldə edə bildilər. Daha sonra bir yavaşıma oldu. Bu faza dayandı və artıq təbii olaraq müstəmləkəçilikdən zərər çəkən xalqlar yenidən mübarizəyə başladılar. Amma Yeni Kaledoniya onilliklərdir ki, bu bəladan qurtula bilmir. Amma onların şansı böyükdür, çünki adları BMT-nin dekolonizasiya edilməli ərazilər siyahısındadır. Bakı Təşəbbüs Qrupunun prosesə ən böyük töhfəsi ondan ibarətdir ki, artıq həm beynəlxalq təşkilatlar, həm də dünya ictimaiyyəti bu ərazilərlə bağlı kifayət qədər məlumatlıdırlar.

**– Siz Matinyon, Numea və Bujival sazişlərinin Yeni Kaledoniyada dekolonizasiya prosesinə əngəl törətməsi barədə Bəyanat da yaymısınız. Reaksiya necədir?**

– Bu məsələdə Qoşulmama Hərəkatına (QH) üzv ölkələrin dəstəyi özünü göstərdi. Təbii ki, Yeni Kaledoniya daxil olmaqla, Bakı Təşəbbüs Qrupunun fəaliyyətini yüksək qiymətləndirən dənizaşırı ərazilərin də dəstəyi müşahidə olundu. Əfsuslar olsun ki, yenə də Fransanın təsiri bəzi beynəlxalq institutların yanaşmasında özünü göstərdi. Bəziləri sözdə prosesə töhfə verməkdə maraqlı olduqlarını desələr də, işdə heç bir irəliləyiş görmədik. Amma BTQ sözügedən istiqamətdə işləri davam etdirir. Prezident İlham Əliyev dəfələrlə fərqli beynəlxalq platformalarda bu məsələni gündəmə gətirib və beynəlxalq aləmin neokolonializmlə mübarizəyə töhfə verməsinin vacibliyini vurğulayıb. Bu, asan məsələ deyil və yaxın zamanda həyata keçirilə bilməz. Amma BTQ-nin qısa müddət ərzində çox böyük nailiyyətləri oldu.

**– Bəs BTQ bu istiqamətdə yaxın gələcəkdə daha hansı işləri görməyi planlaşdırır?**

– 2024-cü ildə biz beyin mərkəzi olaraq fəaliyyətə başladıq. Ötən dövrdə 11 hesabat dərc edildi. Bu hesabatların bir qismi BMT-nin İnsan Hüquqları Şurası və İnsan Hüquqları Komitəsində təqdim olunub və mühüm nəticələr doğurub. Məsələn, İnsan Hüquqları Komitəsinə təqdim etdiyimiz alternativ hesabatda Yeni Kaledoniya və Fransız Polineziyasındakı vəziyyət xüsusi yer alıb. Nəticədə Komitə Fransadan əlavə hesabat tələb edib və sual ünvanlayıb ki, nəyə görə Yeni Kaledoniyada ordu yerləşdirilib, silahlı qüvvələr geri çəkilməyib. Məhz bizim 2024-cü ildə apardığımız fəaliyyət nəticəsində onlardan rəsmi hesabat tələb olundu. Bununla yanaşı, biz kitab nəşr edərək ictimaiyyətin diqqətinə çatdırdıq, beyin mərkəzi olaraq fəaliyyətimizi daha da genişləndirdik.

2024-cü ilin iyulunda ilk dəfə kolonializmə qarşı mübarizə aparan bütün müstəqillik hərəkatlarını və siyasi təşkilatları bir araya gətirdik. İki gün davam edən qurultayda 17 təşkilat iştirak etdi və yekdil qərarla Beynəlxalq Dekolonizasiya Cəbhəsi təsis olundu. Artıq Bakı dekolonizasiya prosesinin əsas mərkəzlərindən birinə çevrildi.

Gələcək planlarımıza gəldikdə isə onların arasında alternativ hesabatların hazırlanaraq aidiyyəti beynəlxalq təşkilatlara təqdim olunması dayanır. BMT və digər qurumlar səviyyəsində bu ərazilərin müstəqillik əldə etməsinə qədər dəstəyimiz davam edəcək.

Onu da qeyd edək ki, 2023-cü ilin iyulunda təsis edilən Təşəbbüs Qrupu ilkin mərhələdə beynəlxalq konfranslar təşkil edən birlik kimi fəaliyyətə başladı. Bu il bir elmi konfrans keçirildi, BMT ekspertləri, xüsusi məruzəçilər, diplomatlar və tanınmış alimlər bu prosesə qoşuldular. Bu təşəbbüsün nəticəsi olaraq dekolonizasiya üzrə elmi mübarizə platforması təsis edildi. Məqsəd yalnız siyasi deyil, həm də akademik tədqiqatlar, arayışlar və elmi araşdırmalar vasitəsilə dekolonizasiya prosesinə töhfə verməkdir. Hazırda BTQ-nin qarşıdakı illər üçün planları hazırdır. 2025-ci ilin sonu və 2026-cı ilin əvvəlində yeni planlarımız barədə ictimaiyyətə ətraflı məlumat veriləcək.

***Söhbəti hazırladı:***
***Nəzrin ELDARQIZI***
***XQ***

# Ay Sobhani, sən yenə danışırsan?

**(əvvəli 1-ci səhifədə)**



Bəli, hazırkı durumda diplomat, demək olar, anlaqsızdır və tam mümkündür ki, ağzından Bakı-Tehran münasibətlərindəki iki il əvvəlki gərginliyə uyğun ifadə də çıxarsın. İran rəhbərliyi isə Sobhanini birtəhər mərkəzə çağırıb onun “proqram təminatını” yeniləyə və ya aşırı erməni sevgisinə görə adamı Ermənistanda arxeoloji qazıntılar aparan ekspedisiyaya rəhbər təyin edə bilər. Diplomatiyadan baş açmağı bacarmadı, heç olmasa, gedib qədim “sobhantropun” alt çənə sümüyünü aşkarlasın. Ancaq daha yaxşı olar ki, beləsinə ya diplomatik fəaliyyət aparmaq qadağan edilsin, ya da Fil Dişi Sahilinə, yaxud Eritreyaya filan səfir göndərilsin. Yəni, belə bir şəxsi bacardıqca region üçün strateji sayılan nöqtələrdən uzaq tutmaq şərtdir.

*

Əlqərəz, M.Sobhani “İsca News” telekanalına müsahibəsində bildirib ki, Azərbaycanla Ermənistan arasındakı sülh sazişi sənədində və iki ölkənin Vaşinqtonda imzaladığı bəyanatda nəqliyyat marşrutlarından və ya “dəhliz” deyilən hansısa məsələdən bəhs olunmur, sadəcə, Azərbaycanın Naxçıvana çıxışını təmin edəcək nəqliyyat marşrutlarının açılması nəzərdə tutulur. Ermənistan isə öz növbəsində Culfa dəmir yolu ilə İranla bağlanacaq.

Əvvəla, Prezident İlham Əliyevin əvvəldə diqqətə çatdırdığımız fikirləri var. İkincisi, Ermənistanın Culfa vasitəsilə İranla bağlantısını Sobhani yuxusunda görüb. Üçüncüsü, cənab səfir bilməlidir ki, Bakı və İrəvan arasında paraflanmış sülh sazişi kompleks xarakter daşıyır, yəni orada detallı nəyinsə təsvirinə ehtiyac yoxdur. Hər bir halda, sazişin 10-cu maddəsində tərəflərin müxtəlif sahələr, o cümlədən nəqliyyat və tranzit üzrə ayrıca razılaşmalar bağlamaq imkanları əksini tapıb. Dördüncüsü, “Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının Baş nazirinin Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində keçirilmiş görüşünün nəticələrinə dair Birgə Bəyannamə”də göstərilir ki, tərəflər regionda və onun qonşuluğunda dövlətlərin suverenliyi, ərazi bütövlüyü və yurisdiksiyasına hörmət əsasında sülhün, sabitliyin və rifahın təşviqi üçün iki ölkə arasında ölkədaxili, ikitərəfli və beynəlxalq nəqliyyatın təmini məqsədilə kommunikasiyaların açılmasının əhəmiyyətini bir daha təsdiqləyirlər: “Bu səylər Azərbaycan Respublikasının əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantını və Ermənistan Respublikası üçün beynəlxalq və ölkədaxili bağlantılar üzrə qarşılıqlı faydaları ehtiva edir”.

Biz maneəsiz bağlantıya “dəhliz” deyirik, bundan Sobhaniyə nə? Digər tərəfdən, Birgə Bəyannamədə “beynəlxalq nəqliyyatın təmini məqsədilə kommunikasiyaların açılması” məntiqi var ki, bu, səfirin “nəqliyyat marşrutlarından bəhs olunmur” şəklində dilə gətirdiyi fikri inkar edir. Göründüyü kimi, Azərbaycan və Ermənistan irəli gedir, Sobhani geridə, loru dildə desək, toz qoparmaqla məşğuldur.

Ümumən, səfir Sobhani elə danışır ki, sanki, Ermənistanın ərazi bütövlüyü və suverenliyinə təhdid var. Görəsən, nə zamansa belə bir şey olubmu ki, diplomat fikirləri ilə buna qarşı, bir növ, müqavimət formalaşdırır. Habelə, Birgə Bəyannamədə vurğulanır ki, “Ermənistan Respublikası Ermənistan Respublikasının ərazisində “Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu” (TRIPP) bağlantı layihəsi üçün çərçivənin müəyyən edilməsi məqsədilə Amerika Birləşmiş Ştatları və qarşılıqlı müəyyən edilmiş üçüncü tərəflər ilə əməkdaşlıq edəcəkdir. Biz bu məqsədə ən qısa zamanda nail olmaq üçün xoş niyyətlə səy göstərməyə dair qətiyyətimizi təsdiq edirik”.

Biz TRIPP-ə də dəhliz, həmçinin, Zəngəzur dəhlizi deyiriksə, bundan da nə Sobhani, nə də qeyrisi əndişə duymalıdır. İran səfiri anlamalıdır ki, başlıca məqam Azərbaycanın Naxçıvana sırf maneəsiz yol əldə etməsidir ki, bununla Ermənistan dövləti razılaşır və razılaşma baş nazir Nikol Paşinyanın imzası ilə təsdiqlənir. Həmin yolla Azərbaycan dünyanı bir-birinə bağlayacaq, məsələnin heç kəsə dəxli yoxdur. Yəni, yaxşı olar ki, cənab Sobhani əsas mahiyyət ətrafında “topal ayaqla” gəzməyindən əl çəksin.

Amma M.Sobhaniyə yarımçıq “sağ ol” düşür. Niyə yarımçıq, aydınlıq gətirəcəyik. Səfir sağ olsun, ona görə ki, heç olmasa, Azərbaycan və Ermənistan arasında imzalanmış Birgə Bəyannamədə milli suverenliyə, sərhədlərin bütövlüyünə hörmətin, yurisdiksiyanın, qarşılıqlılığın və sərhədlərin toxunulmazlığının tam nəzərə alındığını və buna görə narahatlığa heç bir əsasın olmadığını vurğulayır. Bəs görəsən, İranın arzuladığı beş prinsip nədir ki, Sobhani hər şeyin onlara uyğunluğunu bildirir. Axı, indiyədək Tehran hansısa prinsip açıqlamayıb. Üstəlik, sülh sazişinin prinsiplərini müəyyənləşdirən Azərbaycandır.

İrandan, bir qayda olaraq, “regionda sərhədlərin dəyişməzliyi yolverilməzdir”, “Ermənistanın ərazi bütövlüyü və suverenliyi qırmızı xəttimizdir” kimi bəyanatları eşitmişik. Yorulmuşuq deməkdən ki, Ermənistanı ələ keçirmək fikrimiz yoxdur. Necə deyərlər, kor tutduğunu buraxmayıb və indinin özündə də İranda “korlar” meydana atılır. Onlar Paşinyanın Vaşinqtonda Birgə Bəyannaməyə imza atmasından sonra da nə isə danışırlar. Yeri gəlmişkən, Sobhani də boş-boş danışanların sırasında yer alıb və almaqdadır. İndi isə o, öz aləmində elə görüntü yaradır ki, guya, hər şey Tehranın istəyinə uyğundur. Axı Azərbaycan lap əvvəldən İranın mənafelərinə zidd hansısa fəaliyyətin içində olmayıb. Ermənistana gəlincə, ölkə seçimini edib. Ərazi onun, kimə, hansı müddətə icarəyə verir, başqa nə edir, özü bilər.

İcarədən söz düşmüşkən, M.Sobhani İrəvan hava limanı ilə bağlı uğursuz müqayisə apararaq deyib ki, bəs “razılaşdırılmış tranzit marşrutu üçün “99 illik icarə” adı altında işlədilən ifadələr düzgün deyil”. Söhbət isə elə icarədən gedir. Böyük anlamda Naxçıvana maneəsiz yoldan. Daha böyük anlamda qlobal marşrutdan, kommunikasiya xabından. O marşrut ki, ondan İranın da faydalanma imkanları var və bu haqda dəfələrlə söz açılıb. Sobhanı məsələ barədə eşitməyibsə, bu bizim problemimiz deyil. Yalan-gerçək, deyilənə görə, İranın Ermənistandakı səfirliyinin qarşısında şərab evi fəaliyyət göstərir. Hesab edirik ki, günah məhz həmin şərab evindədir. Başqa nə deyək, durumu hansısa formada əsaslandırmaqda, izah tapmaqda çətinlik çəkirik.

Ancaq təkcə Sobhani deyil, habelə onun kimi söz xatirinə söz deyənlər onu da anlamalıdır ki, Tramp marşrutu və ya hansısa başqa adlarla göstərilməsindən asılı olmayaraq, Zəngəzur dəhlizi bütövlükdə region üçün əhəmiyyətlidir və Prezident İlham Əliyev dəhlizin ənənəvi Şimal-Cənub marşrutunu sıradan çıxarma ehtimalına və məsələyə İranın reaksiyasına dair “Əl-Ərəbiyyə” telekanalı müxbirinin sualını cavablandırarkən, fayda və mənfəət amilinə müfəssəl izah verib. Dövlətimizin başçısı bildirib ki, Zəngəzur dəhlizi İranın prioritet saydığı Şimal dəhlizinə yalnız müsbət təsir göstərəcək. “Çünki əvvəlcə planlaşdırılmış və layihələndirilmiş Şimal-Cənub dəhlizi Şimaldan, Şimali Avropadan, Rusiyadan, Azərbaycandan, İrandan, Fars körfəzindən düz xətlə gedir. Xəritəyə baxsanız, o, Azərbaycan ərazisindən, qismən də Xəzər dənizinin sahilindən keçməkdədir”, - deyən ölkəmizin lideri bütün yolların bir nöqtədə birləşəcəyinin anonsunu da verib: “Bəli, hazırda belədir. Deməli, bu, tamamilə Azərbaycan ərazisində tikilmiş həqiqi Şimal-Cənub dəhlizidir. Rusiya sərhədindən İran sərhədinədək dəmir və magistral yolları əlaqəmiz var. Çatışmayan hissə İran ərazisindədir. Onlar təxminən 150 kilometrlik və ya daha çox hissəni tikməlidirlər. Lakin bu, müəyyən vaxt aparacaq, bəlkə də bir neçə il. Bəs, Şimalla Cənub arasındakı əlaqələr necə qurulacaq? Zəngəzurdan keçə bilər. Xəritəni göz önünə gətirsəniz, həmin yol Şimali Avropadan Rusiyaya, Azərbaycana, sonra Azərbaycandan Zəngəzura gedə, Naxçıvana daxil ola, - və oradan isə bizim İranla dəmir yolu əlaqəmiz var, - və onunla Fars körfəzinə çıxmaq olar. Deməli, əslində, Zəngəzur dəhlizi təkcə Şərq-Qərb deyil, həm də Şimal-Cənub nəqliyyat dəhlizi olacaq. Deməli, Rusiyadan Azərbaycana, İrana gedən Şimal-Cənub marşrutundan əlavə, bizim digər marşrutumuz da olacaq - Rusiyadan Azərbaycana, Ermənistana, Naxçıvana və İrana. Beləliklə, düşünürəm ki, bütün region üçün hamının udacağı vəziyyət yaranacaq və heç kim bundan itirməyəcək”.

Sonda onu da bildirək ki, Prezident İlham Əliyev “Əl-Ərəbiyyə” telekanalına müsahibəsində İran hökumətinin regional düzənin bütün parametrləri barədə məlumatlı olduğunu və mahiyyəti başa düşdüyünü, həmçinin, Azərbaycanın bölgə ölkələri arasında regional əməkdaşlığı gücləndirmək üçün hər şeyi edəcəyini vurğulamışdı. Dövlətimizin başçısı, eyni zamanda, onu da demişdi ki, “biz siyasətimizi İran xalqı tərəfindən seçilən və öz vəzifəsini yerinə yetirmək səlahiyyətinə malik olan, yəni, Prezident kimi siyasətçilərə əsasən qururuq. Hazırda müşavir kimi adlandırılan bəzi keçmiş rəsmilər tərəfindən müəyyən fikirlər səsləndirilmişdir. Nə məsləhətlər verirlər, bilmirəm”.

Açığı, M.Sobhaninin də nə üçün, hansı məqsədlə danışdığını anlamaq olmur. Ola bilər, səfirlik missiyası başa çatdıqdan sonra keçmiş rəsmi, indiki müşavirlərin yanında qovluqdaşıyan kimi fəaliyyət göstərməkdə maraqlıdır. Əgər belədirsə, sırf humanistlik nöqteyi-nəzərdən adamın növbəti əndərəbadi fikirlərinə dözə bilərik. Sobhani də gələcəkdə haradasa çalışmalı, özünü dolandırmalıdır, ya yox? Tərslikdən, İranda da içki qadağandır.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Revanşistlər özləri deyib, özləri də eşidirlər

**(əvvəli 1-ci səhifədə)**

Gözlənildiyi kimi qanun layihəsi bütün fəaliyyətləri boyunca “hayreniq”, “joxovurd”, “azatutyun”, “miatsum” (müvafiq olaraq erməni dilində “vətən”, “xalq”, “azadlıq” və “birləşmə” deməkdir–S.H.) kimi sözlər yazılmış şüarları əllərində bayraq, dillərində əzbər edən, əslində isə öz şəxsi mənfəətlərini düşünən, xalqı adam yerinə qoymayan, onun qanını zəli kimi içən radikal revanşist müxalifət tərəfindən irəli sürülüb.

Cinayət Məcəlləsinə dəyişikliklər haqqında qanun layihəsinin müzakirəsi zamanı radikalların cəmləşdiyi “Hayastan” müxalifət blokunun parlament fraksiyasının katibi Artsvik Minasyan bildirib ki, mövcud qanunvericiliyə görə, “soyqırımı”nın inkarı o halda cinayət sayılır ki, əməl irqi və etnik mənsubiyyətinə görə, nifrət hissini qızışdırmaq və ya zorakılıq salmaq məqsədi ilə törədilmiş olsun. “Bir çox hallar var ki, insanlar “soyqırımı faktını” inkar edərək, dolayısı ilə bu cinayət əməlini aşağılamağa, hətta qurbanı təqsirkar kimi təqdim etməyə çalışırlar. Lakin təəssüf ki, mövcud qanunvericilik belə şəxslərin məsuliyyətə cəlb olunmasını təmin etmir”, – deyə Minasyan bildirib.

O xatırladıb ki, Ermənistanın Müstəqillik Bəyannaməsi “erməni soyqırımı”nın beynəlxalq səviyyədə tanınmasını dəstəkləmək öhdəliyini təsbit edir. Deputatın sözlərinə görə, bu düzəlişlər milli kimliyin və dövlətçiliyin qorunması maraqlarından çıxış edilərək hazırlanıb.

Layihəyə əsasən, “erməni soyqırımı”nı inkar etmək, yüngülləşdirmək, razılaşmaq və ya haqq qazandırmaq, yaxud buna bənzər cinayətlər cərimə, ictimai işlər və ya 4 ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılmalıdır. Əgər əməl irqi, milli və ya dini mənsubiyyətinə görə nifrət, ayrı-seçkilik və ya zorakılıq salmaq məqsədi ilə törədilmişdirsə, 4 ildən 8 ilədək müddətə azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulur. Amma əməl kütləvi informasiya vasitələrindən, informasiya texnologiyalarından və ya vəzifə səlahiyyətlərindən istifadə etməklə törədildikdə, daha ağır cəza – 5 ilədək müəyyən vəzifə tutma hüququndan məhrum edilməklə 10 ildən 15 ilədək müddətə azadlıqdan məhrum etmə cəzası tətbiq olunacaq. Kifayət qədər uzun və emosional müzakirələrdən sonra sözügedən qanunvericilik təşəbbüsü parlamentin daimi komissiyasından mənfi rəy alıb. Hakim “Mülki müqavilə” partiyasının deputatları layihəyə qarşı çıxıblar.

***

Ermənistan parlamentində qondarma “erməni soyqırımı”nın inkarına görə cinayət məsuliyyəti nəzərdə tutan qanun layihəsinin dəstəklənməməsi, ölkənin daxili siyasi həyatında və beynəlxalq münasibətlərində əhəmiyyətli hadisə kimi qiymətləndirilə bilər. Bu məsələ təkcə hüquqi müstəviyə aid deyil, həm də ictimai-siyasi yönləri ilə diqqət çəkir. Çünki “soyqırımı” mövzusu Ermənistanın dövlət siyasətində uzun illərdir xüsusi yer tutur, müxtəlif hakimiyyətlər bu məsələni daxili konsolidasiya vasitəsi, həmçinin xarici arenada siyasi təzyiq aləti kimi istifadə ediblər.

Layihənin irəli sürülməsi revanşist müxalifətin təşəbbüsü idi. Onlar hər zamankı kimi pafoslu şüarlarla çıxış edərək “milli kimlik”, “dövlətçilik” və “tarixi yaddaş” məsələlərini qabardırlar. Lakin reallıqda təşəbbüsün əsas məqsədinin Ermənistan cəmiyyətində radikal mövqeləri gücləndirmək və hakimiyyət üzərində əlavə təzyiq mexanizmi formalaşdırmaq olduğu aydın görünürdü. Qanun layihəsini irəli sürənlər ictimai emosiyalarla oynamağa çalışsalar da, bunun həm hüquqi, həm də siyasi baxımdan çoxsaylı problemlər doğuracağı məlum idi. Əvvəla, beynəlxalq praktikada söz və fikir azadlığı fundamental hüquqlardan hesab olunur. Ermənistan Konstitusiyası da bu prinsipi təsbit edir. Bu baxımdan, hətta bəzi hallarda “soyqırımı” mövzusunun inkarına görə cəzaların tətbiqi Avropa İnsan Hüquqları Məhkəməsində problemli məsələyə çevrilə bilərdi. Avropa Məhkəməsinin presedentləri göstərir ki, bu tip məhdudiyyətlər yalnız nifrət çağırışı və ya zorakılığa təhrik hallarında əsaslı sayılır. Parlamentin komissiyası da məhz bu arqumentlərə əsaslanaraq layihəni rədd edib.

Digər tərəfdən layihənin qəbul edilməsi Ermənistanın beynəlxalq imicinə də mənfi təsir göstərəcəkdi. Əgər belə bir qanun qəbul edilmiş olsaydı, bu, Ermənistanın həm Aİ ilə münasibətlərinə, həm də Avropa Şurası çərçivəsində mövqelərinə ciddi zərbə vuracaqdı. Hakimiyyətin bu riskləri nəzərə alaraq layihəyə qarşı çıxması əslində, praqmatik yanaşma idi.

Bununla yanaşı, parlamentdə aparılan müzakirələr cəmiyyətdəki dərin ziddiyyətləri də bir daha üzə çıxardı. Ermənistan siyasi mühitində radikal müxalifət hər zaman tarixi-milli, bir sözlə həssas mövzular üzərindən xal toplamağa çalışıb. Onların arqumentləri əsasən emosiyalara söykənir, hüquqi və siyasi reallıqlara isə çox az dərəcədə əsaslanır. Hakim partiya isə öz mövqeyində daha çox hüquqi məntiqə, beynəlxalq öhdəliklərə və siyasi məqsədəuyğunluğa üstünlük verdi. Bu qarşıdurma bir daha göstərdi ki, Ermənistanda tarixi mövzular üzərində qurulan siyasət milli maraqlardan çox siyasi intriqalara xidmət edir.

Diqqətçəkən məqamlardan biri də odur ki, layihə qəbul edilsəydi onun praktikada tətbiqi çoxlu suallar doğuracaqdı. Məsələn, hansı ifadə konkret olaraq “soyqırımı”nın inkarı, hansı isə sadəcə alternativ baxış sayılacaq? Akademik müzakirələr və ya tarixi araşdırmalar bu qanunun hədəfinə düşəcəkdimi? Hətta, bəzi erməni hüquqşünasları da açıq şəkildə bildirirdilər ki, belə bir qanunun tətbiqi real həyatda qeyri-müəyyənlik yaradacaq və məhkəmələrdə siyasi sifarişli işlərin artmasına səbəb olacaq.

Nəticə etibarilə Ermənistan parlamentində qanun layihəsinin dəstəklənməməsi müəyyən mənada rasional qərar kimi görünür. Bu addım ölkənin həm daxili hüquq sistemində, həm də beynəlxalq münasibətlərdə əlavə gərginliyin yaranmasının qarşısını aldı. Amma eyni zamanda, müxalifətin əlində hakimiyyəti tənqid etmək üçün yeni bir mövzu formalaşdı. Güman etmək olar ki, onlar bu qərarı “tarixi yaddaşa xəyanət” kimi təqdim edərək siyasi dividend qazanmağa çalışacaqlar.

Görünən odur ki, “soyqırımı” mövzusu Ermənistanda hələ uzun illər siyasi gündəmdə qalacaq. Müxalifət bundan populist şüarlar üçün istifadə etməyə davam edəcək, hakimiyyət isə beynəlxalq öhdəlikləri və praqmatik maraqları əsas gətirərək balanslı mövqe sərgiləyəcək. Bu isə ölkədə daxili gərginliyi azaldan deyil, əksinə, daha da artıran bir faktor olaraq qalacaq. Beləliklə, parlamentin son qərarı həm hüquqi baxımdan düzgün, həm də siyasi baxımdan məqsədəuyğun sayılsa da, Ermənistan cəmiyyətindəki köhnə ziddiyyətləri daha da üzə çıxardı. Tarix bir daha göstərdi ki, emosiyalar üzərində qurulan siyasət uzunmüddətli nəticələr vermir. Ermənistan isə hələ də bu labirintdən çıxa bilmir.

***Səxavət HƏMİD***
***XQ***

# Özəl bölmədə ideyalar biznesə çevrilir

## *Startap ekosistemində reallıqlar və imkanlar*




**Azərbaycanın yeni inkişaf mərhələsində startap ekosistemi xüsusi əhəmiyyət kəsb edir. Çünki startap ölkənin gələcəyini formalaşdıracaq innovasiya laboratoriyasıdır. Hazırda dövlətin bu sahəyə diqqəti artır, dəstək mexanizmləri gücləndirilir.**

Burada əsas yük maliyyə dəstəyi, investisiya imkanları və vençur fondlarının yaradılması üzərinə düşür. Dünya təcrübəsi göstərir ki, hər bir uğurlu startapın arxasında güclü bir ekosistem dayanır. Azərbaycanda da gənclərin ideyalarının biznesə çevrilməsi, texnoloji inkişafın sürətlənməsi, yeni iş yerlərinin açılması məhz belə bir dəstəklə müşayiət olunur. Dövlətin diqqəti ilə yanaşı, özəl sektorun da təşəbbüskarlığı, risklərə hazır investorların olması vacibdir.

Bu sahədə də yeni yanaşmaların doğru ünvana yönləndirilməsi vacib həlqələrdən hesab olunur. İdeya və fikirlərə paralel olaraq potensiallı startapın hədəfə nail olması amili də diqqət saxlanılmalıdır. Azərbaycanda startap ekosisteminin inkişafı naminə hüquqi tənzimləmələr mövcuddur. Məsələn, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2021-ci il 29 yanvar tarixli Qərarı ilə təsdiq edilmiş “Startapın müəyyən olunması Meyarları” “Startap” şəhadətnaməsinin verilməsini tənzimləyir. “Startap” şəhadətnaməsini əldə etmiş sahibkarlıq subyektləri Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və gəlir vergisindən üç il müddətinə azad edilirlər. Sözügedən vergi güzəştləri startapların maliyyə yükünü azaltmaqla, onların resurslarını layihənin inkişafına yönəltməyə imkan verir.

Startaplar dövrün nəbzini tutmağı bacarır, dəyişən reallıqlara uyğunlaşır, texnologiyanın diktə etdiyi çağırışlara çevik cavab verirlər. Lakin, uğurun əsas şərti təkcə bazara çıxmaq deyil, həm də innovasiyaların daha da intensivləşməsidir. Bu isə yeni biliklərə, yaradıcı düşüncəyə malik gənc kadrların prosesə qoşulmasını tələb edir. Digər tərəfdən, ideyanın icrası, praktik müstəviyə keçməsi üçün dəstəkləyici mühit formalaşdırılmalıdır. Startapların uğur yolunu genişləndirən də məhz bu yanaşmadır – istedadlı gənclərin cəlbi, onların ideyalarının dəstəklənməsi və davamlı ekosistemin qurulması. Bəs onların qarşısında hansı avantajlar və ya çətinliklər var ?

Məsələ ilə bağlı Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) XQ-ya bildirdi ki, indiyədək KOBİA tərəfindən 220 mikro və kiçik sahibkarlıq subyektinə “Startap” şəhadətnaməsi verilib. Orta hesabla daxil olmuş müraciətlərin hər 3-dən 1-i Ekspertlər Şurası tərəfindən müsbət qiymətləndirilib: “Təcrübə göstərir startaplarımız yerli və beynəlxalq trendləri yaxından izləyir və onlara uyğun layihələr təqdim edirlər. Məsələn, 2024-cü ildə ölkəmizdə keçirilmiş COP29 tədbiri çərçivəsində “Startap” şəhadətnaməsi almaq üçün KOBİA-ya müraciət etmiş startapların təqdim etdiyi layihələr arasında ekoloji sahədə yeni enerji qoruyucu texnologiyalara və yaşıl iqtisadiyyata keçidə yönəlmiş layihələrin sayı 4 dəfə çox olub.

Digər tərəfdən, startapın uğur qazanmasında bir sıra ciddi çətinliklər də mövcuddur. Belə ki, aqrotexnoloji həllər kənd təsərrüfatında məhsuldarlığı artırır, amma fermerlər arasında rəqəmsal savadlılığın zəifliyi çətinlik törədir. Fintek startapları innovativ ödəniş və kredit həlləri ilə bazarda yer tutur, ancaq onların böyüməsi bir qədər ləng gedir. Ümumi çətinlik kimi isə maliyyəyə çıxış, xüsusilə də ilkin mərhələdə sərmayə imkanlarının məhdudluğunu qeyd etmək olar.

Bazarın tələblərinin öyrənilməsi, düzgün strategiyaların qurulması və komanda işinin səmərəli təşkili də önəmlidir. Əgər bilik bazası möhkəmləndirilərsə, startapların uğur potensialı daha da artacaq və onların ölkə iqtisadiyyatındakı rolu daha da güclənəcək

***Nurlan ABDALOV***
***XQ***

**Ekspert rəyi**



**Fərid KAZIMOV,**
**“Azərbaycan İnnovasiyaların İxracı Konsorsiumu”nun icraçı direktoru**

Azərbaycanda startap ekosisteminin əsas problemlərindən biri bazarı tam anlamamaqdan qaynaqlanır. Ona görə də sahibkarların və startapların bu istiqamətdə biliklərini artırması vacibdir. Əgər onlar bazarı tam anlaya bilsələr, müştərilərin gözləntilərini düzgün dəyərləndirsələr və məhsulların inkişaf strategiyasını qura bilsələr, uğur ehtimalları əhəmiyyətli dərəcədə artacaqdır. Uğursuzluq ehtimalını azaltmaq üçün bir neçə vacib məsələ önə çıxır. Əldə olunan biliklər bazara və məhsula yönümlü olmalı, sahibkar bazarı tam öyrənməlidir ki, hansı məhsulun tələb olunduğunu düzgün müəyyənləşdirsin.

İkinci mühüm məsələ startap komandalarının formalaşmasıdır. Təəssüf ki, çox hallarda komandalar ya yalnız proqramçılardan, ya da marketinq mütəxəssislərindən ibarət olur. Belə disbalans isə uğursuzluq riskini artırır. Çünki komandanın kompetensiyaları müxtəlif istiqamətləri əhatə etmədikdə, bazarda rəqabətə davam gətirmək çətinləşir. Üçüncü məsələ maliyyə dəstəyidir.

Qlobal təcrübə göstərir ki, güclü maliyyə dəstəyi startapların inkişafında həlledici rol oynayır. Məsələn, İsrail bir neçə il əvvəl özünü “Startup Nation” – yəni “Startap Milləti” adlandırırdı. Ölkədə yüzlərlə, hətta minlərlə startap yaranırdı. Daha sonra onlar bu mərhələni geridə qoyaraq "Scale-up Nation" – yəni “Böyüyən Millət” mərhələsinə keçdilər. Bu o demək idi ki, artıq uğurlu və dayanıqlı startapların məhsulları qlobal bazara ixrac olunmağa başladı. İsrailin yüksək texnologiyalı məhsullarının illik ixracı 50 milyard ABŞ dollarına çatdı.

Azərbaycan da bu təcrübədən faydalanaraq öz startap ekosistemini inkişaf etdirməli, bilik bazasını gücləndirməli və dünya bazarına çıxış imkanlarını artırmalıdır.

**Ekspert rəyi**



**Elman SADIQOV,**
**iqtisadçı-ekspert**

Bütün dünyada startapların, təxminən, 95 faizi uğursuzluğa düçar olur, yalnız 5 faizi müvəffəqiyyət qazanır. Lakin məhz həmin 5 faiz milyardlarla gəlir gətirə bilir. Qalan 95 faizə xərclənən vəsait də çox vaxt bu uğurlu 5 faizdən əldə edilən qazanc hesabına bağlanır. Digər tərəfdən, müəyyən startaplar var ki, artıq bazarda mövcudluğunu sübut edib, çiçəklənib, lakin onların daha geniş bazarlara çıxarılması, güclü və iri investorların tapılması, fəaliyyətlərinin genişləndirilməsi zəruridir. Bu, ən azı, regional bazarlara, məsələn, Orta Asiyaya, Türkiyəyə və digər ölkələrə çıxışla həyata keçirilə bilər. Amma burada da peşəkar maliyyələşdirmə və kadr çatışmazlığı özünü göstərir. Əslində, düzgün yanaşma bank sektoru üçün də uğurlu nəticələr verə bilərdi.

Kadr çatışmazlığı IT sahəsində daha qabarıq hiss olunur. Bu, ayrıca müzakirə olunmalı bir məsələdir. Azərbaycanda isə təəssüf ki, bu sahə bəzən klassik düşüncəli şəxslər – istər dövlət strukturlarında, istərsə də digər sahələrdə olan şəxslər tərəfindən tam şəkildə dərk olunmur. Nəticədə, startap sahəsində çalışan insanlara klassik və standart yanaşmalar tətbiq edilir. Misal üçün, lazımsız imtahanların keçirilməsi, müxtəlif bürokratik manеələrin yaradılması, tədris mərhələsində çətinliklər onların inkişafına əngəl törədir. Bu səbəbdən də gənclərin bir qismi xarici ölkələrə üz tutur və ya tədrisdən kənarda qalır. Məhz belə problemlərin həlli uğur nisbətini əhəmiyyətli dərəcədə dəyişə bilər.

# “Şahdəniz kompressiya” layihəsi gerçəkləşdirilir

**Bu ilin 4-cü rübündə “Şahdəniz kompressiya” (ŞDK) layihəsi çərçivəsində platformanın üst modullarının tikintisinə başlanılacaq. Bu məqsədlə Şahdəniz konsorsimu ilə “Azfen” şirkəti arasında 321 milyon dollar dəyərində müqavilə imzalanıb.**



“BP-Azərbaycan” şirkətinin məlumatına görə, üst modulların tikintisi müqaviləsi bu ilin iyun ayında ŞDK layihəsi üzrə qəbul edilmiş yekun investisiya qərarından sonra layihənin icrası üçün əsas işlərin başlandığını bildirən mühüm bir addımdır. Müqavilənin iş həcminə ŞDK platforması üçün 8 min 500 tonluq üst modullar blokunun inşası, montajı, quraşdırılması və inteqrasiyası daxildir. Tikinti işləri ölkə daxilində yerli infrastruktur və resurslardan istifadə etməklə “Azfen”in Bayıldakı tikinti-quraşdırma sahəsində həyata keçiriləcək. Üst modulların tikintisi işlərinin 2028-ci ilin sonuna başa çatacağı planlaşdırılır. Bu işlərə 90 faizdən çoxu yerli mütəxəssislər olmaqla 3 mindən artıq işçi qüvvəsi cəlb olunacaq.

İmzalanma mərasimində BP-nin layihələr üzrə baş vitse-prezidenti Yuan Drammond deyib: Düşünürük ki, “Şahdəniz kompressiya” layihəsindəki bu irəliləyiş konsorsium iştirakçıları və ümumilikdə, ölkə üçün mühüm bir hadisədir. Bu uğur layihədə çalışan komandalarımızın əzmkarlığını, yerli tərəfdaşlıqlarımızın gücünü və layihəni əməyin təhlükəsizliyi, keyfiyyət və kapital səmərəliliyi baxımından ən yüksək standartlara uyğun həyata keçirmək öhdəliyimizi bir daha vurğulayır.”

Müqavilənin “Azfen” şirkətinə verilməsinə gəldikdə isə “BP-Azərbaycan”dan bildirdilər ki, bu, şirkətin təsdiqlənmiş təcrübəsi, o cümlədən Azərbaycanda dəniz platformaları üçün üst modulların tikintisi üzrə əvvəlki layihələrdəki uğurlu iş icrasına əsaslanır. Şirkətin Bayıldakı tam modernləşdirilmiş, dünya səviyyəli tikinti-quraşdırma sahəsi üst modulların inşadan sonra quruda inteqrasiyası və bütövlükdə, barja yüklənməsi üçün bütün lazımi imkanları təmin edir. Bu, “Şahdəniz kompressiya” layihəsinin qrafikə uyğun və büdcə daxilində icra olunması üçün əsas amildir.

Xatırladaq ki, Xəzərin Azərbaycan sektorunda yerləşən “Şahdəniz” yatağının işlənməsinin növbəti mərhələsi olan 2,9 milyard dollarlıq ŞDK layihəsində məqsəd yataqdakı aşağı təzyiqli qaz ehtiyatlarını əlçatan etməklə onların hasilatını reallaşdırmaq və beləliklə, buradan maksimum qazvermə əmsalına nail olmaqdır. Layihənin “Şahdəniz” yatağından, təxminən, 50 milyard kubmetr əlavə qaz və 25 milyon barelə yaxın əlavə kondensat hasilatına və ixracına imkan yaradacağı gözlənilir.

Layihə çərçivəsində yeni kompressiya obyektinin – elektriklə işləyən, heyətsiz kompressiya platformasının (və ya əsasən heyətsiz qurğu) inşası nəzərdə tutulur. Platforma suyun 85 metr dərinliyində, mövcud “Şahdəniz-Bravo” platformasından, təxminən, 3 kilometr məsafədə quraşdırılacaq. Üzərində 4 ədəd 11 meqavatlıq kompressor quraşdırılacaq ŞDK platforması həm “Şahdəniz-Alfa”, həm də “Şahdəniz-Bravo” platformalarından hasil edilən qazın kompressiyası üçün ana qurğu kimi xidmət göstərəcək.

Bu o deməkdir ki, hər iki platformadan hasil edilən ixrac qazı qurudakı Səngəçal terminalına göndərilməzdən əvvəl platformada kompressiya olunacaq. Bundan əlavə, “Şahdəniz” müqavilə sahəsində quraşdırılacaq bir sıra əlaqədar obyektləri, hasilat platformaları və Səngəçal terminalında mövcud infrastruktur üzərində aparılacaq bir sıra işləri də əhatə edir.

Nəhəng kompressiya qurğusunun istismara verilməsi 2029-cu ildə “Şahdəniz-Alfa”, bir il sonra isə “Şahdəniz-Bravo” platformalarından hasil edilən qaz həcmlərini kompressiya etmək üçün qəbul etməyə hazır olacaq. Bir məqamı da qeyd edək ki, Şahdəniz kompressiya platforması tam olaraq elektrik enerjisi ilə çalışacaq. Bu da əməliyyatlar zamanı karbon emissiyasının yaranmaması deməkdir.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Tərsanədə “yaşıl” enerji istehsalı

**Son illər “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti (ASCO) dekorbanizasiya istiqamətində mühüm tədbirlər həyata keçirir. Bu məqsədlə yeni gəmilər alınır, mövcud gəmilər əsaslı şəkildə təmir olunur, köhnələr isə istismardan çıxarılır. Məhz həmin tədbirlərin nəticəsidir ki, son 10-12 il ərzində ASCO emissiyaların 20 faiz azaldılmasına nail olub.**



Bütün bunlarla yanaşı, qurum karbon emissiyalarının azaldılması strategiyasına uyğun olaraq bərpaolunan enerji istehsalının artırılması üçün də konkret işlər görür. Məlum olduğu kimi, ötən ilin oktyabrında “Bibiheybət” Gəmi Təmiri Zavodunun 512 kvadratmetr ərazisində hər biri 690 Vt gücündə olan 162 ədəd günəş paneli quraşdırılaraq istismara verilib. ASCO-dan verilən məlumata görə, ötən müddətdə həmin panellər vasitəsilə 112 min 82 kilovat-saat “təmiz” enerji hasil olunub. Ayrı-ayrı günlərdə isə enerji hasilatı 700-800 kilovat-saat səviyyəsinə yaxınlaşıb.

Hesablamalara əsasən ötən müddətdə təxminən 80 tona yaxın karbon qazı emissiyasının qarşısı alınıb ki, bu da ekoloji baxımdan təxminən 6 min 100 ağacın qorunmasına bərabər fayda deməkdir. Eyni zamanda müəssisədə 43,9 ton daş kömürə qənaət olunub. Bu isə enerji hasilatında fosil (qalıq) yanacaqlardan istifadənin azalmasını göstərir.

***XQ***

# Azərbaycan İstanbul ərzaq sərgisində



**Türkiyənin İstanbul şəhərindəki “TÜYAP Sərgi və Konqres Mərkəzi”ndə “WorldFood Istanbul 2025” 33-cü beynəlxalq qida məhsulları və texnologiyaları sərgisi öz işini davam etdirir. Sərgidə Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) dəstəyi ilə Azərbaycan şirkətləri də məhsul və xidmətlərini təqdim edirlər.**

KOBİA-nın təşkil etdiyi vahid ölkə stendində Azərbaycanın bal, quru meyvə və çərəzlər, şirniyyat məmulatları, yağlar, meyvə-tərəvəz əzmələri və s. qida məhsulları nümayiş olunur, onların hazırlanması texnologiyaları barədə sərgi ziyarətçilərinə məlumat verilir. Stenddə Azərbaycan brendi olan və dünyanın aparıcı beynəlxalq tədbirləri sırasında yer alan Azərbaycan Beynəlxalq Qida Sənayesi Sərgisi – “InterFood Azerbaijan” da təmsil olunur. Bununla yanaşı, “Caspian Event Organisers”in təşkilatçılığı, “Caspian Event Management” və “ICA Events”in tərəfdaşlığı ilə 5-8 may 2026-cı ildə keçiriləcək növbəti “InterFood Azerbaijan” sərgisinin imkanları və potensial iştirakçılar üçün əməkdaşlıq istiqamətləri barədə stenddə məlumat verilir.

KOBİA tərəfindən Azərbaycanın əlverişli biznes və investisiya mühitinin təşviqi məqsədilə ölkəmizdə sahibkarların dəstəklənməsi üçün mövcud alətlər, o cümlədən qurumun təmin etdiyi dəstəklər, biznes üçün imkanlar barədə məlumat verilir, müxtəlif çap məhsulları təqdim edilir. Sərgi çərçivəsində Azərbaycan sahibkarlarının müxtəlif ölkələrdən olan iş adamları ilə görüşlər keçirməsi, yeni əməkdaşlıq və ixrac imkanlarına dair müzakirələr aparması üçün vahid ölkə stendində lazımi şərait yaradılıb.

Qeyd edək ki, hər il keçirilən “WorldFood Istanbul” sərgisi regionun nüfuzlu beynəlxalq qida sərgilərindəndir. Bu il sərgi 100-ə yaxın ölkədən 900-dən çox şirkəti bir araya gətirib. Sərgi bu gün öz işini başa çatdıracaq.

***XQ***

# Ərzaq alışında qənaət

**2025-ci ilin birinci yarısında Azərbaycanda dövlət sifarişi ilə 57 milyon 678 min manat dəyərində ərzaq məhsulları alınıb. Bununla da hesabat dövründə dövlət vəsaitinə 3,2 faiz qənaət edilib.**



Kənd Təsərrüfatı Nazirliyinin məlumatına əsasən yanvar-iyun aylarında ərzaq məhsullarını 117 satınalan təşkilat elektron portal vasitəsilə müqavilə bağladığı 97 istehsalçı və satıcıdan 203 növdə olmaqla alıb.

Qeyd edək ki, dövlət sifarişi ilə ərzaq məhsullarının satın alınmasını mərkəzləşdirilmiş qaydada nazirliyə məxsus “Aqrar Tədarük və Təchizat” Açıq Səhmdar Cəmiyyəti həyata keçirir.

***XQ***

*Sumqayıt Azərbaycanın “Gənclər paytaxtı”dır*

# Ruhu cavan, şövqü rəvan Sumqayıt!

**2025-ci ildə Sumqayıt Azərbaycanın “Gənclər paytaxtı” elan edilib. Fevralın 2-də - Azərbaycan Gəncləri Günündə gənclik şəhərində bu layihənin təqdimatı olub. Gənclər və idman naziri Fərid Qayıbov “Gənclər Paytaxtı”nın rəmzi açarını Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcova təqdim edib.**



Nazir Fərid Qayıbov Ulu Öndərin gənclərə böyük qayğı və diqqət göstərdiyini, gənclərin Azərbaycanın dünyada tanınmasında böyük rol oynadığını bildirib. Qeyd edilib ki, Azərbaycanda 400-ə yaxın gənclər təşkilatı var və ölkənin gələcəyi onların əlindədir. Sumqayıtda il ərzində müxtəlif yerli və beynəlxalq tədbirlərin uğurla keçiriləcəyinə inam ifadə olunub, Prezident mükafatına layiq görülmüş gənclər təltif edilib.

...Doğulub boya-başa çatdığım bu şəhəri ağlım kəsəndən “könlümün paytaxtı” saymışam. Gözlərimin önündə böyüyüb-gözəlləşib. Geniş küçə və meydanları, yaraşıqlı park və meydanları, mehriban insanları, başlıcası isə dəyişməz gənclik ruhu bu doğma şəhərin hər zaman sevə-sevə vəsf etdiyim fərqli cəhətləri, üstün keyfiyyətləri olub. Ötən il Sumqayıtın 75 yaşı qeyd edildi, amma qədim tarixi olan şəhərlərlə müqayisədə bu rəqəm elə gənclik yaşı deyilmi? Təsadüfi deyil ki, bu gün də Sumqayıt yarım əsr əvvəlki kimi, “gənclik şəhəri” adlanır. Bu yerdə Nəbi Xəzrinin məşhur misralarını xatırlamamaq olmur:

**Sumqayıt cavandır, cavandan cavan,**
**Taleyi, arzusu nura boyanmış.**
**Sumqayıt oxuyur göylərə meydan,**
**Ayağı torpaqda möhkəm dayanmış!**

Elə “ayağı torpaqda möhkəm dayanmış” misrası özlüyündə Sumqayıtın gənc və qüvvətli, qüdrətli olduğuna işarədir. Çoxillik müşahidələrimə söykənən qəti qənaətimə görə, elə bir sumqayıtlı tapa bilməzsiniz ki, unudulmaz Xalq şairimizin “Sumqayıt səhifələri” poemasından misal gətirdiyim bu bir bəndlik sevgi etirafını əzbər bilməsin.

Bunu da deməmək insafsızlıq olar ki, sözləri Nəsib Cəfəroğluna, musiqisi Səid Rüstəmova aid olan çox populyar marş-mahnını da hər bir sumqayıtlı az qala bütün sözlərinə qədər bilir.











**Nə gözəl şəhərdir, xoşdur baxışı,**
**Bakıya qardaşdır, durub yanaşı.**
**Şöhrəti, qüdrəti dillərdə dastan,**
**Onunla fəxr edir mərd Azərbaycan...**

Bax, elə gəncliyə xas olan bu poetik-musiqili ovqatla Sumqayıt haqqında, bilmirəm, neçə yüzüncü məqaləmi yazmaq istəyirəm. Səbəb də yuxarıda qeyd etdiyim kimi, doğma şəhərimin Azərbaycanın “Gənclər paytaxtı” olaraq, bu gün hansı şövq və vüsətlə yaşadığına nəzər salmaqdır.



## İşgüzar təəssübkeşlik

Sumqayıtlı dostlarımla söhbətlərimdə dönə-dönə təsdiqlənib ki, gənclik şəhərinin tərəqqisini ilk növbədə möhtərəm Prezidentimiz İlham Əliyevin daimi diqqət və qayğısı şərtləndirirsə, digər amillər sırasında sakinlərin bu məkana özəl və sırf təəssübkeş sevgisi öncül mövqe tutur. Son 10 ildə Sumqayıta məhz bu şəhərin yetirməsi olan, zavodda adi fəhləlikdən icra başçılığına qədər yüksələn bir kadrın rəhbərlik etməsi də az önəm daşımır. Şəhərin durmadan gözəlləşdirilməsi, şəhər infrastrukturunun müasirləşdirilməsi Zakir Fərəcovun və “komanda”sının gündəlik zəruri qayğısıdır. Son illərdə burada möcüzəli park-bulvar kompleksinin yaradılması, Heydər Əliyev Parkının tamamilə yenidən qurulması, şəhərdə yaşıllıqların artırılması, küçə və məhəllələrin ideal təmizliyinin daimi nəzarətdə saxlanması, qaynar mədəni mühitin bərqərar olması bunun əyani sübutudur. Bu sıraya Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunun müasirləşdirilməsini və ardıcıl olaraq beynəlxalq yarışların keçirilməsini, Nizami Kinoteatrının açılmasını, gənclər üçün güzəştli mənzil layihələrinin tətbiqini, ayrıca Poeziya Evinin təşkilini və s-ni də əlavə etsək, inamla deyə bilərik ki, bu gün Sumqayıt hər halı ilə “Gənclər paytaxtı” adına layiq bir şəhərdir.

Sumqayıt, eyni zamanda qəhrəmanlar şəhəri kimi tanınır. Yaxın vaxtlarda 5 illiyini qeyd etməyə hazırlaşdığımız 44 günlük “Zəfər yürüşü”ndə yüzdən çox sumqayıtlı şəhadətə ucalıb. “Vətən Müharibəsi Qəhrəmanı” adına layiq görülənlərin sırasında doğma torpaq uğrunda canını və qanını əsirgəməyən 6 nəfər Sumqayıt yetirməsi də var. Onlar Milli Qəhrəman olan general Polad Həşimovun ardıcılları Adil İbrahimli, Anar Şükürov, Ramiz Cəfərov, Sübhan Cəbrayılov, Camal İsmayılov və Mehrab Niftəliyevdir. Onu da xatırladaq ki, Birinci Qarabağ müharibəsində isə bu şəhərdən Valeh Müslümov, Qorxmaz Eyvazov, Mətləb Quliyev, Cəlil Səfərov “Milli Qəhrəman” adını qazanıblar. Hərbi hissə komandiri, polkovnik-leytenant Şükür Həmidov 2016-cı ilin Aprel döyüşlərində bu ada layiq görülmüşdü, Vətən müharibəsində şəhid olandan sonra isə “Zəfər” ordeni ilə təltif olunub.

## Könüllülük hərəkatı

**İcra hakimiyyəti aparatının məsul əməkdaşı Eyvaz Qocayev bizimlə söhbətində şəhərdə könüllülük hərəkatının vüsətini xüsusi vurğuladı:**

– Son illərdə Sumqayıtda gənclərin ictimai proseslərdə fəallığı nəzərəçarpacaq dərəcədə artıb. Xüsusilə könüllülük hərəkatının genişləndirilməsi bu baxımdan mühüm rol oynayır. Şəhərdə həyata keçirilən müxtəlif sosial, ekoloji, mədəni və ictimai layihələrdə könüllülərin iştirakı artıq bir ənənəyə çevrilib. İcra hakimiyyətinin dəstəyi ilə müxtəlif dövlət qurumları və ictimai təşkilatlar könüllülərin potensialından səmərəli istifadə edirlər. Bunun nəticəsində könüllülük fəaliyyəti təkcə müvəqqəti bir dəstək yox, həm də gənclərin sosial məsuliyyət və vətəndaşlıq hissinin inkişafı üçün real məktəbə çevrilib.

Ötən aylarda “Gənclər paytaxtı”nda layihə üzrə yaddaqalan tədbirlər keçirilib. Hamısı da kütləviliyi, dinamikliyi ilə diqqət çəkib. Məsələn, Xalq şairlərinin də qatıldığı “Poeziya günü”, “Sumqayıt gənclik marafonu 2025”, Beynəlxalq Velosiped Günü münasibətilə peşəkar və həvəskarın qatıldığı “Gənclərlə veloyürüş”, “Gənclər paytaxtında birlikdə” inklüziv gənclik festivalı xüsusilə cəlbedici olub.

## Hər sahədə öncül

**Abşeron-Xızı Regional Təhsil İdarəsinin Sumqayıt sektorunun müdiri İman Ağayev dedi ki, Sumqayıt gənclərin əsas missiyası olan təhsil sahəsinin uğurları daha çox fərəh doğurur.**

– Uzun illərdir ki, ali məktəblərə qəbulda, beynəlxalq olimpiadalarda bu şəhərin təmsilçiləri ölkə üzrə bayraqdar sayılırlar. Universitetlərə builki qəbul imtahanları da məhsuldar olub. Ali məktəblərə sənəd verən 3916 nəfər məzundan 2786-sı ali məktəblərə qəbul edilib. 194 nəfər 600-dən yuxarı, 68 nəfər 650-dən yuxarı, 23 nəfər 670-dən yuxarı, 11 nəfər isə 680-dən yuxarı bal toplayıb. 11 və 35 nömrəli məkəblərin hər birinin 4 sinfi, 27 nömrəli məktəbin isə 1 sinfinin bütün şagirdləri qəbul imtahanında 100 faiz nəticə göstəriblər. Elə bunun özü də Sumqayıtın “Gənclər paytaxtı” adına layiq olduğunu göstərir.

Sumqayıtda İnnovasiya Mərkəzi də fəaliyyət göstərir. Müasir tələblərə cavab verən bu mərkəz şəhərdə gənclərin innovativ ideyalarının reallaşması, startapların dəstəklənməsi və investorlarla əməkdaşlığın gücləndirilməsi üçün geniş imkanlar təqdim edir. Dünya ölkələrinin gənclər təşkilatları vaxtaşırı Sumqayıta səfər edib qabaqcıl təcrübəni öyrənirlər. Bu günlərdə “Azərbaycan-Mərakeş gənclərinin Mübadilə Proqramı” çərçivəsində Mərakeş Krallığının nümayəndə heyəti ölkəmizdə səfəri çərçivəsində “Gənclər Paytaxtı”na da gəlib. Qonaqlar şəhərdəki Gənclər Evi və tarixi-mədəni abidələrlə tanış olublar.

Sumqayıtda yeniyetmə və gənclərin qatıldığı kütləvi tədbirlər bir qayda olaraq, maraqlı keçir. Məsələn, iyun ayında Vətən müharibəsində əldə edilən Zəfərin 5 illiyinə həsr olunmuş XXVIII “Şahin” hərbi-idman oyununun respublika final mərhələsi keçirilib. 14 komanda sıra hazırlığı, darağa patronların doldurulması və boşaldılması, avtomatın sökülməsi və yığılması, fiziki hazırlıq, maneələrin dəf olunması, tüfəngdən hədəfə atəş açılması, mülki müdafiə hazırlığı, çadırın qurulması və intellektual müsabiqə mərhələlərində güclərini sınayıblar. Sumqayıt şəhər komandası 1-ci yerə layiq görülüb. Bağlanış mərasimində nazir Fərid Qayıbov, şəhər rəhbəri Zakir Fərəcov və Vətən müharibəsi qəhrəmanı Anar Mirzəyev qalibləri təbrik ediblər.

**Daha öncə 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan olunması və Sumqayıt şəhərinin Azərbaycanın Gənclər Paytaxtı seçilməsi münasibətilə Sumqayıt Gənclər Evində “Gənclik və Qadınların Gücü: Hüquqi Dövlət və Suverenlik Uğrunda” mövzusunda ictimai əhəmiyyətli tədbir keçirilib. YAP Sumqayıt təşkilatının gənclərlə iş sektorunun əməkdaşı Elvin Əlizadə həmin tədbirdən danışdı:**

– Həmin tədbir Yeni Azərbaycan Partiyası Sumqayıt şəhər təşkilatı, Gənclər və İdman Nazirliyinin Abşeron-Xızı regional idarəsi və Sumqayıt Gənclər Evinin birgə təşkilatçılığı ilə baş tutdu. Məqsədi gənclərin və qadınların hüquqi dövlət quruculuğunda, eləcə də milli suverenliyin möhkəmləndirilməsindəki rolunu vurğulamaq, onların ictimai fəallığını təşviq etmək idi. İştirakçı gənclər və qadın fəallar arasında canlı fikir mübadiləsi aparıldı, suallar cavablandırıldı və gələcək əməkdaşlıq üçün təkliflər, ideyalar müzakirə edildi. Tədbir motivasiya dolu çağırışlarla yekunlaşdı. Qeyd edim ki, bu cür görüşlərin davamlı keçirilməsi ölkədə gənclərin cəmiyyətin müxtəlif sahələrində daha fəal iştirakına zəmin yaradır.

## İdmançılar fəxri kürsülərdə

“Gənclər Paytaxtı”nın idman nailiyyətləri də yüksəkdir. İlin əvvəlindən bir çox ölkə və beynəlxalq yarışlarda sumqayıtlı atletlər fərqlənə biliblər. Güləşçi Rihad İbrahimov U-17 Avropa çempionatında fəxri kürsünün ən yüksək pilləsinə ucalıb. Fuad Rəhimli (cüdo), Zöhrab Səfərov (yunan-Roma güləşi), Nigar Şəkərəliyeva, Rüqəyya Əliyeva, Eda Ezen (taekvondo), İsmayıl Aslanlı (boks), Qorxmaz Səfərli (karate), Elmira Bayraq (taekvondo) və başqaları da qələbə salnaməsinə qızıl sətirlər yazıblar. İlk yarımilin statistikasına görə, ilin əvvəlindən 24-ü qızıl, 10-u gümüş, 17-i isə bürünc əyarlı 51 medal əldə edilib. Yay aylarında bu kolleksiya daha da zənginləşib.

Əlbəttə, fəxri kürsünün 1-ci pilləsinə qalxan hər bir idmançının şərəfinə onun təmsil etdiyi dövlətin himni səsləndirilir. Bu, elə bir hissdir ki, təltifetmə mərasimini zaldan, teleekrandan izləyən seyrçilər belə duyğulanırlar. Sumqayıtın fəxri – 5 qat dünya, 11 qat Avropa çempionu olan karateçi Rafael Ağayev deyir ki, himnimizin çalınması heç vaxt mənim üçün adi hal olmayıb. Hər dəfə son dərəcə həyəcanlanmış, hətta kövrəlib ağlamışam da... Bu, Avropa və Ümumdünya Karate Federasiyasının prezidenti Antonio Espinozanın “Qara brilliant” adlandırdığı, fəxri kürsülərdə dayanmasının sayı-hesabı bilinməyən bir təcrübəli idmançının etirafıdır. İndi görün, ilk dəfə çempionluğu şərəfinə bütün zalı ayağa qaldıran himnimiz səsləndiriləndə gənc idmançılarımız hansı gözəl hisslər keçirirlər!

“Sumqayıt Gənclər Paytaxtı – 2025” proqramı çərçivəsində Abşeron–Xızı Regional Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunda Beynəlxalq Gənclər Gününə həsr edilmiş “Gənclər Paytaxtında birlikdə!” adlı inklüziv gənclik festivalı keçirilib. Proqram üzrə gənclər üçün müxtəlif fəaliyyətlər, oyunlar, ustad dərsləri və idman yarışları təşkil edilib. Sonda fiziki məhdudiyyətli gənclərin əl işlərindən ibarət sərgi-müsabiqə və bilik yarışı düzənlənib. Qalib gənclər sertifikat və hədiyyələrlə təltif olunublar.

Şəhərdə mədəni həyatın canlanmasına xüsusi diqqət yetirilir və bu istiqamətdə atılan ən mühüm addımlardan biri açıq hava konsertlərinin təşkilidir. Artıq ənənəyə çevrilən bu konsertlər həm sakinlərin, həm də qonaqların maraqla qatıldığı tədbirlər sırasında yer alır. Açıq hava konsertləri Sumqayıtın müxtəlif meydanlarında, parklarında və dənizkənarı bulvar ərazisində keçirilir. Bu tədbirlərdə tanınmış müğənnilərlə yanaşı, yerli gənc ifaçılar da səhnə alır. Beləliklə, həm peşəkar sənətçilərin çıxışı şəhər sakinlərinə bayram əhvali-ruhiyyəsi bəxş edir, həm də gənc istedadların özlərini göstərməsinə imkan yaradır.

Elə avqustun 30-da axşam Sumqayıt Dövlət Dram Teatrının qarşısındakı meydanda Xəzər TV və “Coca-Cola”nın tərəfdaşlığı ilə “Coke Studio Xəzər” adlı möhtəşəm musiqi festivalının şəxsən şahidi oldum. Böyük izdiham vardı, gənclər yaşıdları olan estrada ustalarını həvəslə dinləyib alqışlayır, elə meydandaca musiqi sədaları altında qol qaldırıb süzürdülər.

**Bakı Dövlət Universitetinin tələbəsi Zakir Məmmədlinin bu barədə dedikləri:**

– Konsertlərin açıq məkanda keçirilməsi onların daha geniş auditoriya üçün əlçatan olmasına şərait yaradır. İnsanlar sərbəst şəkildə bu tədbirlərə qoşulur, ailəvi istirahət zamanı musiqidən zövq alır. Bu, Sumqayıtın ictimai-mədəni həyatında həmrəylik, birlik və bayram atmosferi yaradan mühüm ənənə kimi formalaşıb. Elə ötən həftə - Azərbaycan estradasının sevimli simaları, gənc və populyar müğənnilər bir neçə saat ərzində bizə unudulmaz zövq yaşatdılar...

İnanırıq ki, qarşıdakı aylarda “Gənclər paytaxtı”nın daha parlaq səhifələri yazılacaq və əlamətdar il onun tarixində silinməz izlər buraxacaq.

***Əli NƏCƏFXANLI***
***XQ***

*Babaların əmanəti–nəvələrin zəmanəti*

# Milli musiqimiz xalqımızın könül nəğməsidir

## *Onu necə qoruyur, sabaha necə ötürürük?*



**Azərbaycan milli musiqisi ruhumuza qida verir, qəlbimizə min bir duyğu bəxş edir. Muğam bizi daxilən zənginləşdirir, uca məqamlara qovuşdurur.**

Sazın telləri duyğularımızı titrədir, zəkamıza işıq saçır.

İllər keçir, yaş ötür, zaman dəyişir... Bəs milli musiqilərimiz titrəyən tellərin arasından hələ də gələcək nəsillərə işıq tuta bilirmi?

Bəs biz ulularımızın bu zəngin mənəvi sərvətini necə qoruyur, gələcəyə necə ötürürük?

Kütləvi yayım vasitələri milli musiqimizin səsini dünyaya çatdırır, hərdən də bu ahəngi korlayır. Sosial şəbəkələrdə mahnılar qısa, hətta çox zaman mənasız görüntülərlə təqdim olunur. Muğamların ritmi pozulur, sözlərin mənası itir. Balabanın harayı artıq ürəyin ən gizli guşələrinə toxunmur, mizrab tarın simlərinə çarpanda yad səslər qopur, təhrif olunan melodiyalar küyə çevrilir. Sosial şəbəkələrdə yayılan səthi və sürətli paylaşımlar nəinki sənətə, əsrlərin sınağından çıxan dəyərlərimizə də zərbə vurur.

Milli musiqimizin ritmi, mənası yalnız sosial şəbəkələrdə təhrif olunmur. Tarixin hər dönəmində milli musiqimiz müxtəlif təsirlərə məruz qalıb, insanların gündəlik həyat tərzi, zövqləri ilə uyğunlaşdırılıb. Məsələn, mərhum şair Famil Mehdinin "Min hava çalınır könül tarında" misrası ilə başlayan şeiri zaman-zaman bəzi ifaçılar tərəfindən dəyişdirilib. "Fəsillər ötüşür" əvəzinə "görüşür", "yanmaqdır" yerinə "yazmaq" deyilir, "heç zaman" sözləri isə "bir daha" ilə əvəz edilir. Bu dəyişikliklər şeirin incə ahəngini pozub, onun mənasına xələl gətirib. Hər dəyişdirilmiş söz misralarda gizlənən incə çalarla kölgə salıb.

Unutmaq olmaz ki, yüksək zövq, mənəvi saflıq gələcək nəsillərin yetişdirilməsində mühüm rol oynayır. İndi dillərə dastan olan muğam dəstgahları və xalq melodiyaları ilkin versiyada deyil, dəyişdirilir, "trend" adlandırılır, onların ritmi, ahəngi və tamamilə fərqli şəkildə səsləndirilir. Hətta bəzi hallarda milli musiqilərimizin sözləri, melodiyası mənimsənilərək başqa dillərdə və ya başqa ifalarda mənşəyi göstərilmədən təqdim olunur. Bu, açıq-aşkar oğurluqdur.

2020-ci ildə Əqli Mülkiyyət Agentliyi sosial şəbəkələrdə yayılan bir faktı diqqətə çatdırıb. Məlum olub ki, "Küçələrə su səpmişəm" Azərbaycan Xalq mahnısı "YouTube" portalında fars mahnısı kimi təqdim edilib. Xatırladaq ki, XX əsrin əvvəllərindən başlayaraq "Küçələrə su səpmişəm" bir sıra Xalq mahnıları toplularında, eləcə də Üzeyir Hacıbəyli və Müslüm Maqomayevin 1927-ci ildə nəşr olunan "Azərbaycan türk el nəğmələri", Səid Rüstəmovun 1956-cı ildə tərtib etdiyi "Azərbaycan xalq melodiyaları" və Fikrət Əmirovun 1952-ci ildə çap olunan kitablarında yer alıb. Mahnı 1954-cü ildə çəkilmiş "Doğma xalqıma" filmində də səsləndirilib, Rəşid Behbudov isə mahnını 1963-cü ildə yenidən ifa edib.

Milli musiqimizin ecazkarlığını qorumaq yalnız sənətkarların deyil, hər bir vətəndaşın da borcudur. Çünki milli musiqimiz həm də kollektiv yaddaşın canlı kodları, keçmişin aynası, tarixin, mədəniyyətin və ictimai psixologiyanın təcəssümüdür. Təhrif olunmuş melodiyalar və mətn dəyişiklikləri mədəni yaddaşda deformasiya yaradır.

Bəs melodiyaları necə xilas etmək olar? Cavab həm sadə, həm də mürəkkəbdir: diqqət, ehtiram və sevgi ilə. Hər ifaçı musiqinin ritmini, ahəngini və sözlərinin mənasını olduğu kimi çatdırmalı, dinləyicilər isə onu qoruyub saxlamalıdırlar.

Sosial şəbəkələr və süni intellekt texnologiyaları bu prosesdə həm dost, həm də düşmən ola bilər. Amma diqqətlə seçilmiş, xüsusi tərtib olunmuş video və audiomateriallar, düzgün təqdimat musiqiyə ikinci nəfəs verəcək, həm də zamanla yarışan bir əfsanə kimi onu yenidən canlandıracaq. Belə olduğu halda, Azərbaycan musiqisi dünyaya səs salacaq, uzun illər gizlənmiş xəzinə kimi aşkara çıxacaq. "Sarı gəlin"dən muğamın incə titrəyişlərinə, müasir pop və caz ifalarına qədər melodiyalarımız sərhədləri aşaraq müxtəlif qitələrə çatacaq.

Əlbəttə, Azərbaycan musiqisinin dünyada tanınmasında onu əbədiləşdirən sənətkarların böyük rolu var. Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operası milli musiqimizi klassik opera dili ilə tanıdıb. O, əsərlərində xalq melodiyası ilə Avropa musiqi ənənələrini birləşdirib. Qara Qarayev isə Azərbaycan musiqisini modernizm və simfonik təfəkkürlə beynəlxalq arenada məşhurlaşdırıb. Bəstəkarın əsərlərində muğam elementləri Avropa orkestr texnikası ilə sintez olunub.

Bundan əlavə, Fikrət Əmirovun simfonik muğamları dünyanın bir çox nüfuzlu konsert zallarında və festivallarda səsləndirilib, beynəlxalq musiqi ictimaiyyəti tərəfindən böyük maraq və rəğbətlə qarşılanıb. Avropa, Asiya və Amerika ölkələrində müxtəlif orkestr və solistlər tərəfindən ifa olunan əsərlər Azərbaycan melodiyalarının ritmini və harmoniyasını hər kəsə çatdırıb.

Beləliklə, klassik və xalq musiqimizin zəngin mirası həm sənətkarların əsərlərində, həm də gənc ifaçıların sənətində yaşayır. Sosial şəbəkələr və onlayn platformalar isə kütləvi körpü rolunu oynayır. Körpü mötəbər olmalıdır ki, səni mənzilə təhlükəsiz qovuşdursun.

***Fidan ƏLİYEVA***
***XQ***

*Səyavuş Aslan – 90*

# Xatirələrdə yaşayan mənalı gülüş



**Görkəmli teatr və kino xadimi, komik rolların mahir ifaçısı olmuş "Şöhrət" və "Şərəf" ordenli, Xalq artisti Səyavuş Aslan həqiqətən də milli mədəniyyətimizə şöhrət və şərəf gətirmiş sənətkarlardan idi. Yaradıcılığının bütün məhsuldar dövrünü Azərbaycan Dövlət Akademik Musiqili və Akademik Dram teatrlarında keçirmiş unudulmaz aktyor özündən sonrakı nəsil üçün əsl örnək olub.**



Səyavuş Məmmədağa oğlu Aslanov 1935-ci il sentyabr ayının 5-də Bakının Saray kəndində dünyaya göz açıb. İncəsənətə marağı tara könül verməsi ilə başlayıb, 3-cü sinfə qədər "Pionerlər evi"ndə tarzənlik öyrənib. Amma dram dərnəyinə gedən dostu Hacıağa ona səhnə sənətinin özəlliklərindən o qədər danışıb ki, axırda "saqqızını oğurlayıb" və şair demişkən, bir gün Səyavuş "tarı ağuşundan yerə qoyaraq" teatr dərnəyinə üz tutub.

Gələcəyin çox böyük potensiallı aktyoru Ağadadaş Qurbanovun yanında bu sənətin "əlifba"sını öyrənib, sonra bir müddət estrada truppasında və Quba teatrında işləyib. Ağası Məşədibəyovun "Toy kimindir?" tamaşasında Qoşun rolunu uğurla ifa etdiyinə görə "muzkomediya"nın xor solisti olan Səyavuş aktyor heyətinə keçirilib və bundan sonrakı dövrdə məşhur obrazlardan ibarət böyük bir "qoşun" yaradıb. Onun canlandırdığı Bayram, İbişov, Firuzbala, Şubay, Dadaşbala, Qəmzəli, Misir Nəsir, Orduxan bəy rolları indi də xatırlananda çöhrələrdə xoş təbəssüm yaradır, replikaları, atmacaları misal çəkilir.

O, 1963–1969-cu illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunda musiqili komediya aktyorluğu ixtisası üzrə ali təhsil alıb. Dostlarının dediyinə görə, Lütvəli Abdullayev gənc Səyavuşun kumiri olub. Onu lap olduğu kimi təqlid edib. Hətta istedadlı gəncin xətrini çox istəyən tanınmış aktyor hərdən özünü xəstəliyə vururmuş ki, Səyavuş üçün səhnəyə çıxıb özünü göstərmək imkanı yaransın. Fitri istedadlı gənc "Arşın mal alan"dakı Vəli rolunu da bu qaydada, yəni əvəzediciliklə oynayıb. Ardınca parlaq obrazlar qalereyası gəlib. Səyavuş Aslan Azərbaycan Dövlət Akademik Musiqili Teatrında Xalq artistləri Nəsibə Zeynalova, Hacıbaba Bağırov və başqaları ilə çox uğurlu tərəf-müqabili olub.

..."Hicran" tamaşasında kəkələyə-kəkələyə danışan Dadaşbalanı elə gözəl və ustalıqla oynamışdı ki, eyni qüsuru olan bir seyrçi möhkəm incimiş və demişdi ki, insanın fiziki əngəlli olmasını bu dərəcədə məsxərə obyekti etməzlər. İnsani baxımdan doğru irad olsa da, eyni zamanda bu amil Səyavuş Aslanın yüksək sənətkarlıq səviyyəsindən soraq verirdi.

Bu isə rejissor Vaqif Mustafazadənin söylədiklərindəndir: "Deməli, "Bəyin oğurlanması" filminin çəkilişi zamanı toyda Muxtar Maniyev "İsrafil!" deyərək, Siyavuş Aslana möhkəm bir sillə vurur. Onunsa bundan xəbəri yox idi. Hamı çaşıb qalır, amma məharətli aktyor olan Səyavuş Aslan özünü o yerə qoymur, sanki ssenari belə imiş. Elə oynayır ki, sanki belə də olmalıymış və o sillə səhnəsi də epizodun orqanik bir hissəsidir". Onun ekranda canlandırdığı bütün surətlər, beləcə, səmimiliyi və inandırıcılığı ilə seçilərək uğurlu tale yaşayıb.

Görkəmli aktyorun 80 illik yubileyində çıxış edən ovaxtkı mədəniyyət və turizm nazirinin müavini Ədalət Vəliyevin söylədikləri yadımıza düşür: "Səyavuş Aslan unikal şəxsiyyət, unikal sənətkar idi. O, əsl sənətkar kimi heç vaxt unudulmayacaq. Nə qədər ki, Azərbaycan teatrı, Azərbaycan kinosu, mədəniyyətimiz var, Səyavuş Aslanın sənəti də yaşayacaq". Düz 10 il əvvəl deyilmiş bu sözlər indi də öz qüvvəsində qalır, bundan sonra da çox onilliklər boyunca belə olacaq.

Müəyyən səbəblərə görə, "muzkomediya"nı tərk edəndə onu uşaqlıq dostu, birlikdə dərnəyə getdiyi Həsənağa Turabov rəhbərlik etdiyi "Azdrama"ya çağırıb. Böyük sənətkar həmin teatrda və televiziya tamaşalarında da yaddaqalan obrazlar yaradıb. Bununla bərabər, Səyavuş Aslanın səsi, jestləri, idimi, təbii yumor hissi ilə daha çox komediya aktyoru kimi ürəkləri fəth etdiyi vurğulanır.

Düz 12 il əvvəl, bir yay günü dünyasını dəyişən görkəmli aktyor Səyavuş Aslan parlaq obrazlar qalereyası ilə teatrımızın, kinomuzun tarixində və sənətsevərlərin qəlbində əbədi qalacaq.

***Ə.DOSTƏLİ***
***XQ***

# Təhsil krediti tələbənin arxa-dayağıdır

## *Ötən il 6 min 562 gənc bu dəstəkdən faydalanıb*

**Hər bir şagirdin ürəyində bir arzu qanadlanır – universitet qapısından içəri keçmək, auditoriyaların səs-küyünü duymaq, gələcəyin yetkin gənci kimi yetişmək.**



Ali məktəbə qəbul olmaq isə insanın tale imtahanıdır. Və "qəbul oldunuz" xəbərini almaq həyatın ən unudulmaz anı olur. Həmin an insanın ürəyi qürurla döyünür, qarşısında yeni bir meydan açılır.

Lakin ali məktəbə qəbul müəyyən qayğı da doğurur: təhsil haqqı. Bu zaman gəncin sevinci çox vaxt valideynin düşüncəli baxışları ilə qarışır. Çünki övladının oxumasını istəyən valideyn bəzən ən böyük sınağı məhz bu məqamda yaşayır: "Övladım təhsilsiz qalmasın!".

Valideynlər "ayağını yorğanına görə uzat" atalar sözü ilə razılaşsalar da övladının ali təhsil alması vaxtı çatanda bu məsləhət çox vaxt işə yaramır. Çünki övladının arzusu bəzən ata-anasının gözündə ən böyük ucalıq olur. Təhsil kreditləri isə valideynlərin çiyinlərindəki ağır yükü bir az da olsa yüngülləşdirir, tələbələrin yolunu işıqlandırır. Bu kreditlər təhsil haqqına, dərs vəsaitlərinə sərf olunur. Ən mühümü isə tələbə bu krediti təhsili tamamladıqdan sonra ödəməyə başlayır. Bu isə gəncin maneəsiz təhsil almasına imkan verir. Ən böyük üstünlüklərdən biri isə kredit faizlərinin aşağı olmasıdır. Dövlət dəstəyi ilə verilən kreditlər maksimum 10 il ərzində ödənilə bilir. Təhsil Nazirliyinin saytındakı kalkulyator vasitəsilə hər kəs öz imkanlarını əvvəlcədən hesablayır.

Bu gün tələbə təhsil krediti təkcə maliyyə dəstəyi deyil, həm də elmə, təhsilə həvəs oyadır. Təhsildən qopmamaq, arzularını yarıda buraxmamaq üçün yaradılan bu imkanlar sayəsində yüzlərlə tələbə auditoriyalara qovuşur, gələcəyin peşəkarı olmaq yolunda inamla addımlayır.

**2021-ci ildə yaradılan Təhsil Tələbə Kredit Fondundan yararlanan tələbələrdən biri də Aytac Baxşıyevadır. O, öz təcrübəsini belə bölüşür:**

– 3-cü kursda oxuyanda bacım Nərmin də universitetə qəbul oldu. Hər ikimizin təhsil xərci ailəmiz üçün ağır yük idi. Valideynlərimə daha çox yük düşməsin deyə təhsil haqqının ödənilməsində təhsil tələbə kreditindən istifadə etməyə qərar verdim. Müraciət prosesi çox sadə idi. Lazımi sənədlərlə müraciət etdim və qəbul olundum. Kreditin şərtlərinə görə bu vəsait semestrlərə bölünür və illik təhsil haqqının 20 faizini tələbə, qalan hissəni isə Fond ödəyir.

Standart tələbə kreditində illik dərəcə 6 faiz təşkil edir. Lakin tələbənin orta qiymət göstəricisi (ÜOMG) 91 baldan yuxarı olduqda, həmin semestr üçün faiz hesablanmır. Bu, yaxşı oxuyan tələbələr üçün böyük üstünlükdür.

Mən bakalavr təhsilimin iki dövründə, magistratura təhsilimin isə bir dövründə bu kreditdən yararlanmışam. Şərtlərdən biri də odur ki, rəsmi iş olmadığı müddətdə kreditin ödənişi başlamır. Yalnız işlədikdə ödəniş aylıq gəlirlərə uyğun şəkildə həyata keçirilir.

### Kreditin alınması və müraciət prosesi rahatdır

Təhsil Tələbə Krediti Fondu tələbələrə maddi-mənəvi dayaqdır. Çünki gənclər valideynlərinə yük olmadan təhsillərini davam etdirə, gələcək karyeraları yolunda inamlı addımlar ata bilirlər. Fondun ən son statistikasına nəzər saldıqda görünür ki, bu günədək elektron portala 62 mindən çox müraciət daxil olub və bu, minlərlə gəncin öz arzusuna çatmasına imkan verib. 48 mindən artıq kredit müqaviləsi rəsmiləşdirilib ki, bu da çoxsaylı tələbənin bilikli gələcəyə doğru addımlamasına şərait yaradıb. Təkcə ötən tədris ilinin payız semestrində 9 min 340 müraciət qeydə alınıb, onların 6 min 562-si təsdiqlənərək kreditlə təmin olunub. Bu göstəricilər arasında 2 min 337 tələbə sosial kredit, 4 min 225 tələbə isə standart kredit əldə edib.

Mövzu ilə bağlı TTKF ictimaiyyətlə əlaqələr şöbəsindən bildirildi ki, təhsil tələbə kreditlərindən yalnız Azərbaycan vətəndaşı olan tələbələr istifadə edə bilərlər. Bu imkan birinci kursun ilk semestrindən əyani və ödənişli əsaslarla təhsil alan tələbələr üçün əlçatandır.

Kreditlər isə iki növdə təqdim olunur, yalnız sosial statusu olan tələbələr üçün sosial kreditlər – illik 2 faizlə, sosial statusu olmayan tələbələr üçün standart kreditlər – illik 6 faizlə. Qeyd edək ki, ailədə bir neçə uşaq eyni vaxtda təhsil alırsa, hər biri kreditdən faydalanmaq imkanına sahib olur.

***Ləman TƏHMƏZ***
***XQ***

# Tariximizin yorulmaz tədqiqatçısı



**"Orta Əsr Ağsu Şəhəri" Dövlət Tarix-Mədəniyyət Qoruğunda AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun İslam dövrü arxeologiyası şöbəsinin müdiri, tarix elmləri doktoru, professor Qafar Cəbiyevin anadan olmasının 75 illik yubileyinə həsr edilmiş elmi-praktiki konfrans keçirilib.**

Mərasimi AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli açaraq son illərdə rəhbərlik etdiyi qurumda aparılan yeniləşmə prosesləri və islahatlardan, o cümlədən arxeologiya sahəsi üzrə əldə olunmuş nailiyyətlərdən danışıb. Natiq bildirib ki, 75 illik yubileyi qeyd edilən professor Qafar Cəbiyev ömrünün böyük bir hissəsini Azərbaycan tarixinin, xüsusilə də orta əsrlər arxeologiyasının araşdırılmasına həsr edib. Qeyd edib ki, Qafar Cəbiyevin araşdırmaları nəticəsində orta əsr yaşayış məskənləri haqqında bir çox yeni elmi faktlar aşkarlanıb, arxeologiya elmimiz zənginləşdirilib.

AMEA rəhbəri vurğulayıb ki, alimin ən böyük xidmətlərindən biri Girdiman vilayətinin tarixi ilə bağlı apardığı tədqiqatlardır.

Ağsu rayonu ərazisində, eləcə də Qəbələ, Şamaxı, İsmayıllı rayonlarında apardığı mühüm tədqiqatları xüsusi qeyd edən akademik İsa Həbibbəyli Qafar Cəbiyevin həm də Basqal arxeoloji ekspedisiyasının rəhbəri kimi ölkəmizin maddi-mədəni irsinin qorunmasına mühüm töhfələr verdiyini dilə gətirib.

AMEA prezidenti əlavə edib ki, Qafar Cəbiyevin əsərləri və elmi fəaliyyəti təkcə ölkəmizdə deyil, beynəlxalq aləmdə də tanınır. Onun məqalələri müxtəlif ölkələrin elmi nəşrlərində dərc olunub, konfranslarda təqdim edilib. Alim dəfələrlə beynəlxalq tədbirlərdə çıxış edərək Azərbaycanın qədim tarixini və arxeoloji tapıntılarını dünya elmi müstəvisində təqdim edib.

Akademik qeyd edib ki, Qafar Cəbiyev elmi fəaliyyətində olduğu kimi, pedaqoji işində də seçilib. Onun yetişdirdiyi tələbələr bu gün Azərbaycanın müxtəlif bölgələrində tarixçi və arxeoloq kimi fəaliyyət göstərirlər.

Sonda AMEA rəhbəri Qafar Cəbiyevin Azərbaycan elminə verdiyi xidmətlərin gələcək nəsillər üçün etibarlı örnək olduğunu vurğulayıb və onu 75 illik yubileyi münasibətilə təbrik edib, ona AMEA-nın Fəxri fərmanını təqdim edib.

Ağsu Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov tanınmış alim, jurnalist, ictimai xadim Qafar Cəbiyevi 75 illik yubileyi münasibətilə təbrik edib. O bildirib ki, Qafar Cəbiyev həm məhsuldar tarixçi alim, həm də istedadlı qələm sahibi kimi Azərbaycan elminə və mətbuatına böyük töhfələr vermişdir.

Milli Məclisin deputatı Elçin Mirzəbəyli, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi, professor Səbinə Hacıyeva, SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının sədri biologiya üzrə fəlsəfə doktoru Ruhəngiz Heydərova, AMEA Arxeologiya və Antropologiya İnstitutunun direktoru, dosent Fərhad Quliyev, institutun şöbə müdiri, professor Abbas Seyidov, professor Şikar Qasımov, tarix üzrə fəlsəfə doktoru Fariz Xəlilli çıxış edərək yubilyarın tarix elminin inkişafındakı xidmətlərindən danışıb, ona öz təbriklərini çatdırıblar.

Yubiley mərasimində çıxış edən professor Qafar Cəbiyev ona ünvanlanmış təbriklərə, xoş sözlərə görə minnətdarlığını bildirib və Azərbaycan tarixindən, keçdiyi həyat yolundan maraq kəsb edən qısa məlumat verib.

Sonda professor Qafar Cəbiyevin həyat və elmi fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

***Qabil YUSİFOĞLU***
***XQ***

# Naftalanın şəfa qaynaqlarında şərait müasirləşdirilib

## *Xidmətlər də buna uyğunlaşdırılmalıdır*




**Azərbaycanın sağlamlıq turizmi xəritəsində xüsusilə seçilən Naftalan şəhəri yalnız unikal müalicəvi nefti ilə deyil, həm də sanatoriyalarının keçdiyi inkişaf yolu ilə diqqət çəkir. Şəhərin təbiəti və tarixi üstünlükləri onu digər müalicə mərkəzlərindən fərqləndirir. Amma inkişaf yalnız görünüşdə deyil, xidmətin mahiyyətində də əksini tapmalıdır. Təəssüf ki, bu sahədəki inkişaf, bəzən zahiri parıltı ilə məhdudlaşır və ilk baxışda xırda görünsə də bəzi vacib məsələlər gözdən qaçır. Elə söhbətimiz də bu barədədir.**

Son illərdə Naftalan şəhərində mühüm irəliləyişlər müşahidə olunur. Şəhərin yaşıllıqları artırılıb, infrastruktura yeniliklər





edilib və həm yerli, həm də xarici turistlər üçün komfortlu şərait yaradılıb.

Şəhər icra hakimiyyətinin sanatoriyalarla əməkdaşlığı da xüsusi diqqətə layiqdir. Dincələnlər arasında tez-tez rəy sorğularının keçirilməsi, xarici qonaqlarla görüşlər və ümumilikdə müştəri məmnuniyyətinə yönəlmiş bir sıra tədbirlər təqdirəlayiqdir. Şəhər icra hakimiyyətinin başçısı Vüqar Novruzov kreativliyi, təşəbbüskarlığı ilə seçilir. Şəhid ailələrinə, imkansızlara, qazilərə xüsusi diqqətlə yanaşan, şəhərdə hörmət-izzət qazanan bir məmurdur. Naftalanın təbliği üçün əlindən gələni edir. Bəlkə də imkanı olsa Naftalana gələn bütün xarici qonaqlarla görüşər, onların rəyini öyrənər. Lakin bütün bunlar da görünür azlıq edir…

Naftalanın sanatoriyalarında xidmət edənlərin böyük əksəriyyəti gənclərdir. Goranboy, Yevlax, Mingəçevir və digər ətraf rayonlardan gələn bu əməkdaşlar enerjili və həvəsli olmaları ilə diqqət çəkirlər. Lakin bir çoxunun peşə hazırlığı və təcrübəsi yetərli deyil. Əsas gigiyena, masaüstü xidmət mədəniyyəti və düzgün ünsiyyət kimi bacarıqlara sahib olmamaları, turistlərdə çaşqınlıq yaradır. Bu, xidmətin keyfiyyətinə az da olsa mənfi təsir göstərir.

Məsələn, bir restoran əməkdaşından "kakao varmı?" sualı verildikdə, yanlış olaraq kofe gətirilir və bunun izahı belə verilir: "Elə bilirdim eyni şeydir, sən demə, fərqlidir", Bu sadə nümunə, xidmət heyətinin elementar biliklərdən məhrum olduğunu açıq şəkildə göstərir. Həmçinin yemək zamanı hələ süfrədə oturan qonaqların qabağından boş qab-qacağın səs-küylə toplanması da peşəkar yanaşma ilə ziddiyyət təşkil edir. Bütün bunlar turistin rahatlığını və məmnuniyyətini poza bilər.

Sanatoriyalarda çalışan gənclərin maaşları da ciddi problem yaradandır. Burada sutkanın 12 saatını pis-yaxşı işləyən gənc əməkdaş yalnız 350-360 manat civarında maaş alır. Bu, onlara nəinki düzgün təlim keçirmək, hətta şəxsi həyatı üçün ehtiyac duyduqları maddi dəstəyi təmin etmək belə yetərli olmur. Belə maaşla yüksək xidmət keyfiyyətini təmin etmək sadəcə mümkün deyil. Əlavə olaraq, işçilərin çoxu xarici dil bilmir, xüsusilə də ingilis dilini və ya turistlər üçün vacib olan digər dilləri. Müsbət bir dəyişiklik olsa da bu sahədə gənclərin ən azından MDB ölkələrindən gələn qonaqlarla ünsiyyət quracaq qədər lokal dilləri bilməsi vacibdir. Qonşu masaj otağından səs gəlir: “buna rusca necə deyim ki, indi də arxası üstə uzan?”

Yeri gəlmişkən, sanatoriyaların bir çoxunda, xüsusilə masaj və fizioterapiya bölmələrində bir sıra digər çatışmazlıqlar hələ tam aradan qaldırılmayıb. Otaqlarda çalışan bəzi əməkdaşlar arasında yüksək səs-küylə zarafatlar, şəxsi söhbətlər və etikadan uzaq davranışlar müşahidə olunur. Bu, həm fiziki, həm də emosional rahatlığına ehtiyac duyan pasiyentlərə ciddi şəkildə mənfi təsir edir. Həmçinin masaj otaqları arasındakı sadə pərdələr səs-küyün digər otaqlara ötürülməsinə səbəb olur. Belə vəziyyət isə “beşulduz” sanatoriya iddiasında olan bir müəssisə üçün qəbuledilməzdir.

Bütün bunlar göstərir ki, xidmətin keyfiyyətini artırmaq və pasiyentlərin məmnuniyyətini təmin etmək üçün ciddi təkmilləşdirmələrə ehtiyac var.

Naftalan artıq beynəlxalq səviyyədə tanınan bir müalicə və istirahət məkanına çevrilmək üzrədir. Amma bu iddianın reallığa çevrilməsi üçün sanatoriyalar yalnız zahiri görkəmlə deyil, həm də xidmətin keyfiyyəti ilə mükəmməl olmalıdır. Yalnız peşəkar xidmət, diqqətli yanaşma və müasir xidmət standartları Naftalanın turizm bazarında rəqabətə girməsinə imkan verə bilər.

Sanatoriyalar müasir tələblərə cavab vermək üçün xidmət personalının hazırlığına daha ciddi yanaşmalıdır. Gənc heyətə sadəcə iş imkanı verməklə kifayətlənmək olmaz; onlar həmçinin etik davranış qaydaları, ünsiyyət mədəniyyəti, gigiyena və masaüstü xidmətlə bağlı mütəmadi təlimlərdən keçməlidirlər. Bu, həm yerli, həm də xarici turistlər üçün daha mükəmməl bir təcrübə təmin edər.

Naftalan sanatoriyalarının demək olar ki, 90 faizində, hətta “beşulduzlarda” hələ də canlı növbə sistemi tətbiq olunur. Növbə sistemi guya var, amma o, əksər hallarda kağız üzərində qalır. Bəzən növbədə dayananların ucbatından dəhlizlərdən keçmək olmur. Hələ səs-küyü, “mənim növbəmdir” deyə mübahisə edənləri demirik. Belə vəziyyət pasiyentlər, həm də sanatoriya personalı üçün böyük narahatlıq yaradır. Modern turizm anlayışlarında isə elektron növbə sistemləri uzun müddətdir ki, tətbiq olunur. Bu sistemin tətbiqi, xəstələrin vaxt itkisini azaldar və onların daha rahat bir təcrübə yaşamasına səbəb olar. Sanatoriya işçiləri iddia edirlər ki, bu cür xoşagəlməz vəziyyətin yaranmasının bir günahkarı da dincələnlərin, müalicə alanların özləridir. Vaxt təyin olunsa da ona əməl etmirlər.

Masaj və fizioterapiya otaqlarında, həmçinin sükut və peşəkar yanaşmanın üstünlük təşkil etməsi zəruridir. Xəstənin emosional və fiziki rahatlığı hər şeydən önə çəkilməli, etik davranış qaydaları nəzarətdə saxlanmalıdır.

...Naftalan şəhəri unikal təbiəti, şəfaverici nefti və tarixi zənginliyi ilə turizm sahəsində böyük potensiala sahibdir. Amma bunun beynəlxalq səviyyədə rəqabətə girməsi üçün yalnız infrastruktur və gözəlliklər deyil, həm də xidmətin keyfiyyəti yüksəlməlidir. Detallarda gizlənən bu keyfiyyətlər Naftalanın beynəlxalq turizm bazarında daha parlaq bir yer tutmasına, heç şübhəsiz imkan verəcəkdir.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

**Naftalan**


“Azərbaycan Hava Yolları” QSC

***“AZAL Miles” loyallıq proqramı üçün ssenari əsasında korporativ videoçarxın hazırlanması xidmətinin satın alınması üçün***

AÇIQ TENDER ELAN EDİR

"Azərbaycan Hava Yolları" QSC - “AZAL Miles” loyallıq proqramı üçün ssenari əsasında korporativ videoçarxın hazırlanması xidmətinin satın alınması üçün açıq tenderində iştirakçılar veronika.oborskaya@azal.az elektron poçt ünvanına yazılı müraciət etməklə prosedurun şərtlər toplusunu əldə edə bilərlər.

Təkliflərin təqdim olunması üçün son tarix 22 sentyabr 2025-ci il saat 15:00-dəkdir.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Prosedur üzrə əlaqələndirici şəxs – Veronika Oborskaya, İnnovativ və marketinq məhsullarının təchizatı şöbəsinin layihə rəhbəri, veronika.oborskaya@azal.az, iş – (+99412) 4972600 daxili 4258.


# IDEA Xaçmazda da quşları xilas edib

**IDEA İctimai Birliyinin rəsmi sosial media hesabına ünvanlanan vətəndaş müraciətinə əsaslanaraq, İctimai Birliyin təşəbbüsü, Daxili İşlər Nazirliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyi əməkdaşlarının birgə iştirakı ilə Xaçmaz rayonunda fəaliyyət göstərən iaşə obyektlərindən birində təcili araşdırma tədbirləri həyata keçirilib.**



İctimai Birlikdən verilən məlumata görə, araşdırma nəticəsində rayonun Müşkür kəndi ərazisində yerləşən “Çənlibel” restoranında qanunsuz olaraq bir sıra fauna növlərinin saxlanılması faktı aşkarlanıb.

Bakı Zooloji Parkının baytar mütəxəssisləri tərəfindən ərazidən adı “Qırmızı





kitab”a salınmış 1 adi flaminqo (qızılqaz), 2 harayçı qu quşu və 3 şinşilla götürülüb. Xilas edilən heyvanların ilkin müayinəsi zamanı təbii miqrasiya prosesinə mane olmaq məqsədilə flaminqo və harayçı qu quşlarının qanadlarının uclarının kəsildiyi faktı aşkarlanıb. Hazırda heyvanların klinik şəraitdə müayinə və reabilitasiyası davam etdirilir.

IDEA İctimai Birliyi vətəndaşları bir daha təbiəti qorumağa çağırır və vəhşi heyvanların qanunsuz olaraq saxlanması hallarına yol verilməməsini, bu kimi hallarla rastlaşdıqda isə IDEA İctimai Birliyinin 1113 “Təbiətə Təcili Yardım” qaynar xəttinə və ya rəsmi sosial media kanallarına məlumat vermələrini xahiş edir.

*Xuntaçıların məhkəməsi*

# Xocalı qatillərinin adları və hərbi cinayətlər açıqlanıb

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası sentyabrın 4-də davam etdirilib.**




Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxs Qarik Martirosyanın cinayət işi üzrə ibtidai istintaqa verdiyi ifadələr və ona aid digər sənədlər səsləndirilib. O, ibtidai istintaqa verdiyi ifadələrə əsasən 1993-cü ilin əvvəllərindən 1994-cü ilin sonlarınadək, habelə 2020-ci ildə 44 günlük müharibə zamanı və 2023-cü ilin yanvar ayından sentyabrın 20-dək olan müddətdə döyüş mövqelərində olub, silahla Azərbaycan əsgərlərinə atəşlər açıb.

Xocalı rayonu ərazisində yaranmış “Əsgəran özünümüdafiə birləşmələri” adlı hərbi birləşməyə Vitali Balasanyan rəhbərlik edib. Qarik Martirosyan da 1993-cü ilin əvvəllərindən etibarən həmin hərbi birləşmələrin tərkibinə daxil olub. 44 günlük müharibə başa çatdıqdan sonra Əsgəran rayon icra hakimiyyətindən “rayona tabe olan kəndləri qoruyan” şəxslərə pul verildiyini eşidib oraya gedib, ona 200 min Ermənistan dramı (500 ABŞ dolları) pul verilib.

Daha sonra təqsirləndirilən şəxs Madat Babayan bildirib ki, 1988-ci ildə Xankəndi şəhərində ermənilər silahlı dəstələr yaradaraq müxtəlif ərazilərdə azərbaycanlı əhaliyə qarşı kütləvi qırğınlar təşkil etməyə başlayıblar. 1990-1992-ci illərdə Ağdərə rayonunun ərazisində yaşayan azərbaycanlı əhalinin məskunlaşdığı Sırxavənd, Umudlu, Baş Güneypəyə, Bəşirlər, Canyataq, Çərəktar, Damğalı, Gülyataq, Hayad, Xatınbəyli, İmarət Qərvənd, Qaraşlar, Qazançı, Məlikli, Maralyansarov, Orta Güneypəyə, Şahmansurlu, Yarımca, Yeni Qaralar və digər kəndlərin ərazisində Azərbaycana qarşı aparılan döyüş əməliyyatlarında iştirak edib. 1990-1994-cü illərdə Suqovuşan kəndi istiqamətində gedən döyüşlərdə də iştirak edib. Orada çoxsaylı Azərbaycan Respublikasının hərbi qulluqçularını öldürüblər.

Müharibə zamanı 1992-ci il fevralın 23-də o, döyüşçü yoldaşları Vamik Petrosyan, Valerik Petrosyan, David Qriqoryan, Albert Qriqoryan (“Abo” ləqəbli), Şirin Şirinyan, Spartak Akopyan və adlarını xatırlamadığı digər 20 nəfər silahlı döyüşçü ilə birlikdə Xankəndi şəhərinə gəliblər. O, həmin ərəfələrdə Ermənistan silahlı qüvvələrinin hərbi birləşmələrinin rəhbərlərinin Samvel Babayan, Seyran Ohanyan, Arkadi Ter-Tadevosyan, Vitali Balasanyan adlı şəxslər olduğunu bildirib. Fevralın 24-də Arkadi Şirinyan həmin vaxt 3 bölüyün qarşısında çıxış edərək növbəti gün, yəni 1992-ci il fevralın 25-də gecə radələrində hücuma keçərək Xocalıda yaşayan azərbaycanlı dinc əhaliyə qarşı qətliam törədəcəklərini bildirib. Onlar komandir Arkadi Şirinyanın əmrinə uyğun olaraq hazırlıq görməyə başlayıblar.

Onlar fevralın 25-dən 26-na keçən gecə saat 24 radələrində Xocalı şəhərinə daxil olublar. Şəhərə daxil olduqdan sonra hər iki tərəfdən avtomat, pulemyot, qumbaraatanlardan istifadə edilməklə Xocalıda qarşılarına çıxan dinc əhaliyə atəş açmağa, evləri yandırmağa başlayıblar. Dinc sakinlər qaçarkən əvvəlcədən şəhərin ətrafında postlar qurmuş Ermənistan silahlı qüvvələrinin digər hərbçiləri tərəfindən güllələnib.

M.Babayan da həmin vaxt əmrə əsasən qadın, kişi, qoca, yaşlı demədən avtomatla hamıya aramsız atəş açıb. Arkadi Şirinyan və digər komandirlər əmr ediblər ki, orada xüsusi vəhşiliklər törədilsin. Ümumiyyətlə, Xocalı şəhəri uzun müddət mühasirədə olduğundan sakinlər şəhərdən çıxa bilməyib, hücum zamanı çox az sayda insan xilas ola bilib. Atəş dayandırıldıqdan sonra onlar 150-200 meyit yığıblar. Onların arasında azyaşlı uşaqlar, cavan-yaşlı qadınlar, kişilər, qocalar olub. 1992-ci il fevralın 26-dan martın 8-dək Xocalıda talanlar davam edib.

M.Babayan bildirib ki, 1993-cü il noyabrın 16-dək Suqovuşan, Heyvalı, Canyataq, Gülyataq kəndləri, Ağdərə şəhəri, Talış, Seysulan kəndləri ərazisində gedən döyüşlərdə iştirak edib. 2020-ci ilin sentyabr-noyabr aylarında 44 günlük müharibədə övladları Armen Babayan və Masis Babayan bir sıra döyüşlərə qatılıblar.

Sonra təqsirləndirilən D.Allahverdiyan qeyd edib ki, 2023-cü ilin sentyabrında antiterror əməliyyatı zamanı Azərbaycan hərbçiləri tərəfindən tutularkən üzərində avtomat silah, onun darağı və patronları olub. Vasili Beqlaryan bildirib ki, 2023-cü ilin sentyabr ayında Azərbaycan Ordusunun keçirdiyi antiterror əməliyyatı zamanı tutulub. Erik Qazaryan 2023-cü ilin sentyabr ayınadək Azərbaycanın o vaxt işğal altında olan ərazilərində hərbi xidmətdə olub, həmin ilin sentyabr ayında Azərbaycan Ordusunun hərbi qulluqçuları tərəfindən tərk-silah edilib.

Məhkəmə prosesi sentyabrın 5-də davam etdiriləcək.

***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az

№ 188 (30882) 5 sentyabr 2025-ci il, cümə

## İDMAN

### Cüdoçularımızdan 2 qızıl, 1 bürünc medal




**Slovakiyanın paytaxtı Bratislava şəhərində cüdo üzrə gənclər arasında Avropa çempionatı davam edir. İlk yarış günündə Azərbaycan cüdoçuları Məhəmməd Musayev (66 kiloqram) və Nihad Məmişov (60 kiloqram) keçirdikləri bütün görüşləri qələbə ilə başa vuraraq finala vəsiqə qazanıblar. Final görüşündə də rəqibə şans verməyən cüdoçularımız Bratislavda Azərbaycan himnini səsləndiriblər.**

Digər təmsilçimiz Fərid Qarayev (60 kiloqram) isə bürünc medal qazanıb. Qeyd edək ki, Fərid yalnız 4/1 finalda komanda yoldaşı Nihad Məmişova məğlub olub.

Aktivində 2 qızıl və 1 bürünc medal olan yığmamız ümumi komanda hesabında ikinci, kişilər arasında birinci pillədə qərarlaşıb.

### 6 badmintonçumuz "Top-100"də

**Azərbaycanın 6 badmintonçusu tarixdə ilk dəfə "Top-100"də yer alıb.**

Azərbaycan Badminton Federasiyasının mətbuat xidmətindən bildirilib ki, Dünya Badminton Federasiyasının (BWF) açıqladığı yeni reytinq siyahısında Azərbaycanın təmsilçiləri 4 kateqoriya üzrə "Top-100"də yer alıb.

Tokio və Paris olimpiadasının iştirakçısı Edi Reski Dviçayo kişilərin şəxsi yarışında 78-cidir. Paris olimpiadasında ən gənc badmintonçu olan Keişa Fatimə Zəhra isə qadınların şəxsi kateqoriyasında 57-ci sırada yer alıb.

Kişilərin qoşa yarışında Aqil Qəbilov-Diki Pangestu tandemi reytinqdə 78-ci, Cahid Əlhəsənov-Həcər Nuriyeva cütü isə 92-ci pillədə qərarlaşıb.

Ülvi Hüseynov yeniyetmə oğlanların şəxsi kateqoriyasında dünya üzrə reytinq sıralamasında 28-ci, Həcər Nuriyeva isə qızların şəxsi kateqoriyasında 53-cü sıradadır.

### Zaur ilk döyüşünü qələbə ilə başa vurub




**Azərbaycan boksçusu Zaur Qəhrəmanov Liverpulda dünya çempionatına qələbə ilə başlayıb.**

Boks Federasiyasından bildirilib ki, 65 kiloqram çəkidə mübarizə aparan milli üzvü 1/32 finalda Denis Brillə (Almaniya) qarşılaşıb.

Hər 3 raundu xeyrinə bitirən boksçumuz yekunda 4:1 (27:30, 29:28, 29:28, 29:28, 30:27) hesabı ilə qələbə qazanıb.

Zaur 1/16 finalda ilk mərhələdən azad olan Falkao Dos Reyslə (Braziliya) döyüşəcək.

*Qabil YUSİFOĞLU*
*XQ*

*✓ 2025-ci il yanvarın 8-də Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən Alıyev Elçin Xaləddin oğlunun adına verilmiş PX seriyalı , 6641 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.*

*✓ "Gəncə Tibbi Reabilitasiya Mərkəzi " MMC-nin dairəvi möhürü itdiyi üçün etibarsız sayılır. (VÖEN-2302820091)*

*Mundial–2026*

# Millimiz "Hafnarfyordur"un vətənində

## *Komandadan gözləntimiz əzmkar oyun, uğurlu nəticədir*



**Böyük xoşbəxtlikdir, artıq bir həftədir ki, adı həmişəkindən də əzəmətlə səslənən Ağdamın "Qarabağ" komandasının UEFA Çempionlar Liqası turnirinin nəhənglər meydanına vəsiqə qazanmasına hədsiz dərəcədə sevindiyimiz, burada İngiltərənin "Çelsi" və "Liverpul", Almaniyanın "Ayntraxt", Portuqaliyanın "Benfika", Niderlandın "Ayaks", İtaliyanın "Napoli", Danimarkanın "Kopenhagen" və İspaniyanın "Atletik Bilbao" klubları ilə görüşlərini izləməyə hazırlaşdığımız günlərdə Azərbaycan milli komandası 2026-cı il Dünya çempionatının seçmə yarışlarında yaşıl meydana çıxır. İlk rəqibimiz bu gün Bakı vaxtı ilə saat 22:45-də İslandiyanın paytaxtı Reykyavikdə başlanacaq oyunda həmin ölkənin komandasıdır.**

Azərbaycan və İslandiya mundialın Avropa zonasının seçmə mərhələ yarışlarında Fransa və Ukrayna ilə birlikdə "D" qrupuna daxildirlər. Qrupda 1-ci turun digər oyunu da bu günə təyin edilib. Rusiya–Ukrayna müharibəsi ilə əlaqədar bitərəf meydanda–Polşanın Vrotslav şəhərində keçiriləcək görüşdə unudulmaz futbolçu və məşqçi Valeri Lobanovskinin həmvətənləri Fransa komandası ilə qarşılaşacaqlar.

Dünya çempionatının final mərhələsinin gələn ilin iyun-iyul aylarında ABŞ, Kanada və Meksikada keçiriləcəyi azarkeşlərə çoxdan məlumdur. Yalnız bir məqamı xüsusi qeyd etmək olar ki, bununla da Meksika dünya futbolu tarixində 3 mundialın yeganə təşkilatçısı kimi böyük qürur hissi yaşayacaq. Əvvəllər bu ölkə 1970 və 1986-cı illərdə dünya futbol bayramına ev sahibliyi edib. "Mexico-86"nın oyunlarını birbaşa hadisə yerində izləmiş bu sətrlərin müəllifi də daim həmin çempionatı xoş hisslərlə xatırlayır.

Seçmə sınaqlarının Avropa zonasında qrupların qalibləri final mərhələsinə birbaşa vəsiqə qazanacaqlar. Qruplarda daha yaxşı nəticələrlə ikinci yerlərin sahibləri dünya çempionatı final turnirinin iştirakçısı olmaq uğrunda pley-off görüşlərində mübarizə aparacaqlar.

Bizim qrupda seçmə mərhələyə noyabrın 16-da yekun vurulacaq. Həmin gün Tofiq Bəhramov adına Respublika Stadionunda Azərbaycan–Fransa görüşünə şahidlik edəcəyik.

Hələlik isə komandamız İslandiya millisinin qonağıdır. Futbolçularımız bugünkü oyundan sonra dərhal Bakıya qayıdıb, Ukrayna ilə matça hazırlaşmağa başlayacaqlar. Məhz bu iki start qarşılaşmasında uğurlu nəticələr sonrakı oyunlara hazırlıq prosesində komandanın gücünə əlavə güc qata bilər.

Baş məşqçimiz Fernandu Santuş İslandiya və Ukrayna ilə oyunlar üçün təlim-məşq toplanışına 24 futbolçu dəvət edib. Onların siyahısı ilə tanış olarkən burada gördüyün adlar axşamkı görüş ərəfəsində adamı müəyyən dərəcədə ümidləndirir.

Düşünürsən ki, "Qarabağ"ın Çempionlar Liqasının əsas mərhələsində ikinci dəfə ölkəmizi təmsil etmək hüququ qazanmasında böyük xidmətləri olmuş Nəriman Axundzadə, Musa Qurbanlı, Bəhlul Mustafazadə, Elvin Cəfərquliyev, Toral Bayramov, eləcə də, Almaniyada "Kayzerslautern"in şərəfini qoruyan Mahir Emreli, "Neftçi"nin kapitanı Emin Mahmudov, "Motor"un heyətində, Polşa çempionatında çıxış edən Renat Dadaşov və onların milli komandadakı yoldaşları artıq kifayət qədər təcrübəli, əzmkar döyüşçülərdir, onlardan İslandiya komandasına ciddi müqavimət, layiqli oyun və uğurlu nəticə gözləmək olar.

Ən başlıcası isə budur ki, İslandiyanın öz azarkeşləri qarşısında oynamasından çəkinməyəsən, meydanda özünü soyuqqanlı aparıb, gözlənilməz və cəsarətli gedişlərlə rəqibə çətin anlar yaşatmağı, əzmkarlıq nümunəsi göstərməyi bacarasan. Əzmkarlıq ustalıq və təcrübə ilə birlikdə çox vacib keyfiyyətdir, məqsədə nail olmaqda mübariz, möhkəm iradəli insanların əsas silahıdır.

İslandiya paytaxtında layiqli mübarizə bir də ona görə çox vacibdir ki, Reykyavik qarşılaşmasından cəmi 4 gün sonra Bakıda Ukrayna komandasını qəbul edəcəyik. Azərbaycan–Ukrayna görüşü hər iki kollektivin pərəstişkarlarını bir anlığa da olsa, keçmiş SSRİ çempionatlarında "Neftçi"nin Kiyev "Dinamo"su ilə gərgin və məzmunlu oyunlarına qaytarıb, şirin xatirələri bir daha yada salacaq.

Millimizin futbolçuları da əmin ola bilərlər ki, azarkeşlərimiz onları var qüvvə ilə dəstəkləməyə hazırdırlar. Hamı yaxşı başa düşür ki, bu bizim millimizdir və onu ürəkdən fəal mübarizəyə ruhlandırmaq hər birimizin mənəvi borcu, şərəf işidir. Sadəcə, ağır sınağa hazır olmaq lazımdır. Özünə inansan, meydanda can qoymağa hazır olsan, İslandiya ilə də oynamaq olar, Ukrayna ilə də...

Başlıqdakı " Hafnaryordur"a gəldikdə, bu ad futbol ictimaiyyətimizə kifayət qədər tanışdır."Neftçi" 2005-ci ilin iyul ayında Çempionlar Liqası turnirinin təsnifat mərhələsində İslandiyanın bu klubuna hər iki oyunda qalib gəlib–Bakıda 2:0, səfər görüşündə 2:1 hesabı ilə.

Bu nəticələri xatırlamaqla istədim deyim ki, axşamkı oyunu nikbinliklə gözləyək.

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

*Günün sualı*

# "Doktor, harda qaldınız?"

## *Təcili tibbi yardım maşınları niyə "yubanır"?*

**"Doktor, sizi gözləyirik, xəstənin həyatı sönür". Hər gün minlərlə belə çağırışa tələsən təcili yardım qrupları doğmalarımıza yeni həyat verirlər. Bəzən onların azacıq gecikməsi faciələrə səbəb olur.**

Təcili tibbi yardım xidməti ilə bağlı belə hallar, şikayətlər təkcə acı təəssüf doğurmur, bəzən cinayət də sayılır. Son zamanlar təcili yardımdan şikayətlər Bakıətrafı kənd və qəsəbələrdən daha çox eşidilir. Gecikmələr isə daha çox gecə saatlarına təsadüf edir. Vətəndaşların sözlərinə görə isə bəzi hallarda təcili tibbi yardım əməkdaşları hətta çağırışa gəlməkdən imtina edirlər. Narazılıqlar sırasında gecikmə ilə yanaşı, xidmətin aşağı səviyyəsi də qeyd edilir. Bildirilir ki, hadisə yerinə bəzən dərman preparatları, tibbi avadanlıqlar, kardioqrama cihazı olmadan gəlirlər.

Məsələyə aydınlıq gətirmək üçün TƏBİB-ə müraciət etdik. Əldə etdiyimiz məlumata görə, təcili tibbi yardım maşınlarının rayonlarda çağırışa yetişmə vaxtı bir sıra amillərdən asılı olaraq dəyişir. Bu müddət orta hesabla 15–20 dəqiqə təşkil edir. Lakin kənd yerlərində həmin vaxt yol və hava şəraiti, məsafə nəzərə alınmaqla, 30 dəqiqə və ya daha artıq ola bilər. Çağırışların pik olduğu saatlarda isə həm obyektiv, həm də subyektiv səbəblərə görə gecikmələr baş verir.

Gecikmələrin minimuma endirilməsi məqsədilə çağırışlar operativ çeşidlənir və müraciət çox olan ərazilərə ətraf bölgələrdən əlavə briqadalar cəlb olunur. Bu, mövcud təcili




yardım qruplarından daha səmərəli istifadə edilməsinə şərait yaradır. Respublika Təcili və Təxirəsalınmaz Tibbi Yardım Mərkəzinin balansında 2010-cu ildən əvvəl istehsal olunmuş, o cümlədən sovet istehsalı olan avtomobillər hələ də qalmaqdadır. Hazırda bu sahədə yenilənmə prosesi gedir və köhnə avtomobillər mərhələli şəkildə yeniləri ilə əvəz olunur. Bu il ərzində 100-dən çox istismara yararsız avtomobil yenilənib.

Ümumiyyətlə, son illər İcbari Tibbi Sığorta sisteminin tətbiqi çərçivəsində təcili tibbi yardım sisteminin infrastrukturunun gücləndirilməsi istiqamətində mühüm addımlar atılıb. 2025-ci ilə qədər ölkə üzrə 400-ə yaxın yeni ambulans istifadəyə verilib. Bu il isə əlavə olaraq 80 "Iveco" markalı təcili tibbi yardım avtomobili alınıb və onların paylanılması prosesinə başlanılıb. Təcili yardım xidmətinin bölgələrdə daha da yaxşılaşdırılması, operativliyin təmin edilməsi və xidmət keyfiyyətinin artırılması məqsədilə tədbirlər davam etdirilir.

TƏBİB-in açıqlamasında Bakıətrafı kənd və qəsəbələrə gecikmələr daha çox mövsümlə əlaqələndirilir. Belə ki, yay mövsümü başlayanda əhalinin çoxu istirahət zonalarına, o cümlədən Bakı kəndlərinə köçür. İlin digər fəsillərində normal olsa da yay aylarında yollardakı tıxaclar həmin zonalara gecikmələr yaradır. Bəzən kritik olmayan çağırışlara bir qədər sonra getmək qərarı alınır. Vəziyyəti daha ağır olan xəstələrin çağırışlarına isə briqada göndərilir. Sonra digər çağırışlara gedilir. Epidemiyalar zamanı təcili yardımın işində böyük gərginlik yaranır...

Məlumatda bildirilir ki, çağırış ünvanında elektrokardioqramma çəkilməsinə təcili tibbi yardım həkimi qərar verir. Bir sıra avtomobillər istənilən vəziyyətdə olan xəstələrin daşınmasına imkan verir. Ambulanslar xəstə tibb müəssisəsinə aparılarkən yolda müalicəyə başlamağa imkan verən geniş çeşiddə dərman və tibbi avadanlıqlarla təmin edilib. Belə ki, reanimobil ambulanslar zəruri tədbirlərin həyata keçirilməsi üçün xüsusi tibbi avadanlıqlarla təchiz olunub.

Qurumdan verilən açıqlamada qeyd olunur ki, gecikməyə səbəblərdən biri də əsassız çağırışlardır. Bu, təcili tibbi yardım imkanlarının düzgün istiqamətlənməsinə mane olmaqla yanaşı, həqiqətən yardıma ehtiyacı olan şəxslərə xidmətin vaxtında göstərilməsinə də mənfi təsir göstərir. Vətəndaşlardan xahiş olunur ki, yalnız təcili tibbi yardıma ehtiyac olduqda "103" xidmətinə müraciət etsinlər. Qaydalara əsasən təcili yardım 15-20 dəqiqəyə, təxirəsalınmaz çağırışlar isə 1 saat ərzində ünvana çatmaq tələb olunur. Qeyd edək ki, təcili çağırışlara ürək dayanması, ağır travmalar (yol-nəqliyyat hadisələri, çoxsaylı sınıqlar və s.), insult və infarkt əlamətləri, tənəffüsün dayanması və ya boğulma halları, şüur itkisi, qanaxma, doğuş və s. aiddir. Təxirəsalınmaz çağırışlara isə yüksək hərarət, arterial təzyiqin artması, baş ağrısı və s. daxildir. Tövsiyə olunur ki, vətəndaşlar təcili olmayan hallar üzrə poliklinikalara və sahə həkimlərinə müraciət etsinlər.

TƏBİB-in açıqlaması göstərir ki, narazılıqlar əbəs deyil. Bunlar qeydə alınır, öyrənilir və cavablandırılır. Problemi daha tez həll etmək üçün aidiyyəti qurumlarla yanaşı, vətəndaşlar da səy göstərməlidirlər. Tıxaclarda ambulansa yol verməmək, yerli-yersiz "103"ə zəng etmək kiminsə həyatı bahasına başa gələ bilər.

*Elenora HƏSƏNOVA*
*XQ*

## Qısamüddətli yağış, bəzi yerlərdə şimşək və dolu

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi yerlərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var.**

Şimal-qərb küləyi əsəcək, gündüz şimal-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturunun gecə 20-24, gündüz 28-33 dərəcə isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 759 millimetr civə sütunu, nisbi rütubət isə gecə 70-80, gündüz 40-45 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüzdən bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə yağışın qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi, gecə və səhər bəzi yerlərdə duman olacağı gözlənilir. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 18-23, gündüz 30-35, dağlarda gecə 12-17, gündüz 18-23 dərəcə isti olacağı bildirilir.

*Q.ƏLİYEV*
*XQ*

**ALLAH RƏHMƏT ELƏSİN**

Milli Arxiv İdarəsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Nazirlər Kabinetinin İşlər müdiri Hikmət Xəlilova bacısı

**SƏADƏT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3456
SİFARİŞ 1737
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
İmran BƏDİRXANLI
Çapa imzalanmışdır 00:00